XALQIN QƏHRƏMANLIQ TARİXİ

Hər kəs ədalətli olacaq

ƏDALƏT

Əli Əsədov qərar imzaladı

Dövlət Miqrasiya Xidmətinin (DMX) xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin maaşları ilə bağlı sənəddə dəyişiklik edilib.

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərarla DMX-nin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri müəyyənləşib (məbləğlər açıqlanmayıb).

Qeyd edək ki, qərar bu ilin yanvarın 1-dən tətbiq edilir.

Türkiyədəki prezident seçkilərinin vaxtı məlum oldu

"Rəhmətlik Menderes 14 may 1950-ci ildə "Yetər, söz millətindir" deyib. Millətimiz 73 il sonra, eyni gündə "altılı masa" deyə qarşımıza çıxan çevriliş həvəskarlarına "yetər" deyəcək".

Adalet.az xəbər verir ki, bunu Prezident Rəcəb Ərdoğan Ərdoğan lideri olduğu Ədalət və İnkişaf Partiyasının (AK Partiya) Türkiyə Böyük Millət Məclisindəki (TBMM) qrup toplantısında çıxış edərkən bildirib.

"Milli iradənin ən yüksək məqamı olan Türkiyə Böyük Millət Məclisindən meydan oxuyuram: Nə edirsiniz edin, yenə bacarmayacaqsınız", - Prezident Ərdoğan deyib.

Azərbaycan XİN Avstriyaya cavab verdi

"Laçın yolu açıqdır və hərəkət azadlığı təmin edilir".

Adalet.az xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ayxan Hacızadə tviterdə yazıb.

O bildirib ki, yalnız 2022-ci il dekabrın 12-dən dekabrın 15-dək BQXK-nın, Rusiya sülhməramlı kontingentinin və yerli erməni sakinlərinin 644 texnikası hər iki istiqamətdə keçib: "Blokada" ilə bağlı iddiaların heç bir əsası yoxdur!".

Qeyd edək ki, daha əvvəl Avstriyanın xarici işlər naziri Aleksander Şalenberq Azərbaycanı Laçın yolunu açmağa çağırmışdı.

Ceyhun Bayramov Ararat Mirzoyana cavab verdi

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ölkə parlamentində sualları cavablandırarkən rəsmi İrəvanın bir aydır Bakıdan sülh müqaviləsinə təkliflərlə bağlı cavab gözləməsinə, Azərbaycan tərəfinin guya danışıqları dayandırması ilə bağlı açıqlamalarına münasibət bildirib.

Adalet.az xəbər verir ki, Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə deyib ki, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin, o cümlədən sülh müqaviləsinin imzalanmasının təşəbbüskarının Azərbaycan olduğunu nəzərə alaraq, Ermənistan tərəfinin bu cür açıqlamalar verməsi təəccüb doğurur: "Sülh sazişi üzrə danışıqların bir qayda olaraq Ermənistan tərəfindən təqdim olunan şəkildə aparılmadığını qarşı tərəfə bir daha xatırlatmaq istərdik. Məlumdur ki, sülh sazişi üzrə mətn müzakirələr üçün Azərbaycan tərəfindən ötən ilin 2 oktyabr tarixində Cenevrədə təqdim edilib və sənəd üzrə müzakirələr Vaşinqtonda davam etdirilib. Danışıqlar prosesinin davamı olaraq üçüncü görüşün Moskvada 23 dekabr 2022-ci il tarixində keçirilməsinə razılıq verilməsinə baxmayaraq, məhz Ermənistan tərəfi birtərəfli əsasda görüşdə iştirak etməyib, təəssüf ki, bununla danışıqlar prosesini pozub".

"Bir daha bəyan edirik ki, Azərbaycan sülh prosesinin 5 baza prinsipi əsasında sülh sazişinin imzalanmasına və sözügedən sazişin mətninin təşəbbüskarı kimi danışıqlar üzrə növbəti görüşün qısa müddət ərzində keçirilməsinə hazırdır. Azərbaycan tərəfi Ermənistandan sülh prosesinə xələl gətirən təxribatçı açıqlamalar yox, məhz sülh müqaviləsinin mətni üzrə danışıqlar aparmaq məqsədilə növbəti görüşün keçirilməsinə razılıq verməsini gözləyir", - sözçü qeyd edib.

Faiq QİSMƏTOĞLU

Bizə qəzet lazımdı, ya yox?!

Bax:səh-4

«Azərbaycanda investisiya mühiti çox müsbətdir»

Bax:səh-2

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 3 (5996) 20 yanvar 2023-cü il | Qiyməti 40 qəpik

"Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir"

"Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir". Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında bildirib. "Nisbətən sonra yaratdığımız və hazırda Azərbaycanı, Gürcüstanı, Türkiyəni birləşdirən və Avropaya qədər uzanan dəmir yolu bağlantısı uğurla icra etdiyimiz neft və qaz kəmərləri layihələrindən qaynaqlandı. Hesab edirəm ki, dəhlizin bu tərəfində işlər tamamlanıb, o cümlədən nəqliyyat infrastrukturu yerindədir", - İlham Əliyev deyib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan Xəzər dənizində 53 gəmidən ibarət ən böyük donanmaya malikdir: "Bununla yanaşı, Türkmənistan, Qazaxıstan və Azərbaycanın limanlarını, yaxşı dəmir yolu bağlantısına malik Mərkəzi Asiya ölkələrini qeyd etmək lazımdır. Beləliklə, iştirakçı dövlətlərdən - Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropalı tərəfdaşlardan ibarət icraiyyə komitəsi və ya idarə heyəti yaradılmalıdır".

FHN-də "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir keçirildi

Fövqəladə Hallar Nazirliyinin Aviasiya dəstəsində "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir keçirilib.

Adalet.az xəbər verir ki, əvvəlcə, Aviasiya dəstəsinin şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü önünə gül-çiçək dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Sonra tədbirdə çıxış edənlər dövlət quruculuğuna böyük töhfələr vermiş ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub saxlanılmasında göstərdiyi misilsiz xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, Dahi Rəhbərin zəngin dövlətçilik təcrübəsi, qətiyyətli əzmi sayəsində bu gün Azərbaycan beynəlxalq miqyasda inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəlib. Ulu Öndər Azərbaycanın tərəqqi və inkişaf yolunu müdrik uzaqgörənliklə müəyyənləşdirib, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlayıb, sosial-iqtisadi inkişafa nail olub, müasir ordu quruculuğu, o cümlədən milli zabit kadrlarının hazırlanması üçün tarixi işlər görüb. Bildirilib ki, Ümummilli Liderin siyasi kursu onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tədbirin sonunda Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

NORVEÇLİLƏR NİYƏ XOŞBƏXTDİLƏR?

Bu günlərdə qarşıma bir video çıxdı, bir norveçli danışırdı. Deyirdi ki, norveçlilər dünyanın ən xoşbəxt adamlarıdı:

- Səhiyyə pulsuz, təhsil pulsuz, bağça pulsuz, maaşlar yüksək, iş tapana qədər işsizlərə elə maaş həcmində müavinət, hər uşağa on səkkiz yaşına qədər uşaqpulu, pensiya yüksək...

Və sair və ilaxır, it gəldi çarıx apardı, at gəldi örkən, dedikləri həqiqət idi.

Mənə görə isə norveçlilərin ən böyük xoşbəxtliyi onların ermənı kimi qonşularının olmamasıdı.

DEYƏSƏN, "QARABAĞ"I CADULAYIBLAR

Kadi Borges getdi, bir futbolçusuna da müştəri çıxıb. Adı mənim üçün, mənə görə, heç "Qarabağ" üçün də o qədər önəmli deyil.

Antalyadakı təlim-məşq toplanışında keçirdikləri yoldaşlıq görüşlərində Abbas Hüseynov dizindən ağır yaralanıb. Həkimlərin rəyinə görə, 8 ay yaşıl meydançaya çıxa bilməyəcək. Qapıçımız Şahrudin Məhəmmədəliyevin də qolu qırılıb, təxminən 2 ay da o, "Qarabağ"ın şərəfini qoruya bilməyəcək.

Deyəsən, "Qarabağ"ı cadulayıblar, amma xeyiri yoxdu. Yəqin Qurban hoca bu cadudan "Qarabağ"ı sağ-salamat çıxaracaq və hamımızı sevindirəcək.

"Güclü Türkiyə - güclü NATO deməkdir"

Türkiyə Milli Müdafiə Nazirliyi ölkənin Silahlı Qüvvələrinin iştirak etdiyi NATO təlimlərini əks etdirən video yayımlayıb.

Video nazirliyin "Twitter" hesabında paylaşılıb.

"NATO-nun ikinci ən böyük ordusu olan Türkiyə Silahlı Qüvvələri quruda, dənizdə və havada qüdrəti ilə ittifaqın gücünə güc qatır, NATO-ya töhfə verməyə davam edir. Güclü Türkiyə - güclü NATO, güclü ittifaq deməkdir", - deyə paylaşımda qeyd edilib.

Aqil ABBAS

İTDƏN QORXAN ŞUŞALILAR

Bax:səh-2

"Bizə Ermənistanın Laçın yolu ilə mina daşımasına dair məlumatlar verilib"

"Rəsmi Moskvaya Ermənistan tərəfinin Laçın yolu ilə mina daşımasına dair məlumatlar verilib və bu məlumatlar hazırda araşdırılır".

Adalet.az xəbər verir ki, bunu xarici işlər naziri Sergey Lavrov Rusiya diplomatiyasının 2022-ci ildəki fəaliyyətinin yekunlarına dair mətbuat konfransında deyib. Rusiya XİN rəhbəri vurğulayıb, üçtərəfli bəyanatlara əsasən, Laçın yolu hər iki istiqamətdə nəqliyyat vasitələrinin keçidi üçün sərbəst olmalıdır: "Təbii ki, orada ayrıca qeyd olunub ki, bu marşrutla heç bir hərbi yük göndərilməməlidir. Azərbaycanlılar məlumat veriblər ki, Ermənistan tərəfi bu yol vasitəsilə minalar daşıyıb və daha sonra onlardan üçtərəfli bəyanatlara zidd olaraq Azərbaycan mövqelərinə yaxın ərazilərin minalanması üçün istifadə edilib. Hazırda hərbçilərimiz bu məlumatları araşdırırlar".

Azərbaycan nümayəndələri və Qarabağ ermənilərinin görüşü olub

Azərbaycan nümayəndələri və Qarabağ ermənilərinin Rusiya sülhməramlı komandanlığının iştirakı ilə görüşü keçirilib.

Adalet.az xəbər verir ki, bu barədə Rusiya xarici işlər naziri Sergey Lavrov bu gün keçirdiyi mətbuat konfransında Laçın yolunda yaranmış vəziyyət barədə danışarkən bildirib. Görüşün dünən, ya da srağagün baş tutduğunu qeyd edən Rusiya XİN başçısı məsələnin yaxın vaxtlarda həllini tapacağını düşündüyünü vurğulayıb.

Ermənistanda qalmış 26 erməninin Xankəndiyə keçməsinə şərait yaradılıb

Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 3 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.

Adalet.az apa-ya istinadən xəbər verir ki, toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub.

1 minik, 2 yük maşını Laçından Xankəndi istiqamətinə keçid edib.

Həmin avtomobillərin içərisində isə 26 erməni (onlardan 20-si uşaq idi) olub.

Həmin şəxslər aksiyadan əvvəl Ermənistana idman yarışına gedibmiş.

İndi isə Rusiya sülhməramlıları onları öz maşınları ilə aksiya ərazisindən keçərək Xankəndi istiqamətinə aparıblar.

Ukrayna daxili işlər nazirinin vəzifəsini kim icra edəcək?

Ukrayna daxili işlər nazirinin vəzifəsini müvəqqəti olaraq polis generalı İqor Klimenko icra edəcək.

Adalet.az xəbər verir ki, bu barədə Ukrayna Baş naziri Denis Şmıqal məlumat verib.

O vurğulayıb ki, Klimenko daxili işlər nazirinin müavini təyin olunub.

Qeyd edək ki, Brovarı şəhərində helikopter qəzasında daxili işlər naziri Denis Monastırski, daxili işlər nazirinin birinci müavini Yevgeni Yenin və Daxili İşlər Nazirliyinin dövlət katibi Yuri Lubkoviç həlak olublar.

Paşinyan: «Ermənistan Azərbaycanla sülh sazişi bağlamağa hazırdır»

Ermənistan Praqada əldə olunan razılaşmalar əsasında Azərbaycanla sülh sazişi bağlamağa hazırdır.

Adalet.az xəbər verir ki, bunu hökumət saatında Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Paşinyan qeyd edib ki, regionda sabitliyi qorumağın ən yaxşı yolu danışıqlar yolu ilə həll yollarını tapmaqdır.

Onun sözlərinə görə, ilk növbədə fəal diplomatiya aparmaq, institusional strukturları gücləndirmək, bundan əlavə, sülh gündəliyindən yayınmaq və ya ondan imtina etmək olmaz.

Aqil ABBAS
aqilabbas@rambler.ru

ÇAY QIRAĞINDA BİTİB, SUSUZ QALAN AĞACLARIN SAĞLIĞINA...

(Abdal-Gülablı Şakirin xatirəsinə)

(povestdən bir parça)

Maşını sürdü Lökbatan bazarının qabağına, bəlkə bir-iki manat pul qazana. Bazarın ağzında maşını elə təzəcə saxlamışdı ki, burdakı sürücülər tökülüşdü üstünə:

- Ə, sən hardan çıxdın?
- Siz hardan çıxmısız mən də ordan.

Bir bazburtlusu saldı Şakiri çənəsinin altına, Şakirin boyu elə onun çənəsinin altındaydı:

- Ə, buralar bizlikdi.
- Dədənizdən qalıf?
- Hə. Sən get ayrı yerdə xaltura elə. Buranı bizə veriblər. Sən çujoysan.

Bu vaxt sürücülərdən biri dedi:

- Ə, dəyməyin yazıqdı, o da bizim kimi qaçqındı. Qoy balalarına beş-on manat aparsın.

Nə qədər gözlədi, bazardan çıxanlardan heç biri "Jiquli"ləri qoyub onun dranqulet "Moskviç"inə yaxınlaşmadı. Axırda gözləməkdən yoruldu, çıxıb getmək istəyirdi ki, bu vaxt bazardan bir yaşlı kişi ilə qadın çıxdı. Yükləri ağır idi. Tez yüyürüb kömək elədi, gətirib yığdı maşına və sevincək oturdu sükanın arxasına:

- Dayı, hara sürüm?
- Talış məhəlləsinə.

Bax:səh-5

Mətbuat Şurası bəyanat yaydı

Bax:səh-6

Prezident İlham Əliyevin Davosda Monteneqronun Baş naziri Dritan Abazoviç ilə görüşü olub

Yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Monteneqronun Baş naziri Dritan Abazoviç ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Monteneqro arasında dostluq münasibətlərinin olduğu qeyd edildi. Ölkələrimiz arasında turizm, investisiyalar və enerji sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Cənubi Qafqaz regionundakı vəziyyət barədə məlumat verdi, Ermənistanın müxtəlif yalan məlumatlar əsasında bir sıra beynəlxalq təsisatlarda Azərbaycana qarşı təbliğat apardığını qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycan ərazisində Laçın-Xankəndi yolundakı vəziyyət barədə də Monteneqro Baş nazirinə məlumat verdi. Dritan Abazoviç qeyd etdi ki, Monteneqro hər zaman Azərbaycanı dost ölkə hesab edir. Baş nazir Monteneqronun Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirdi.

"Biz iqtisadiyyatımızın şaxələndirilməsi üzərində ciddi işləyirik"

"Bugünkü reallıqlar fonunda tranzit ölkəsi olmaq vacibdir. Lakin bizim üçün bunun əhəmiyyəti yeni iş yerləri və yerli istehsalatla bağlıdır".

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında söyləyib.

Dövlətimizin başçısı bildirib: "Bu səbəbdən biz iqtisadiyyatımızın şaxələndirilməsi üzərində ciddi işləyirik. Hesab edirik ki, nəqliyyat sahəsi bizə ixracımızı şaxələndirməyə imkan verəcək, çünki biz xidmət ixrac edəcəyik. Bununla yanaşı, Orta Dəhliz üzərində və Şimal-Cənub marşrutu boyunca yerləşmə Azərbaycanda əlavə biznes imkanları yaradır".

Prezident İlham Əliyev Davosda "Adani Group" şirkətinin təsisçisi və sədri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda "Adani Group" şirkətinin təsisçisi və sədri Qautam Adani ilə görüşüb.

Görüşdə Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin təşəbbüskarı və əsas nəqliyyat-logistika qovşaqlarından biri olduğu vurğulandı, bu xüsusda əməkdaşlığın perspektivləri müzakirə edildi. Həmçinin Şərq-Qərb nəqliyyat dəhlizi kontekstində Azərbaycan ərazisindən keçən Orta Dəhlizin xüsusi əhəmiyyəti qeyd edildi. Qautam Adani şirkətin Hindistanda və dünyanın müxtəlif bölgələrində limanların idarə edilməsi, nəqliyyat və daşıma sahələrində geniş təcrübəyə malik olduğunu, dünyanın bir sıra ölkələrində bu sahələrdə birbaşa investisiyalarla çıxış etdiyini bildirdi. Söhbət zamanı Azərbaycanın birbaşa xarici investisiyalar üçün cəlbedici olması, ölkəmizin iqtisadiyyatının inkişafı və bu xüsusda "Adani Group" ilə neft-kimya, dağmədən, metallurgiya sənayesi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı. Görüşdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi və gələcək əməkdaşlıq üzrə daha təfərrüatlı müzakirələrin aparılmasına dair razılığa gəlindi.

Azərbaycan Ermənistana qarşı yeni iddia qaldırdı

18 yanvar 2023-cü il tarixində Azərbaycan "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Bern Konvensiyasına uyğun olaraq indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesini başladıb. Bu tarixi arbitraj işi təxminən otuz il ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin qanunsuz işğalı dövründə Ermənistanı Azərbaycanın ətraf mühitinin və biomüxtəlifliyinin geniş miqyasda məhv edilməsinə görə məsuliyyətə cəlb etmək məqsədi daşıyır.

Bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, 2020-ci ildə ərazilərini işğaldan azad edən Azərbaycan, Ermənistanın qanunsuz işğalı dövründə ətraf mühitin məhv edilməsi ilə bağlı bütün dəlilləri toplayıb. Bu əməllər bölgədəki təbii yaşayış mühitinə və növlərinə ciddi ziyan vurmaqla, təbii ehtiyatların tükənməsinə və biomüxtəlifliyin məhv olmasına səbəb olub. "Ermənistan tərəfindən meşələrin kütləvi şəkildə qırılması, ağacların kəsilməsi və işğaldan öncə təbiət qoruqları olan ərazilərdə qanunsuz tikinti və mədənçilik fəaliyyətinin aparılması ilə ərazilərin çirklənməsi Azərbaycanda 500-dən çox vəhşi təbiət növünü təhlükə altında qoyub.

2022-ci ildə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "xüsusi mühafizə olunan və qiymətli meşələr"in qorunmadığını qeyd edib. Laçında yerləşən Dəmirli-1 mədəninin, Qalaça su elektrik stansiyasının və Çardağlı mədəninin tikilməsi üçün yaşayış yerlərinin məhv edilməsi də daxil olmaqla, meşələrin qırılmasının ifrat dərəcəsini göstərən əyani dəlillər mövcuddur.

Ermənistanın bu addımları çayların, o cümlədən Ermənistandan Azərbaycan ərazisinə axan transsərhəd çayların həddindən artıq çirklənmə səviyyəsinə gəlib çıxmasına da səbəb olub.

2022-ci ildə UNEP, həmçinin Ermənistanın bölgədəki mədən sənayesinin inkişafının çayətrafı yaşayış yerlərində "suyun, torpağın, flora və faunanın kimyəvi çirklənməsinə" səbəb olduğunu, Oxçuçay çayında yüzlərlə balığın ölü tapıldığını, bir neçə qorunan balıq və amfibiya növünün təhlükə altında olduğunu qeyd edib. Azərbaycan tərəfindən qaldırılan dövlətlərarası iddiada bildirilir ki, digər öhdəliklərlə yanaşı, Ermənistan bütün vəhşi flora və faunanın populyasiyalarını qorumaqla bağlı Bern Konvensiyasından irəli gələn hüquqi öhdəliklərini, xüsusilə də, vəhşi flora və fauna mühitinin qorunub saxlanılmasını, bərpasını və təkmilləşdirilməsini təmin etmək üzrə öhdəliyini kobud surətdə pozub. Birləşmiş Millətlər Təşkilatının Ekosistemlərin Bərpası Onilliyinə uyğun olaraq, Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistanın dünyanın ən zəngin və bioloji müxtəlif ekosistemlərindən birini işğal dövrü ərzində məhv etməsini pisləməyə çağırır.

Arbitraj prosesi çərçivəsində Azərbaycan Ermənistandan Bern Konvensiyasının hazırda davam edən bütün pozuntularına son qoymağı və işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə görə Azərbaycana tam kompensasiya ödəməyi tələb edir", - məlumatda qeyd edilir.

İlham Əliyev: "Ölkəmiz həmişə açıq siyasət aparır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 2023-cü il 17 yanvar tarixində Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib. Prezident bildirib ki, Çinlə Azərbaycan arasında etibarlı münasibətlər yaradılıb: "Çin və Azərbaycan yaxşı dostlardır. Hər iki ölkənin dövlət başçıları arasında görüşlər təşkil olunur.

Çinin dövlət başçısı Si Cinpin ötən ilin payızında "Bir kəmər, bir yol" Sammiti çərçivəsində Pekində Prezident İlham Əliyevi "Çinin böyük dostu" adlandırmışdır.

İlham Əliyev müsahibəsində bildirib ki, "Əməkdaşlıq üçün çox möhkəm siyasi platforma qurulub. 30 il ərzində davam edən siyasi münasibətlər artıq bizim yaxşı tərəfdaş və bir-birinə etibar edən dostlar olduğumuzu nümayiş etdirir. Bizim beynəlxalq təsisatlar çərçivəsində çox yaxşı əməkdaşlığımız var. Biz həmişə bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik.

İqtisadi əməkdaşlıq əlaqələri durmadan artır. Azərbaycan Orta Dəhlizlə bağlı Çinin təşəbbüslərini dəstəkləyir. Azərbaycanda biz artıq öz ev tapşırığımızı yerinə yetirmişik. Biz nəqliyyat infrastrukturunun bütün zəruri seqmentlərini qurmuşuq".

Perspektiv əməkdaşlıq əlaqələrinə toxunan Prezident qeyd edib ki,Azərbaycan enerji, kənd təsərrüfatı və yüksək texnologiyalar sahələrində də əməkdaşlıq etməyə ümid edir. İnformasiya texnologiyaları sektorunu təmsil edən bir çox Çin şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir.

"Azərbaycanda investisiya mühiti çox müsbətdir. Xarici və yerli investisiyalar lazımınca qorunur. Ölkəmizə qoyulan sərmayələrin əksəriyyəti neft və qaz sektoruna yönəlmişdir. Lakin indi şaxələnmə istiqamətində hərəkət etmək vaxtıdır. Buna görə də qeyri-enerji sektoruna, infrastruktura, xüsusilə nəqliyyat infrastrukturuna, bərpaolunan enerji mənbələrinə yönəlmiş investisiyalar bizim üçün prioritetlərdən biridir.

Bakının yaxınlığında yerləşən Ələt bölgəsində azad iqtisadi zonanın açılmasının sonuncu mərhələsi icra olunur. Ümid edirik ki, Çin şirkətləri bu fürsətlərə diqqət yetirəcək. Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır.

"Bir kəmər, bir yol" təşəbbüsü indi çox böyük coğrafiyanı əhatə edən, vaxtında irəli sürülmüş çox müdrik bir təşəbbüs idi. Azərbaycan bu təşəbbüsə ilk günlərdən fəal şəkildə qoşuldu və biz mövcud olmayan infrastruktura investisiya yatırmağa başladıq. Son 10 il ərzində Azərbaycan Xəzər dənizində ən böyük ticarət limanlarından birini inşa etdi. Onun yükaşırma qabiliyyəti 15 milyon tondur və biz onu 25 milyon tona qədər artıracağıq.

Biz Xəzər dənizi ilə yükləri daşımaq üçün gəmiqayırma zavodunu inşa etdik."Bir kəmər, bir yol" təşəbbüsü müxtəlif marşrutları, xüsusilə Şimal-Cənub marşrutu üzrə daşımanı fəallaşdırdı. Dəmir yolu infrastrukturuna geniş investisiya yatırıldı. Bakıdan

qərb istiqamətində infrastrukturu genişləndirmək üçün Azərbaycan əlavə sərmayə yatırır. Açıq dənizə çıxışı olmayan bir ölkə olan Azərbaycan beynəlxalq, logistik və nəqliyyat mərkəzinə çevrildi.Avtomagistrallar və hava limanları kimi layihələrdə həyata keçirilir. Şimal-Qərb marşrutu uğurla inkişaf edən qlobal layihədir. Marşrut üzərində yerləşən bütün ölkələr artıq bunun faydasını görürlər.

Tranzit nəqliyyat layihələrinin inkişafı iqtisadiyyatın şaxələnməsi və neft-qaz gəlirlərindən asılılığın azalması deməkdir. Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar. Ötən il Azərbaycan ərazisindən tranzit daşımalar 75 faiz artıb. Bu, təkcə infrastruktura görə yox, lazımi idarəetməyə görə artmışdır. Görülmüş tədbirlər bizə yükdaşımanı sürətləndirməyə, bürokratik əngəlləri aradan qaldırmağa və bunu fiziki olaraq cəlbedici etməyə imkan verir. Həmçinin tarif siyasəti də mühüm məsələdir".

İlham Əliyev bildirib ki, Azərbaycan Çinlə əməkdaşlıq portfelinə yaşıl enerji sahəsində əməkdaşlığı əlavə etmək niyyətindədir. Azərbaycanda böyük potensial var və Çində böyük texnoloji nailiyyətlər mövcuddur. Bu səylər birləşməlidir.

"Bərpa olunan enerji mənbələri Azərbaycan üçün əsas prioritetlərdən birinə çevrilib.Son bir neçə ay ərzində 22 qiqavat bərpa olunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalanıb. Bu layihələr regional iqtisadi konfiqurasiyanı tamamilə dəyişəcək.

Azərbaycan yaşıl enerjini, o cümlədən dənizdə külək elektrik stansiyalarından hasil olunacaq yaşıl hidrogeni təchiz etməyi planlaşdırır. Bunun təkcə bizim ölkə üçün yox, həm də bütün region üçün çox böyük potensialı var. Prezident İlham Əliyev bütün verdiyi sözləri yerinə yetirib.Siyasi həyatda heç vaxt olmayıb ki, Prezident İlham Əliyev söz verdiyinin arxasında dayanmasın. Verilən bütün sözlər yerinə yetirilib. Prezident İlham Əliyevin dövlət siyasəti nəticə yönlüdür.

Yalan vədlərə əsaslanan seçki kampaniyaları uğura gətirib çıxarmayıb. İnsanlar hər şeyi çox yaxşı başa düşürlər. Onlar yadda saxlayırlar. Əgər siz vəd verib yerinə yetirməmisinizsə onlar sizi dəstəkləməyəcəklər.

Prezident İlham Əliyev bildirib ki, ölkəmiz həmişə açıq siyasət aparır,hər zaman planlarla bağlı insanlarla məsləhətləşir və açıq kommunikasiya kanalı yaradır.

Prezident İlham Əliyevin hər il regionlara təxminən 30-40 səfəri təşkil olunur. Səfərlər çərçivəsində insanları narahat edən problemlər öyrənilir və onların həlli yolları araşdırılır: "Azərbaycanda heç kim deyə və sonra da sübut edə bilməz ki, nə vaxtsa proqram qəbul olunub, sonra isə icra olunmayıb. Azərbaycanda enerji təhlükəsizliyinə gedən yolun başlanğıcında yaxşı sərmayə mühiti yaradılıb və hətta ixrac marşrutlarına malik olmadan neft-qaz sahəsinə çoxmilyardlı investisiyalar cəlb etməyə nail olunub. Azərbaycan istehsalçı olaraq tranzit dövlətlər və istehlakçılar arasında balansı qoruyacaq. Balans olmasa, bu iş uğursuz olacaq. 2 il bundan əvvəl Bakıdan Cənubi Avropaya gedən 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizinin tikintisitamamlanıb.

Onun bir hissəsi dənizin altından, bir hissəsi yüksək dağlıq ərazidən keçir, bu, 7 ölkəni, 10-dan çox şirkəti, aparıcı maliyyə institutlarını - Dünya Bankını, Avropa Yenidənqurma və İnkişaf Bankını, Asiya İnfrastruktur və İnvestisiya Bankını, Avropa İnvestisiya Bankını və Asiya İnkişaf Bankını əhatə edən texniki cəhətdən çox mürəkkəb və çox bahalı layihədir.

Avropada qaz çatışmazlığı var və bu mənada Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkədir. Ötən il biz Avropa bazarına qaz ixracını iki dəfə artırmaq üçün Avropa Komissiyası ilə sənəd imzaladıq. Biz 5 il ərzində bu hədəfə nail olacağıq.

Bəzi ölkələrin ambisiyaları və öz potensialının düzgün hesablanmaması etimadsızlığa, gərginliyə və müharibələrə gətirib çıxarır. Bizim siyasətimiz hər zaman, sözün əsl mənasında, əməkdaşlığa əsaslanıb, çünki biz qəti surətdə inanırıq ki, yalnız əməkdaşlıq sayəsində uğur qazana bilərsiniz".

"Siyasət və həyat çox oxşardır, çünki siyasət insanlar tərəfindən yürüdülür. Ölkəmizin Qoşulmama Hərəkatının sədri kimi səyləri yüksək qiymətləndirilib. Azərbaycan artıq dördüncü ildir ki, Qoşulmama Hərəkatına sədrlik edir. Biz yekdilliklə seçilmişik və bizim sədrliyimiz yekdilliklə daha bir il müddətinə, bu ilin sonuna kimi uzadılıb.

Böyük güclər arasında qütbləşmə açıq-aşkardır. Böyük güclərin maraqları arasındakı uçurum ola bilsin ki, kiçilməyəcək. Ona görə də faktiki olaraq alternativ kimi yaradılmış, lakin sonradan müəyyən mənada potensialını itirmiş Qoşulmama Hərəkatının böyük potensialı var, çünki ölkələrin bu və ya digər dərəcədə eyni keçmişləri var, eyni problemləri var. Onların əksəriyyəti müstəmləkə olub və onlar başqalarının əsarəti altında yaşamağın nə demək olduğunu bilirlər.

1990-cı illərin əvvəllərində elə dönəm var idi ki, ölkəmizin köməyə ehtiyacı olub.O zaman ölkəmiz yoxsul idi və bir çox sosial problemlərlə üzləşmişdi. Azərbaycan kasıblığın nə olduğunu yaxşı bildiyiüçün digər ölkələrə kömək əlini uzatdı.Biz pandemiya dövründə 80-dən artıq ölkəyə tibbi, humanitar və maliyyə dəstəyi göstərmişik. Biz bunu könüllü olaraq, hər hansı təmənna güdmədən etdik. Biz, sadəcə, hesab etdik ki, bizim belə imkanımız varsa, bunu etməliyik".

"Qlobal liderlik rəqabət mühitində sübut olunur. Silahlar yerə qoyulmalı və diqqətlər bəşəriyyətin üzləşdiyi problemlərə yönəlməlidir - yoxsulluq, aclıq və bir çox ölkələr üçün içməli suyun və elektrik enerjisinin əlçatan olmaması. Budur fundamental problemlər.

Dəstək və əməkdaşlıqla bağlı qlobal arenada Çinin gördüyü işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməlidir. Çin bunu qlobal miqyasda edir. Biz isə bunu daha çox regional miqyasda edirik. Ancaq bizim fəlsəfəmiz eynidir və uğurludur.

Çin iqtisadiyyatı təkcə öz ölkəsi ilə məhdudlaşmır. Onun qlobal iqtisadiyyata təsiri var və bir çox analitik təsisatların proqnozları Çin iqtisadiyyatının inkişaf proqnozlarına əsaslanır - artım nə qədər olacaq, faiz dərəcəsi hansı səviyyədə olacaq və sair. Çin hökumətiqlobal məsuliyyəti dərk edir".

Hazırladı:
Rüstəm Hacıyev

Vətəndaşların müvəqqəti yaşayış qeydiyyatı ilə bağlı prosedurları açıqlandı

Daxili İşlər Nazirliyi (DİN) ölkə ərazisində 60 gündən artıq müvəqqəti yaşayan vətəndaşların qeydiyyata alınması ilə bağlı prosedulara izah verib.

Nazirliyinin mətbuat xidmətinin əməkdaşı, polis baş leytenantı Nurlan Əliyev Adalet.az-a bildirib ki, şəxsin olduğu yer - onun yaşayış yeri sayılmayan, müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və digər belə ictimai yerlər, habelə yaşayış binası özünün, qohumunun, tanışının və başqaları başa düşülür.

"Yaşayış yerindən kənarda 60 gündən artıq yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 gün ərzində istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla, internet üzərindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsinin saytına daxil olmaqla olduğu yer üzrə qeydiyyata alınır", - DİN rəsmisi qeyd edib. Nurlan Əliyev onu da qeyd edib ki, vətəndaş olduğu yerdən getdikdə müvafiq icra hakimiyyəti orqanı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır: "Olduğu yer üzrə qeydiyyat haqqında qanunvericiliyin pozulması isə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 563-cü maddəsi ilə inzibati məsuliyyətə səbəb olur. Vətəndaş sözügedən qaydalara əməl etmədiyi zaman ona xəbərdarlıq edilir və ya barəsində 30 manat məbləğində inzibati tənbeh tədbiri tətbiq olunur".

«Azərbaycanda investisiya mühiti çox müsbətdir»

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il 16 yanvar tarixində Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində iştirak edib. İlham Əliyev mərasimdə çıxışı zamanı bildirib ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlər strateji əhəmiyyətə malikdir.

Prezident İqtisadi inkişafın əsas göstəriciləriməsələsi ilə əlaqədar bidirib ki, Azərbaycanda enerji təhlükəsizliyibir neçə il əvvəl təmin olunub.

Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir:

"Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik.

Cəmi iki il əvvəl Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdir.

Təbii qaz ixracımız artır - 2021-ci ildə 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. Artım davam edəcək.Azərbaycanın bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi planlarımız təkcə Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil.

Ölkəmizin yüksək enerji potensialına malik olsuğunu qeyd edən Azərbaycan Respublikasının Prezidenti bildirib ki, "Quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bu səbəbdən Azərbaycana kifayət qədər ixrac marşrutları lazımdır.

"Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma imzaladılar. Buqısamüddətli bir layihədir. Ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir".

Qarşıdakı yeni imkanlar məsələsinə toxunan İlham Əliyev vurğuladı ki, "Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər 22 qiqavata qədər külək və günəş enerjisini istehsal etmək imkanını yaradacaq.

2022-ci ilin 17 dekabr tarixində Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər "Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair" Saziş imzaladılar. Bu Saziş Avropa Komissiyası Prezidentinin şahidliyi ilə imzalanmışdır. Planımız Azərbaycandan 4 qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq kabeli çəkməkdir.

Azərbaycanda investisiya mühiti çox müsbətdir. Ölkəmiz neft və qaz sektoruna böyük sərmayələr cəlb edib. İndi isə hədəfimiz bərpa olunan enerjidir."

Hazırladı:
Mehriban Cəfərova

Aqil ABBAS

İTDƏN QORXAN ŞUŞALILAR

Bəhram Bağırzadə beş il bundan qabaq xoşagəlməz bir müsahibə verib və indi də hansısa sayt reytinq naminə yenidən həmin müsahibəni tirajlayıb. Və aləm dəyib bir-birinə. Sosial şəbəkədə təhqirin, söyüşün biri bir qəpik. Rayondan gələnlər şəhər camaatını, yəni bakılıları, bakılılar da rayondan gələnləri yaş yuyub quru sərir.

Və mənə də neçə qəzet, neçə sayt müraciət edib açıqlama almaq istəyir. Mən də açıqlama verməkdən imtina edirəm, deyirəm, Bəhramdı da, bir sözdü deyib, fikrini deyib. Hər sözün, hər fikrin başına ip salmaq, böyütmək lazım deyil. Necə şəhərin şəhər futbolu, kəndin kənd futbolu olduğu kimi, elə də şəhərin şəhər mədəniyyəti, kəndin də kənd mədəniyyəti var.

Vaxtilə şəhər futbolu ilə kənd futbolu sintez olunanda "Neftçi" kimi gözəl bir komanda yaranmışdı. İndi bu futbolu sintez edə bilmədiklərinə görə Azərbaycanda futbol ölüb.

Eləcə də şəhər mədəniyyəti ilə kənd mədəniyyəti ağıllı şəkildə sintez olunmalıdı, onda da ortaya bu söhbət çıxmaz.

Mən ağlım kəsəndən ilk gördüyüm şəhər Şuşa olub. Ağdam da şəhər idi, amma kənd şəhəri idi. Şuşa tamam fərqli idi, adamları da fərqli idi. Necə də olmasa xan nəsliydilər, bəy nəsliydilər. Əsl şuşalılar özlərinə şuşalılar yox, qalalı deyirdilər, sonradan ətrafdan köçüb gəlib burda yaşayanlara isə şuşalı deyirdilər. Əslində, yəni onlar da fərq qoyurdular. Yəni xan-bəy nəsli qalalılar idi. Gərək ki, "Qalalıyam" mahnısı da var, Rəşid Behbudov oxuyurdu. Sonradan köçüb Şuşaya gələnlər çalışırdılar ki, özlərini qalalılara bənzətsinlər. Bəzən alınırdı, bəzən yox.

Şuşa mənim gördüyüm yeganə şəhər idi ki, bu şəhərdə heç kim heyvan, qoyun saxlamırdı. Hətta it də yox idi bu boyda şəhərdə.

Şuşalılar itdən qorxan olurdu. Ağdamlılar da zarafatla onlara "İtdən qorxan şuşalı" deyirdilər.

Məşhur bir anekdot da vardı. İkinci Dünya Müharibəsində o vaxtın bizimkiləri, yəni Sovet əsgərləri mühasirəyə düşür. İçlərində iki şuşalı varmış. Komandir deyir ki, gedin kəşfiyyata, görün mühasirədən çıxa bilərikmi? Şuşalılar gedir, üç-dörd saatdan sonra dönürlər və komandirə raport verirlər:

- Yoldaş komandir, qarşıda tanklardı, bir babat hücum eləsək tankları vurub mühasirədən çıxa bilərik. Sağ tərəfdə artileriyadı, boş şeydi. Sol tərəfdə də əsgərlərdi, yarmaq olar.

Komandir:

- Bəs, arxa tərəf?

- Yox, komandir, o tərəfə getmək olmaz.

- Niyə?

- Komandir, nemeslər ora iki dənə it bağlayıblar, yerlə-göylə əlləşirlər.

Mejduproçim, Hacıbala Abutalıbov mer olana qədər Səməd Vurğun bağında inək otarırdılar, dəniz kənarına da palatka kafelərin əlindən getmək olmurdu. Bəyənmədiyiniz Hacıbala müəllim yığışdırdı, şəhəri şəhər halına saldı.

Elə ki yay gəldi, bütün Qarabağ axışırdı Şuşaya. Və Şuşanın şəhər mədəniyyəti itirdi. Bu da üç ay çəkərdi. Şuşalıların ən çox zəhləsi əlindəki maqnitafona bərk səs verib yellədə-yellədə küçələrdə dolaşanlardan gedərdi. Maqnitafonda da əsasən ya Rəmiş çalırdı, ya Qədir oxuyurdu, ya da Arif Babayev. Əslində o maqnitafon oxudanlar özləri heç musiqiyə qulaq asmırdı, forslanırdı ki, yəni maqnitafonumuz var, guya şuşalılar maqnitafon görməmişdi. Nə isə…

Sonra gördüyüm ilk böyük şəhər 70-ci ildə Bakı oldu, ali məktəbə daxil olanda. Gözəl şəhər idi, indi lap gözəldi, amma 70-ci ildə bir pis cəhəti vardı ki, hamı rusca danışırdı.

Heç indi də Bakı şəhəri mədəniyyətini itirməyib. Allah qoysa azad olunan torpaqlarımıza köçəndən sonra Bakı və bakılılar biz kəndçilərdən ötəri darıxacaqlar.

Sonda Şuşa ilə bağlı bir anekdot da yazım, kefiniz açılsın.

Bir bərdəli dostumun xalası Şuşadan gəlir bunlara qonaq. Bir həftə qalandan sonra xalası deyir, gedək Şuşaya. Anasını da, xalasını da qoyur maşına, gəlir Şuşaya. Bazar başında maşını saxlayır, düşür xalası oğlunu axtarmağa. Bir də görür ki, xalası oğlu bazardan çıxır.

Görüşüb-öpüşürlər. Bərdəli dostum xalası oğluna deyir:

- Qəzi, maşınımda iki dənə gözəl xanım var, kukladılar. Gir bir yaxşı bazarlıq elə aparaq İsa bulağına.

Xalası oğlu sevincək girir bazara, nə matah şey var alır, hər iki qucağı dolu gəlirlər maşına tərəf. Xaloğlu əlindəki kisələri qoyur kapotun üstünə, deyir görüm nətəhər candılar. Keçib maşının qapısını açır, görür biri öz anası, biri də xalası.

Deyir:

- Kişi deyil də.

Anası soruşur:

- Nə olub, a bala?

- Heç, utanmaz əclaf.

Rüstəm Hacıyev

ABŞ müharibənin uzanmasında maraqlıdır

ABŞ Rusiyanı çökdürmək planını sonadək davam etdirmək niyyətindədir. NATO qüvvələrini Rusiya sərhədlərinə gətirmək təhdidləri ilə, əslində məqsədi Rusiyanı qıcıqlandırmaqla özündən çıxarmaq istəkləri baş turdu. ABŞ -ın müvafiq institutları Rusiya prezidenti Vladimir Putinin xarakterini analiz edib üzə çıxara bildilər. Sem dayının nəzarətində olan Qərbin kütləvi informasiya vasitələri illər uzunu yaydıqları məlumatlarda rus ordusunun gücünü, müasir hərbi texniki bazaya malik olduğunu, əsgər və zabitlərinin yüksək döyüş qabiliyyətlərini şişirməklə, bir növ Putini yalnış qərar verməyə məcbur etdilər. Rusiya prezidentinin yaxın ətrafı da, xüsusilə hərbi rəhbərlikdə təmsil olunan generallar orduda baş verən korrupsiya faktlarını, çatışmazlıqları ondan gizlədərək, rus ordusunun istənilən hərbi əməliyyatlara hazırlıqlığı barədə yalan məlumatlar verməkdə idi. Rusiya kütləvi imformasiya vasitələrinin, faktiki olaraq hansı məssəbə qulluq etmələri məlum olmayan erməni mənşəli qruplaşmalarının əlində olması, xüsusilə dövlət telekanallarında yayımlanan solovyovların, simonyanların, skabayevaların, şeninlərin və s. siyasi tok-souları yalnız erməni əsilli və erməni xislətli baqdasarovların, şahnazarovların, marqaritaların, satanovskilərin, zatulinlərin siyasi fahişəlikləri, getdikcə vəziyyəti daha da gərginləşdirirdi. Bir sözlə, xarici kəşviyyatın himayəsində olan Rusiya KİV-lərinin "propaqandistlərinin" köməyi ilə Kremlin rəhbərini, uzağı bir həftəyə Kiyevdə "trikolor"un dalğanacağına inandıra bildilər. 2021-ci ilin 24 fevralında Ukraynaya hərbi qüvvələrini yeridən Rusiya, tezliklə ciddi müqavimətlə qarşılaşdı. Və, "bir həftəyə "trikolorun" paytaxt Kiyevdə dalğalanması" xəyyaları artıq 11 aydır gerçəkləşdirə bilmir. Həm canlı, həm də hərbi texnika baxımından ciddi itkilərlə üzləşən Putin ordusu, 300 min nəfərlik səfərbərlik etməklə vəziyyəti öz xeyirlərinə dəyişməyə çalışdı. Lakin...

Vəziyyəti tam nəzarətində saxlayan ABŞ, Qərbdəki NATO tərəfdaşları ilə birlikdə Ukraynaya milyardlarla dollarlıq hərbi silah və sursat göndərməklə və antirusiya sanksiyalar tədbiq etməklə, Putin hakimiyyətini çətin duruma saldı. Artıq gücü tükənməkdə olan Kreml administrasiyasının 500 minlik səfərbərlik elan etməyə hazırlaşması barədə məlumatlar dolaşmaqdadır. NATO rəhbərliyi də, bundan istifadə edərək Kiyevə yeni dəst silah-sursat göndərilməsi məsələsini gündəmə gətirməkdədir. NATO-nun baş katibi Yens Stoltenberq, "Handelsblatt" qəzetinə müsahibəsində, Almaniyanı Ramştayn aviabazasında 20 yanvar tarixində keçiriləcək kontakt qrupunun görüşündə, Ukraynaya əlavə hərbi yardımın göstəriləcəyinin elan olunacağını bəyan edib: "Gözləyirəm ki, biz Ukraynaya yeni hərbi yardım göstərilməsini elan edəcəyik". Stoltenberq, Rusiya ilə Qərbin gələcək münasibətlərinnn pespektivləri barədə də açıqlama verib. NATO-nun baş katibinin fikirincə, münasibətlər "hətta Ukraynada silahlar sussa da" normallaşnayacaq.

Yəni görünən odur ki, yaxın gələcəkdə Ukraynada "silahlat susmayacaq", ABŞ və Qərb isə Ukraynaya "hərbi dəstəyini" dayandırmayacaq, Rusiya isə 500 minlik, 600 minlik, bəlkə də bir milyonluq səfərbərliklər elan etməklə müharibəni hələ uzun müddət davam etdirəcək... Putin Rusiyasının iqtisadi imkanları getdikcə tükənsə də, canlı insanları hələ uzun müddət tükənən deyil...

Səxavət Məmməd

Rusiya-Ermənistan gərginliyi: Azərbaycan əməliyyat keçirəcək?

Rusiya növbəli olaraq Azərbaycan və Ermənistanla gərginlik içərisindədir.

Bir müddət öncə Rusiya ilə Azərbaycan arasındakı münasibət elə bir həddə çatmışdı ki, hətta Azərbaycanı hədələyib, təhdid edirdilər. Mətbuat vasitəsilə Ukraynadan sonra növbənin Azərbaycanda olduğunu deyənlər az deyildi.

Ancaq bu gərginlik artıq səngimiş kimi görsənir. Hesab edirəm ki, bu, nisbidir.

Rusiya ilə Ermənistan arasındakı gərginlik daha kəskin görünür. Bu gərginliyin olacağı gözlənilən hal idi. Belə ki, müharibədən dərhal sonra Ermənistan cəmiyyəti rusları lənətləməyə başlamışdı. Onların təsəvvüründəki Rusiya Birinci Qarabağ müharibəsi dövründəki Rusiya kimi qalmışdı. Ancaq ermənilərin unutduğu bir şey var idi, dünya 80-ci illərin sonu, 90-cı illərin əvvəlindəki dünya deyil, maraqlar isə tamam başqadır.

Ermənilər, elə azərbaycanlılar da elə düşünürlər ki, Rusiya Qarabağın işğalında Ermənistana kömək edirdi, onların tərəfini saxlayırdı. Əslində, SSRİ kimi nəhəng bir imperiya dağılır, yerində 15 respublika yaranır, əgər o ölkələr arasında münaqişə ocaqları olmasa və Rusiya moderatorluğu üstlənməsə, təsir gücü qalardı? Yəni Rusiya itirdiyi respublikalarda təsir gücü qalsın deyə bu addımları atırdı. Nə erməni, nə azərbaycanlı, nə bir başqa millət onların maraqlarında idi. Əsas məsələ öz maraqlarının təmin edilməsi idi. Bunu bacardılar da.

Ermənistan müharibədən sonra silkələndi. Erməni cəmiyyəti anladı ki, onlara ruslardan hayan olmaz. Yeri gəlmişkən, müharibədən dərhal sonra Ermənistanın Baş naziri Nikol Paşinyan növbədənkənar seçkilər elan etdi, namizədliyini verdi və qazandı. Rəqibləri kim idi? İndiki müxalifət, keçmiş iqtidar nümayəndələri. Ermənistanda da, Rusiyada da, elə Azərbaycanda da hər kəs bilir ki, Ermənistanın keçmiş iqtidar nümayəndələri Rusiyanın adamlarıdır. Təsəvvür edin, Vinston Çörçil, Şarl de Qoll kimi siyasətçilər qalib tərəf olsa da, seçkiyə getdilər və məğlub oldular. Yaxşı o zaman sual yaranır ki, Paşinyan necə oldu, müharibədə məğlub olmasına rəğmən, qələbə əldə etdi? Paşinyan adı çəkilən şəxslərdən daha böyük siyasətçidir? Qətiyyən! Paşinyan ağıllıdır, üstəlik, stiuasiyadan çıxmaq qabiliyyəti var. Paşinyan bu qabiliyyəti də jurnalistliyindən alırdı. Manevrləri bunu deməyə əsas verir. Hazırkı Ermənistanın siyasəti məhz stiuativdir.

Paşinyan cəmiyyəti hazırladı. Təbii ki, buna Qərbin də yardımı kömək oldu. Əsas məsələ isə Ermənistan cəmiyyəti məğlubiyyətin səbəbini Rusiyanın kömək etməməsində gördü. Beləcə Rusiyanın adamları olan keçmiş iqtidar nümayəndələrinə etimad etmədi.

Müxalifət aksiyalar, çox mitinqlər təşkil etdi, ancaq xalqı arxasına ala bilmədi. Bunun da çox sadə səbəbi var: Paşinyan kimi elə cəmiyyət də rusdan qopmaq istəyir.

Rusiya da anladı ki, keçmiş iqtidar nümayəndələri ilə nəticə əldə olunmayacaq. Ən azı sivil formada mümkünsüzdür.

Təkcə Ermənistanda yox, Azərbaycan və Gürcüstanda da Rusiyaya qarşı xalqı formalaşdırmağa gərək yoxdur. Xalq onsuz da Rusiyaya qarşı aqressivdir. Rusiya da bunun fərqindədir. Paşinyan da bilir ki, Rusiya hərbi bazası Ermənistan üçün Demokl qılıncı kimi bir şeydir. Ona görə də onların çıxarılması üçün təşəbbüs göstərir.

Rusiya, təbii ki, Ermənistanı itirmək istəməyəcək. Çünki rus ordusunun Ermənistandan çıxması ilə mütləq şəkildə ordu halında olmasa da, yerini başqa güclər alacaq.

Rusiya Ruben Vardanyanı da Ermənistana transfer edə bilər. Ermənistan nə vaxt Rusiyaya qarşı çıxmağa çalışıbsa, mütləq şəkildə cəzalandırılıb.

Rusiya bəzən bunu daxildə edib, ancaq son dönəmlər cəzanı Azərbaycanın əli ilə verib. Misal üçün, 2016-cı ilin aprel döyüşləri. O zaman da Ermənistanda Rusiyaya qarşı baş qaldırma var idi. Aprel döyüşləri ilə cəzaların aldılar. Yeri gəlmişkən, 12-13 sentyabr sərhəd toqquşması da bu qəbildən idi. Hətta Rusiya münaqişəni Ermənistan ərazisinə də yaymaq niyyətində idi.

İndiki halda ehtimal olunan variantlardan biri Azərbaycanın Ermənistanı hərbi yolla cəzalandırmasıdır. Bunun olma işartıları da mövcuddur. Yəni baş verənlər fonunda lokal da olsa, toqquşma baş versə, buna təəccüblənməməliyik.

Baydenin səhvləri Kremlin əlinə işlədi

The Washington Times qəzetinin yazdığına görə, amerikan prezidenti Co Bayden administrasiyasının enerji sahəsi üzrə apardığı səhv siyasət Moskvanın xeyrinə oynadı və Rusiyanın gəlirlərinini artırmağa imkan verdi.

Müəllifin sözlərinə görə, sanksiyalarla sıxışdırılmasına baxmayaraq, Rusiya 2022-ci ildə neft, daş kömür və qaz satışından gəlirlərini artırmağı bacardı. Ekspettlərin fikirincə, Co Bayden enerji məsələsində böyük səhvə yol verib. ABŞ prezidenti Rusiyanın enerji məhsullarına Avropa İttifaqından əvvəl qadağa qoydu. Lakin Vaşinqton bununla yanaşı öz istehsalını artırmağa tələsmədi. Bu da dünya bazarında enerji məhsullarının qiymətlərinə mənfi təsir göstərdi.

Jurnalistlərin düşüncəsinə görə, ABŞ prezidenti uzaqgörən siyasət aparmır. Buna görə Moskva 2022-ci ildə 2021-ci ildəkindən daha çox gəlir əldə edə bildi.

Rusiya ptezidenti Vladimir Putin bəyan edib ki, ölkəsinin maraqlarının əksinə olan xarici dövlətlərə heç nə göndərilməyəcək.

Lukaşenko müharibəyə qoşulmaq istəmir

Ağ Evin milli təhlükəsizlik şurasının strateji kommunikasiyalar üzrə kordinatoru Con Kerbi, Belarusiyanın Rusiya tərəfdən Ukraynada gedən müharibəyə qoşulmaq ehtimalını qiymətləndirərkən bildirib ki, ABŞ hazırda Minskin belə bir fikirdə olduğunu müşahidə etmir.

"Biz Belarusitanın belə bir fikirdə olduğunu və yaxıd fiziki olaraq Ukrayna ərazilərinə girmək planları hazırladığını görmürük"- deyə Kerbi bəyan edib və qeyd edib ki, Minskin hələ ki, Rusiya hərbiçilərinə kömək etmək barədə planları yoxdur.

Bununla yanaşı, Ağ Evin nümayəndəsi Vaşinqtonun Rusiya və Belarusiyanın birgə hərbi təlimlər keçirməsindən narahatdır. Kerbinin sözlərinə görə, Vaşinqton bu cür hətəkətləri diqqətlə izləyir.

Rüstəm Hacıyev

Nazir əməliyyat müşavirəsi keçirdi

Yanvarın 18-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2022-ci ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.

Adalet.az xəbər verir ki, nazir V.Eyvazov 2022-ci ildə paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki xidməti fəaliyyətini ümumən müsbət qiymətləndirib.

Bakı şəhər BPİ-nin, eləcə də onun aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəhbər heyətindən 2023-cü ildə xidməti fəaliyyətdə əsas diqqəti şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının qətiyyətlə alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunmasına, ən əsası isə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasına yönəltməyi tələb edib. Sonra Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Əkbər İsmayılov hesabat dövrünün yekunları və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Məruzə ətrafında çıxış edən paytaxtın rayon polis idarələrinin rəisləri görülən işlərdən, əldə olunan nəticələrdən, eyni zamanda, xidməti fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan tədbirlər barədə hesabat veriblər. Əməliyyat müşavirəsinə yekun vuran nazir vətəndaşların mənzil başına rahat və təhlükəsiz çatmaları üçün aidiyyəti orqanlarla birlikdə paytaxtda nəqliyyat sıxlığının və tıxacların qarşısının alınmasının, yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının, eləcə də sərnişindaşıma sahəsində olan nöqsanların aradan qaldırılmasının vacibliyinə toxunub. Ümumbəşəri bəlaya çevirilmiş narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə diqqət çəkən nazir V.Eyvazov antinarkotik təbliğatın daha da gücləndirilməsi, bu məqsədlə təhsil müəssisələrində gənclərlə mütəmadi görüşlərin keçirilməsinin əhəmiyyətindən danışıb, narkotiklərlə mübarizədə vətəndaşların da polisə dəstək olduğunu qeyd edərək onlara təşəkkürünü bildirib.

Qanunla müəyyən edilən vəzifələrin yüksək səviyyədə icrası üçün lazımi şəraitin yaradıldığını, daxili işlər orqan və hissələrinin dövlət qayğısı ilə hərtərəfli əhatə olunduğunu məmnunluqla vurğulayan general-polkovnik V.Eyvazov əmin olduğunu bildirib ki, bu ali diqqətə və etimada cavab olaraq Bakı şəhər polis qarnizonunun şəxsi heyəti xidməti borcunu bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

Korotçenko məhsulumuzu tərifləyir - ermənilər onu «faşist» adlandırdı

Rusiyalı hərbi-siyasi ekspert İqor Korotçenko öz sosial şəbəkə hesabında Ermənistanı yerdən yerə vurdu.

Adalet.az xəbər verir ki, məşhur ekspert maraqlı paylaşımı ilə ermənilərin hədəfinə tuş gəlib. Beləki, o paylaşımında bildirib ki, indi mağazaya nar şirəsi almağa girdim: Rəfdə yanaşı iki istehsalçının şirələri vardı - solda Ermənistanın, sağda Azərbaycanın.

Ekspert sağda yerləşən Azərbaycan istehsalı şirə aldığını yazıb:

"Niyə? Şüşə, qablaşdırma, estetika daha estetik və cəlbedicidir. Ancaq ən əsası: Azərbaycan - düzgün ölkədir, Rusiyanın dostudur. Rusiya Federasiyasına ixrac edilən Azərbaycan

məhsulları ən ciddi keyfiyyət nəzarətindən keçir. Ermənistanda antirusiya ovqatı güclənir, Rusiya Silahlı Qüvvələrinə qarşı boş bəyanatlar səsləndirilir, İrəvan Rusiya hərbi bazasını bağlamaqla, KTMT-dən çıxmaqla hədələyir. Buna görə də mən və digər rusiyalılar Ermənistan istehsalı məhsulları almayacağıq - nankor ölkəni və nankor cəmiyyəti niyə maliyələşdirək? Doğru demirəm?"

Korotçenko bunun reklam deyil, şüurlu seçim olduğunu da qeyd etdikdən sonra növbəti paylaşımında oxuyanları güldürən başqa bir paylaşıma imza atıb. Korotçenko yazır: "Ermənistan gələn yox, Azərbaycandan gələn nar şirəsini tərifləyirəm görə erməni sosial şəbəkə istifadəçiləri Facebook hesabımı "şikayət" etməyə çağırırlar - məni "faşizmdə ittiham edirlər. "Yaxşı ki, biz "soyqırım"ın bir hissəsi deyilik!

Heç bir sözüm yoxdur ! Maraqlıdır ki, görəsən, ermənilərin kütləvi şikayətlərinə görə Facebook mənə qadağa qoyacaq?"

Qeyd edək ki, son aylar erməni rəsmilərinin və erməni ictimaiyyətinin "anti-Rusiya" münasibəti sərgiləməsi bütün rusları eləcə də, İqor Korotçenkonu qəzəbləndirib.

Əntiqə Rəşid

Arsenyandan Rusiyaya "göz dağı": "Türkiyə Ermənistanı heç vaxt təhdid etməyib"

Ermənilər var olduqları ilk gündən əmmələləri, terrorları, vəhşilikləri ucbatından başlarına gələn hər bəlada Türkiyəni və türkləri ittiham edib. Dünyaya özlərinin soyqırıma məruz qaldığını bəyan edən ermənilər 1973-cü ildən etibarən yenidən Türkiyə diplomatlarını hədəfə almağa başladılar.

Bu dəfə ermənilərin rəhbərliyini ASALA (Erməni gizli ordusu), "Erməni Soyqırımı Ədalət Komandoları", "Erməni İnqilab Ordusu" terror təşkilatları ələ aldı. Hücumlar zamanı onlarla diplomat öldürüldü, amma terrorçuların çoxu yenə də cəzasız qaldı.

Bəli Ermənistanın iri ranqlı məmurları etiraf etməsələrdə fərqindədirlər ki, bütün bu cinayətlərin cavabında Türkiyə heç vaxt ermənilərdən qisas almaq fikrində olmayıb və bütün terror hadisələrini hüquqi səviyyədə qiymətləndirilməsinin tərəfdarı olub.

Bu faktı erməni deputat anladığı üçün Türkiyənin Ermənistanı heç vaxt təhdid etmədiyini söyləməyə özündə cəsarət tapıb.

Adalet.az xəbər verir ki, Ermənistan parlamentinin hakim "Vətəndaş müqaviləsi" fraksiyasının üzvü Qurgen Arsenyan news.am-a açıqlama verib. Deputat sayta bildirib ki, Türkiyə Ermənistanı heç vaxt təhdid etməyib:

"Rusiyanın Türkiyə ilə sərhəddə hərbi mövcudluğu Türkiyəyə qarşı yönəlmiş hərbi təhdiddir. Əgər hansısa ölkədə üçüncü tərəfin hərbi mövcudluğu varsa və bu, Türkiyədən gələn təhlükə ilə izah olunursa, demək lazımdır ki, Türkiyə Ermənistanı heç vaxt təhdid etməyib.

Türkiyənin Ermənistan müstəqillik əldə etdikdən sonra onu nə vaxtsa təhdid etdiyini sübut

edən heç bir faktımız yoxdur".

Göründüyü kimi, Arsenyan bir açıqlama ilə "iki quş" vurmağa çalışıb.

O, "Rusiyanın Türkiyə ilə sərhəddə hərbi mövcudluğu Türkiyəyə qarşı yönəlmiş hərbi təhdiddir" deməklə, hazırda Rusiya və Türkiyə arasında isti münasibətlərə "soyuq su" səpmək istəyindədir. Hətta "Türkiyənin Ermənistan müstəqillik əldə etdikdən sonra onu nə vaxtsa təhdid etdiyini sübut edən heç bir faktımız yoxdur" deməklə Rusiyanın Türkiyə və türklərə qarşı olan genetik nifrətini (Rusiya və Türkiyə tarixdə ən çox müharibə edən ölkələr kimi tanınıb) körükləmək məqsədi güdür.

Deputat Rusiyanın Gümrüdəki 102 hərbi bazasının ölkədən çıxarılmasını istəyən ermənilərin, dolayısi ilə Ermənistan hakimiyyətinin fikrlərini çatdırmağı da unutmur və Rusiyanı bu sözlərlə qıcıqlandırmağa çalışır:" Ona görə də Rusiya qoşunları ölkəni tərk edərsə, Ermənistan Türkiyə də daxil olmaqla, heç bir təhlükə yaratmayan ölkəyə çevriləcək"-deyə vurğulayır.

Qeyd edək ki, uzun müddətdir, Paşinyan Putinin "qırmızı xətti"nə tez-tez "basqın" edir. Paşinyanın fikrincə, 102-ci bazanın Ermənistanda olması ölkəsi üçün təhdiddir. Baş nazirin əsas məqsədi "102-ci baza çıxsın, NATO gəlsin"dir.

Əntiqə Rəşid

Erməni yazar çərənlədi: "Qarabağda erməni izləri..."

Ermənilərin bir publisist - yazarı var: Aleksandr Yerkanyan. 44 günlük müharibə bitəndən bu günə qədərYerkanyan elə gün olmur ki, "Dağlıq Qarabağın erməni mədəni irsini xilas etmək və qorumaq lazımdır" deyə, haray qoparmasın, hər gün bir media orqanına quraşdırdığı yalan və iftiralardan ibarət müsahibələr verməsin.

Adalet.az xəbər verir ki, Aleksandr Yerkanyan növbəti dəfə xalqının xislətindən bəhrələnərək açıqlamalar edib. O, açıqlamasında bildirib ki,

Şuşi (Şuşa) və Hadrut, Artsaxın digər bölgələri kimi, qədim kilsələri ilə məşhur idi:" Oxucuların nəzərinə çatdırım ki, Ermənistan 301-ci ildə hətta orada (Görəsən ermənilər niyə bu qədər huşsuzdurlar? Qarabağa Rusiyanın iradəsi ilə 1828-ci ildə yerləşdiklərini, 1978-ci ildə Qarabağa gəlişlərinin 150 illiyi ilə əlaqədar abidə ucaltdıqlarını çox tez unutdular- red-Ə.R.) xristianlığı rəsmən qəbul edən dünyada ilk ölkə oldu. Ermənilər isə öz Apostol Kilsəsinə həmişə xüsusi hörmətlə yanaşıblar. Ermənilərin yaşadıqları yerdə kilsə tikmələri həmişə öz qaydasında olub. Əslində, hər Qarabağ kəndində bir kilsə, ən çox isə köhnə kilsə görmək olar. Bundan əlavə, Artsaxın hər yerində çoxsaylı xaçkarları olan köhnə erməni qəbiristanlıqlarını, həmçinin qalaları, knyazlıq saraylarını və tarixi

və müasir abidələri görmək olar. Həm Dağlıq Qarabağın, həm də düz Qarabağın ərazisinə səpələnmiş bu kilsələr və digər obyektlər onun kimin torpağı olduğunun ən yaxşı sübutudur. Ona görə də azərbaycanlılar bu cür çılğınlıqla ələ keçirdikləri erməni torpaqlarında hər yerdə bütün erməni izlərini məhv etməyə çalışırlar".

Daha sonra erməni yazıçı "hiddət"ini bu sözlərlə ifadə edir: "Bizim kilsələrimiz qaniçən qonşular arasında xüsusi kin yaradır. Onlar işğalın ilk günlərindən adi işlərinə başlayıblar və dini obyektləri məqsədyönlü şəkildə dağıtmağa başlayıblar". Qeyd edək ki, ermənilərdə ağlı yerində olan birini tapsaydıq, onunla bu haqda geniş bir polemika açarıq. Əvvəl təkzibolunmaz faktlara əsaslanaraq, Qarabağdakı kilsələrin 1828-ci ildə İrandan, Türkiyədən, orta Asiyadan gətirilib, Qarabağa yerləşdirilmiş ermənilərin deyil, qədim albanlara məxsus olduğunu anladardıq. Sonra isə erməni silahlı qüvvələrinin terrorçu və muzdlu dəstələrinin Qarabağın yerli əhalisini silah gücünə yerindən-yurdundan məcburi şəkildə qovulduqlarını və bu prosesdən sonra yerli əhaliyə qarşı soyqırım əməliyyatları ilə birgə onların maddi-mənəvi sərvətlərini məhv etdiyini yadlarına salardıq. Daha dəqiq isə Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrini müdafiə təşkilatı müəyyən etdiyi vəhşiliklərin sadalayaradıq.

Deyərdik ki, 4500 abidənin 2550-sinin görüntüləri, hansı coğrafi ərazidə yerləşməsi, yaşı haqqında və digər mühüm məlumatlar əldə olunub.

Rəsmi məlumatlara əsasən Qarabağ və ətraf rayonlarda tarixi-dini tikililərin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə türbələrdir. Qəbiristanlıqların sayı isə 900-dən çoxdur.

Şuşada yerləşən Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, Ağdamda yerləşən Cümə məscidi dağıdılmış, Laçın rayonunda yerləşən Ağoğlan, Kəlbəcər rayonunda yerləşən Xudavəng, Ağdərə rayonunda yerləşən Gəncəsər və sair məbədlər isə ermənileşdirilmiş tarixi tikililərdəndir.

***P.S.** Görən, bu ermənilər nə vaxt bir ağıllı cümlə işlədəcəklər? İki yüz ildir onları tanıyırıq, hələ ki bir ağıllı cümlələrinə rast gəlmədik.*

Əntiqə Rəşid

Elxan Şükürlü

BİR QANUNUN YARATDIĞI QORXU

o, kimlərin kürkünə birə salıb?

Ruslarda tez-tez istinad edilən belə bir məşhur məsəl var: "Kol dibində gizlənmiş dovşanlar həmişə elə sanarlar ki, təlim keçən tankların hücumu onlara qarşı yönəlib".

Uzun illərdir Azərbaycanda bir dəstə siyasət adamı var ki, hökumətin dövlət maraqları üçün atdığı istənilən addımın məhz onlara qarşı yönəldiyini düşünür və bütün qiymətləndirmələrini, yanaşma və əsaslandırmalarını da buna görə aparırlar. Elə 16 dekabr 2022-ci ildə Milli Məclisdə qəbul edilən və bu il yanvarın 11-də prezident İlham Əliyev tərəfindən imzalanan "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununa həmin siyasət adamlarının reaksiyası da ənənəvi qaydadadır: hesab edirlər ki, digər qanunlar kimi, bu qanun da məhz onlara qarşı yönəlib və onların siyasi azadlıqlarını məhdudlaşdıracaq. Baxmayaraq ki, qanun layihəsi hələ ictimai dinləməyə təqdim olunandan və daha sonra da Milli Məclisdə müzakirələr zamanı ona 110-a yaxın əlavələr və düzəlişlər edilib, "mürtəce" sayılan maddələrsə çıxarılıb.

Bununla belə, həmin partiyaların qanuna münasibəti yenə dəyişməyib, sabit qalıb və hələ də o qənaətdədirlər ki, hakimiyyətin bütün bu addımları yalnızca onların ev şəraitində, kompüter arxasında "illərdir apardıqları möhtəşəm və misilsiz mübarizə"nin önünü kəsməyə hesabanıb.

Bəs bu qanun, doğrudanmı, onların iddia etdikləri kimi, siyasi azadlıqları məhdudlaşdırır və mürtəce mahiyyətlidir? Ümumiyyətlə, bu qanunda əvvəlkindən fərqli nələr var ki, onun qəbulu hansısa siyasi partiyanı ciddi narahat edir?

Xatırladaq ki, biz bu qanun hələ layihə şəklində ictimaiyyətə təqdim olunan zaman onun müzakirəsində də iştirak etmiş və belə bir qanunun qəbuluna ciddi ehtiyacın olduğunu bildirmişdik. Çünki siyasi partiyalar hakimiyyət uğrunda mübarizə aparan əsas institutlar olaraq, ölkənin siyasi sistemində ən mühüm həlqəni təşkil edirlər və əgər biz ölkənin siyasi sistemində yeni dövrün reallıqlarına uyğun fundamental islahatlar aparmaq niyyətindəyiksə, ilk növbədə, bunun hüquqi bazasını, mexanizmlərini yaratmalıyıq.

"Siyasi partiyalar haqqında" yeni qanunun hazırlanması və qəbulu da daha çox bu ehtiyacdan qaynaqlanır. Konkret desək, bu, yeni dövrün tələbi, zərurətdir.

Hazırda ölkədə 60-a yaxın siyasi partiyanın mövcud olduğu bildirilir. Reallıqda isə bu partiyaların əksəriyyətinin yalnız adları və qeydiyyat şəhadətnamələri, illərdir dəyişməyən sədrləri var; dövrün tələblərinə uyğun aydın məram, proqram və ideoloji xətləri, daxili rəqabət potensialları, geniş və hazırlıqlı kadr bazası, praktik fəaliyyətləri isə, demək olar ki, yoxdur.

Elə bu formallığın nəticəsi olaraq da, cəmiyyətə hər hansı ciddi təsir imkanlarına sahib deyillər.

Sanki kimlərsə bu partiyaları ya imic naminə, ya da hansısa "kritik dövr" üçün, gərəkli anda siyasi təzyiq aləti və ya örtük kimi istifadə etmək məqsədiylə yaradıb, ehtiyatda saxlayır ki, bu da bütövlükdə həm dövlətin özünə təhlükədir, həm də partiyalılıq institutunun, partiya anlayışının özünü tamamilə hörmətdən, nüfuzdan salır...

Qısa desək, illərdir bu sektorda çox böyük bir nizamsızlıq, süstlük, məsuliyyətsizlik və hərc-mərclik mövcuddur və belə bir şəraitdə hər hansı effektli siyasi islahat aparmaq, yeni münasibətlərə keçid etmək də mümkün deyil.

Məsələn, tutaq ki, hakimiyyət gələcəkdə geniş siyasi açılıma getmək, müxalifətlə hansısa bir masa arxasında əyləşmək, davamlı dialoqda olmaq, siyasi məsləhətləşmələr aparmaq, onların kadr bazasından dövlət idarəetməsinə cəlb etmək niyyətindədir.

Bu proses kiminlə, hansı partiyalarla, hansı liderlərlə aparılmalıdır, hansı meyar əsasında?! Siyasi sektoru bazara, partiya sədri postunu siyasi alver predmetinə çevirən, cəmiyyətdən hər hansı dəstəyi olmayan məsuliyyətsiz və ağzının danışığını bilməyən, siyasi dünyagörüş və əxlaqdan məhrum istənilən "partiya sədri"ylə-mi?! Ona görə ki, o, siyasi partiya kimi dövlət qeydiyyatından keçib?! Heç rəvadırmı ki, iniyədək heç bir seçki prosesində iştirak etməyən, özündən və ailə üzvlərindən başqa partiyasında adam olmayan, ancaq hansısa qaranlıq əlaqə və maraqlar naminə vaxtilə "siyasi partiya" kimi dövlət qeydiyyatına alınanla arxasında minlərlə insanın durduğu, davamlı şəkildə seçkilərdə iştirak edən, geniş kadr bazasına və insan resursuna sahib siyasi təşkilat bərabər götürülsün, eyni status və imtiyaza iddia etsin?! Bu, ən yaxşı meyar sayılan ədalət prinsipinin pozulması demək olmazmı? Axı ədalət - hər kəsə bərabər münasibət deyil, ədalət - hər kəsi öz yerinə qoymaqdır! Yeni qanun isə, hər şeydən əvvəl, hər kəsi öz yerinə qoymağa - bu hərc-mərcliyi, dağınıqlığı, süstlüyü və məsuliyyətsizliyi aradan qaldırmağa, siyasi partiyalarda məsuliyyət hissini, gücü və nüfuzu artırmağa, onlar arasında təmərküzləşmə meyllərini sürətləndirməyə, bir növ, bu sektorda gələcək islahatlar üçün ölkənin milli maraqlarına uyğun şəkildə bir nizam, sabit və möhkəm özül yaratmağa hesablanıb. 1992-ci ildə qəbul olunmuş qanunda əksini tapmış bəzi müddəaların sərtləşdirilməsi və dövrün tələblərinə uyğunlaşdırılması da elə bununla bağlıdır. Baxın, bu qanunun əleyhinə hazırda daha çox o partiya, təşkilat və şəxslər çıxırlar ki, ya vaxtilə hansısa imtiyaz, resurslar və qaranlıq əlaqələr hesabına "populyar siyasi təşkilat" kimi tanınıblar, indi isə real gücləri və cəmiyyətdən dəstəkləri yoxdur, davamlı və şəffaf rəqabətə, yeni münasibətlərə keçidə hazır deyillər, ya da hansısa çirkli kapital sahibi olan oliqarxın və yaxud indiyədək ölkə içərisində şəbəkə qurmuş xarici gücün maraq təmsilçisidirlər. Yeni qanun siyasi partiyaların fəaliyyətində şəffaflığı və açıqlığı təmin etməklə, eyni zamanda, onlara cəmiyyətin və dövlətin nəzarət imkanlarını artırır ki, bu da indiyədək qeyri-şəffaf və nizamsız fəaliyyət göstərənləri, missiyası yalnız dövlətə və ya hakimiyyətə qarşı hansısa güclərin əlində siyasi təzyiq aləti kimi çıxış etmək olanları qane etmir.

Mən əminəm ki, yeni qanun, hər şeydən əvvəl, ölkənin milli təhlükəsizliyinə siyasi partiyalar vasitəsiylə müdaxilə imkanlarının qarşısını kəsməklə, siyasi partiyaların fəaliyyətinin şəffaflaşdırılmasına, eyni sosial bazanı və ideyanı bölüşən sağlam təşkilatların təmərküzləşməsinə, məsuliyyət, güc və nüfuzlarının artmasına, çevik siyasi institutlar kimi ölkənin siyasi həyatında aktiv və effektiv iştiraklarına gətirib çıxaracaq. Özünə və gücünə əmin olanlar, dövlətinin uğuru naminə sağlam birliklərin yaranmasını istəyənlər, yersiz iddiasının əsirinə çevrilməyənlər bu qanundan qorxmurlar! Müxalifət çətiri altında "kol dibində gizlənərək" hansısa "x" gününü və ya ekstremal şəraiti gözləyənlərə isə, əlbəttə, bu qanun onları əzməyə gələn tank tırtıllarının səslərini xatırladacaq.

Ukraynanın daxili işlər naziri helikopter qəzasında öldü

Ukrayna Milli polisinin Telegram kanalında yaydığı məlumatına görə, Daxili İşlər naziri Denis Monastırski və onun müavini Yevgeni Yenin, Kiyev ətrafının Brovarı şəhərində, helekopterin qəzaya uğraması nəticəsində həlak olublar.

Milli polisin rəhbəru İqor Klimenkonun sözlərinə görə, qəza nəticəsində ikisi uşaq olmaqla 16 nəfər həlak olub. Ölənlərin 9-zu helekopterin içərisində olub. Həmçinin bildirilir ki, zərərçəkənlərin 22-si hazırda xəstəxanaya yerləşdirilib. Yaralıların 10-nu uşaqdır.

Rüstəm Hacıyev

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

Bizə qəzet lazımdı, ya yox?!

Başqa millətlərlə müqayisədə biz heç də qəzet oxuyan xalq deyilik. Çünki qəzet olsa

da, olmasa da bu dünya vecimizə deyil. Əksinə qəzet olmasa, bir çoxları özlərini daha rahat hiss edər, tənqid olunmaz, ifşa edilməz və millətin arasında hörmətdən düşməz. Balam, başa düşmək olmur; biz qəzetdən niyə belə qorxuruq?! Çoxları "qəzet" sözü eşidəndə sanki cin, şeytan adını eşidir.

Nə olur olsun, təki qəzet olmasın, qəzet çıxmasın və keçmiş, klassik ənənələri yaşadan qəzet it-bata düşsün

Əgər belə olmasaydı, bu gün qəzet köşklərində qəzetdən çox şirniyyat, siqaret və uşaq oyuncaqları satılmazdı. Elə bir çoxları da bu millətə yuxarıdan-aşağı baxıb onlarla oyuncaq kimi rəftar edirlər.

Deyirlər ki, qəzetlər niyə satılmır? Niyə onu alan yoxdu? Ona görə qəzetlər satılmır ki, birincisi qəzet oxuyan azalıb. İkincisi də qəzet almaq istəyən arzuladığı qəzeti tapmaq üçün gərək oranı, buranı ələk-vələk eləsin, sonra onu tapa bilsin.

Əvvəllər belə idi ki, metroların bütün stansiyalarında qəzetlər satılırdı. Metroya da ən çox giriş olur. Onda da kimlərsə axtardığı qəzeti çox asanlıqla tapa bilərdi. Amma indi, elə bir oyun oynayıblar ki, orda qəzet satılmır və camaat da istədiyi qəzetləri köşklərdən almağa məcburdu.

Məsələn, Günəşli kimi böyük yaşayış sahəsinə "Ədalət" qəzeti gəlmir. Həmin yaşayış sahəsində yaşayan 10-15 ziyalı tanıyıram. Onlar bu qəzeti axtarırlar, tapa bilmirlər. Məcbur olub ya metronun "Xalqlar dostluğu" stansiyasına, ya da "Neftçilər"ə gedirlər. Orda da köşklərdə bu qəzetdən bir-ikisi olur.

Səhər tezdən kim ora çatdı, o, qəzeti alır, sonra gələn müştəriyə qəzet tapılmır. Yeni Günəşlidə yaşayan yazıçı-publisist Səməndər Məmmədov, kulturologiya elmləri doktoru, professor İlqar Hüseynov, pedaqoji elmlər namizədi Şikar Hüseynov deyir ki, qardaş, biz sevdiyimiz "Ədalət"i Yeni Günəşlidə tapa bilmirik. Məcbur olub ya Bakıxanov qəsəbəsinə, ya da metro stansiyalarına gedirik. Şənbə günü olduğuna görə çox vaxtı o qəzeti tapmaq müşkül məsələyə çevrilir.

Köşklərdə bütün qəzetlər olur, hamısı da yığılıb qalır orda, amma "Ədalət"i çox çətinliklə əldə eləyə bilirik. Tapanda da sevinirik!

Bakı regionlara baxanda şükürlüdür. Füzuli rayonunun Böyük Bəhmənli kəndindən bizə yazırlar ki, qardaş, bizim kənddə nə qədər desən, market, mağaza, ticarət köşkləri var. Amma bir dənə olsun qəzet köşkü yoxdur. Sovet dönəmində poçtalyon bütün qəzetləri kəndimizə gətirərdi və biz də onu alardıq. Amma indi 10-15 ildi bizim kəndə bir qəzet gəlmir.

Elə bilməyin ha, bizdə qəzet oxuyan yoxdur. Yaşlı adamların gözü qəzet axtarır. Amma tapa bilmir. Qəzet almaq üçün ya Horadiz şəhərinə getməlisən, ya da Əhmədbəyli kəndindəki poçta! Orda da bütün qəzetləri tapsan da, "Ədalət"i tapmaq mümkün deyil.

Yazıq oxucular, qalıblar odla su arasında. Oxumaq istəyirlər ey, amma nə olsun?! On

min əhalisi olan Böyük Bəhmənli kimi kənddə bir qəzet köşkü yoxdur. Bunu kim etməlidi, kim yoluna qoymalıdır, camaat bilmir. Camaat bir onu bilir ki, dərdini bizlərə deyir və biz də onları yuxarı təşkilatlara çatdırırıq. Amma onlar da heç qəzet oxuyan deyil. Qəzet oxuyan olsaydılar, yazdıqlarımızın çoxundan xəbərləri olardı. Bax, adamı belə-belə işlər yandırır. Vaxtilə "Ədalət" qəzeti 65-70 min tirajla çıxardı. Amma indi gəlib çıxır 1500-ə. 1500 qəzet ilə də nə eləmək olur.

Oxuyan oxuyur ey, yerin deşiyində də olsa da tapacaq! Amma yaxşı olardı ki, saytların nazını çəkməkdənsə, 32-35 il çıxan qəzetləri yaşatmaq və qorumaq haqqında düşünmək lazımdır. Qəzet oxumayan millət heç vaxt ağı qaradan seçə bilməz... Qəzet oxumayan millət maariflənə və eyni zamanda bir çox şeyləri öyrənə bilməz... Və qəzet oxumayan millət həmişə axsayar və geridə qalar

Biz dədə-babadan qəzet oxuyan deyilik ey, əgər belə olmasaydı böyük Üzeyir Hacıbəyli "Bir firəng ilə söhbəti" məqaləsini qələmə almazdı. Qələmə almaz və yazmazdı ki, bir firəng bizim məmləkətə gəlir və molladan soruşur ki, bu Qafqazda nə qədər müsəlman var? O da cavab verir ki, altı milyon!

Bəs altı milyonun neçə qəzeti var? Molla da deyir ki, cəmi-cümlətani bir qəzetimiz var. Bu sözü eşidəndə elə bil ki, firəngi ilan vurur və təəccüblənir. O qəzetin altı milyon oxucusu var? Molla deyir yox!

- Beş milyon?
- Yox ey!
- Dörd milyon?
- Yox ey, azdı!
- Üç milyon?
- Yenə azdı.
- Üç yüz min?
- Vallah azdı.
- İki yüz min?
- Qardaş, bir az da azdı.
- Bir min?
- Yox, bir az çox: 1800!

Məlum olur ki, bir məmləkətdə bir qəzet çıxır, onun da 1800 oxucusu var. Bu sözü

eşidəndə firəng bərk dilxor olur və deyir:

"Bir millətin ki, bir qəzet ola, onun da 1800 oxucusu, o millətin gələcəyi olmaz və

mən burda qala bilmərəm" deyib çıxıb gedir.

Molla isə götürüb firəngə bir məktub yazır: "Nolsun ki, bir qəzetin 1800 oxucusu var. Sizin özünüz ilan, qurbağa, tısbağa əti yeyirsiz, sizə heç bir söz deyən yoxdur. İndi bizə lağ edirsiz".

Bax belə, biz belə millət olmuşuq və bu gün də elə-belə millətik. Qəzet sevən, qəzet oxuyan deyilik. Aramızda təktük qəzet oxuyan varsa, ona da lağ edirik və ələ salırıq! Axırda da gülməli vəziyyətə o yox, bizim özümüz düşürük...

Avropanın mərkəzinə demokratiya fontan vurur

Welt qəzeti yazır ki, Almaniyanın Lyutserat kəndi yaxınlığında, ərazilərində kömür yataqlarından istifadə olunması ilə bağlı mitinq keçirən ekoaktivistlər, aparıkan tikinti işlərini dağıtmağa macal tapmamış, polis qüvvələri mitinqi dağıtmağa müvəffəq olub.

Mitinqçilər Qarsvayler kömür karyerininə tərəf irəliləyən mitinqçilərlə pllis arasında toqquşma baş verib. Qarşıdurma zamsnı polis etirazçılara qarşı dubinka və gözyaşardıcı qazadan istifadə edib.

Ekoaktivist etirazçıların bir qrupu polislər tətəfindən mühasirəyə alınıblar. Onların arasında isveçli məhşur ekoaktivist Qreta Tunberqdə var.

Polis Tunberqi polis məntəqəsinə apararaq, onun üstündə axtarış aparıblar.

Rüstəm Hacıyev

20 YANVAR - 33 İL

20 Yanvar müasir Azərbaycan tarixinə bir qəhrəmanlıq, qürur, şəhidlik zirvəsidir. Haqqədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin əmri ilə Sovet Ordusu bölmələri və xüsusi təyinatlılar, habelə daxili qoşunların kontingenti tərəfindən Azərbaycana qarşı hərbi təcavüz nəticəsində Bakı və Sumqayıt şəhərlərində, Lənkəran və Neftçalada dinc əhaliyə, o cümlədən uşaqlara, qadınlara və qocalara qarşı qətliam törədildi. İşğalçı qüvvələrin hərbi təcavüzü nəticəsinə 149 mülki şəxs qətlə yetirildi, 744 nəfər ağır yaralandı, 4 nəfər itkin düşdü.

Azərbaycana qarşı törədilmiş hərbi və siyasi cinayət

Milli Məclisin deputatı Könül Nurullayeva bu gün barədə fikirlərini bölüşərək bildirib ki, 33 il əvvəl baş verən yanvar hadisələri Azərbaycana qarşı törədilmiş hərbi və siyasi cinayət idi: "Təsadüfi deyil ki, 1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. 1988-ci ildə Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi əvvəlki deportasiyalara rəğmən, hələ də respublika ərazisinin 25 faizini, təqribən 7.5 min kv. km-ni təşkil edirdi. 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verdi və nəticədə 250 min azərbaycanlı öz yurdundan qaçqın düşdü. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələrinin Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilməsi, dinc əhalini ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutara qətlə yetirməsi beynəlxalq hüquqi riyakarlığın təzahürü idi. Sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı silahlı hücumu, dinc əhalinin kütləvi surətdə vəhşicəsinə gülləbaran edilməsi xalqın iradəsini qırmaq, ona əzəli torpaqları olan Qərbi Azərbaycandan zorakılıqla qovulmasını və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini qəbul etdirmək məqsədi daşıyırdı.

Təəssüf ki, o vaxt SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedyevin istintaq qrupu hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması qənaətinə gəldi və 20 iyul 1990-cı il tarixində cinayət işinə xitam verilməsi barədə qərarı verildi. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparıldı və qaytarılmadı. Əslində, 20 yanvar hadisələri faciəsi ümumxalq hüzn günü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi.

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı 2 milyona yaxın insanın iştirakı ilə yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirildi. Bu hadisə əslində Azərbaycanda milli kimliyin formalaşmasına təsir etdi, dövlət müstəqilliyinin bərpa edilməsi istiqamətində əhəmiyyətli hadisə oldu.

Faciədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi, ölkənin müstəqilliyi ideyası ümummilli amala çevrildi. 20 Yanvar hadisələri eyni zamanda Azərbaycan xalqına qarşı törədilmiş siyasi terror kimi qiymətləndirilməlidir.

Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi.

Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti verən isə ümummilli lider Heydər Əliyev oldu. 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi, cəsarətli bəyanat verdi. Bu, ulu öndər Heydər Əliyevin siyasi iradəsinin nəticəsi idi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. 1994-cü ilin mart ayının 29-da isə parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz Ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı. Azərbaycan xalqı və dövləti 20 Yanvar şəhidlərin xatirəsini daim uca tutur. Şəhid ailələrinin sosial məsələlərinin həlli hər zaman prioritet məsələ kimi öndədir. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə aylıq təqaüd verilir.

Prezident Fərmanına əsasən, 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilib.

Əvvəl isə bu məbləğ 500 manat təşkil edirdi. Bu da 20 yanvar şəhidlərinə dövlət qayğısının növbəti təzahürüdür".

Qəhrəmanlıq səhifəsi

"20 Yanvar xalqımızın tarixində böyük bir qəhrəmanlıq səhifəsidir". Bu fikirləri isə **deputat Nizami Cəfərov** bildirib. Akademik bildirib ki, "20 Yanvar hadisəsi zamanı insanlar böyük bir imperiyanın ordusunun qarşısına qorxmadan, çəkinmədən, böyük bir cəsarətlə və heç bir təmənna güdmədən çıxdılar. Burada heç kim qəhrəman olmaq barədə düşünmürdü, sadəcə olaraq illərdir əsarətdə olan Vətən artıq öz müstəqilliyini istəyirdi. Çünki kifayət qədər də aydın şəkildə SSRİ-nin dağılacağı görünmürdü.

Əgər bu görünsəydi bəlkə də Sovet rəhbərliyi də heç buna cəsarət etməzdi".

Onun sözlərinə görə, bu müddətdə Azərbaycan xalqı öz iradəsini göstərdi: "Düzdür biz bu yolda çox şəhidlər verdik ki, onların da bir çoxunu gənclər təşkil edirdi. İmperialist qüvvələr xalqın iradəsini sındırmağa çalışırdılar, ölkənin müstəqil olmaması üçün əllərindən gələni edirdilər. Azərbaycanda o zaman guya respublikaya rəhbərlik edənlər qüvvələr var idi. Həmin qüvvələr qeyri-prinsipiallıqdan başlayaraq ləyaqətsizliyə qədər anlaşılmaz bir mövqe tutdular. Həmin o rəhbərlik Azərbaycana ordu yeridilməsinə icazə verdi. Bundan sonra isə onların əvəzinə Moskva bura yeni qüvvələr gətirdi. Təbii ki, onların da içərisində mövqeyini səhv salmış şəxslər var idi. O zaman Azərbaycan Xalq Cəbhəsi də mövcud idi. Xalq Cəbhəsi ilk növbədə xalqı hərəkata sövq etsə də, daha sonra yoxa çıxdı. Proseslər zamanı Xalq Cəbhəsinin rəhbərliyi də qaçıb, haradasa gizləndi.

Məhz həmin dövrdə Azərbaycan xalqı öz əsl liderini tapdı. Bu dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev idi. Proseslər davam edəndə müddətdə Ümummili Lider Heydər Əliyev öz ailə üzvləri ilə birgə Moskvada Azərbaycan nümayəndəliyinə gəldi və çəkinmədən bəyanat verdi. 20 Yanvar hadisəsini Azərbaycan xalqına qarşı amansız bir qəsd olaraq qiymətləndirdi. Elə bununla da Sovetlər Birliyinin dağılmasının əsasının qoyulduğunu Ulu Öndər nümayiş etdirdi. Daha sonra isə uzun illər rəhbərliyində olduğu Kommunist Partiyasını tərk etdi, xalqının yanında olduğunu göstərdi. Çox keçmədən xalq da öz iradəsini göstərdi və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz qələbəsinə, müstəqilliyinə nail oldu.

Zaman keçir və biz 20 Yanvar və bundan sonrakı hadisələri təhlil edirik. Bu təhlillərin hər birində bu hadisənin bizim xalqımızın qəhrəmanlıq aktı olduğu göstərilir. Düzdür, itkilərimiz olduqca çoxdur, amma 20 Yanvar hadisəsi bütün dünyada Azərbaycan xalqına və onun tarixinə şərəf gətirir".

Nicat Novruzoğlu

DSX rəisi Sentyabr döyüşlərində sərhədçilərimizin məhv etdiyi düşmən texnikalarını açıqladı

Ötən il 12-13 sentyabr tarixlərində dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində bölmələrimiz tərəfindən Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq ağır sarsıdıcı zərbələr endirilib, çoxsaylı itkilər verən düşmən qüvvələri geri çəkilməyə məcbur edilib.

Adalet.az xəbər verir ki, bunu Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev 2022-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat müşavirəsində deyib.

O bildirib ki, düşmənin 2 S-300 divizionu, 1 ədəd S-125 ZRK buraxıcı qurğusu, 1 ədəd S-125 ZRK-nın atəş tuşlama stansiyası, 1 ədəd P-18 tipli radiolokasiya stansiyası, 2 ədəd "Jitel" radioelektron mübarizə sistemi, 18 ədəd düşmən postu, çoxsaylı canlı qüvvəsi məhv edilib.

Meymun hardan bilsin ki, lazımsız quyruqdansa...

Bir kişi meşədə odun yarırmış . Kəsilmiş ağac gövdəsinin çatına bir iti uclu odun parçası vurub, genişləndirir, növbəti odun parçasını bir qədər irəliyə sancır və ilk vurduğunu çıxarırmış. Bu qayda ilə ağacın bu başından o başına bu üsulu tətbiq edə-edə onu yarırmış.

Bunu seyr edən meymun fikirləşir ki, insanla eyni quruluşa malik olduqları halda, bunu etmək onun üçün də çətin olmaz. Cəldlikdə insandan cəldəm, tullana bilirəm, ağacdan - ağaca atılıb, keçə bilirəm.. Hələ üstəlik meymunlarda insandan fərqli olaraq bir bədən üzvü də artıqdır.. yəni quyruq. Bu qədər üstünlüklərim olduğu halda, yenə insanı məndən ağıllı hesab edirlər. Mənim nəyim onlardan əskikdir? İnsan ağacı yarıb, evə aparandan sonra meymun həmin yerə gəlir. Bir ağac kötüyü götürüb, insan kimi onu yarmaq istədi.. iti uclu odun parçasını insandan daha rahat kötüyə yeridə bildi.

Sonra onu çıxarmaq istədi. Nə qədər çalışsa da , onu çıxara bilmir. Başa düşmür ki, bunun üçün ikinci odun parçasını çaxmalıdır. Kötüyün üstündə oturub var gücüylə həmin parçanı o tərəf, bu tərəfə çəkə-çəkə, yerindən çıxarır. Amma ... iti uclu odun parçası yerindən çıxan kimi kötükdə açılan çat da birləşir. Meymunun həmişə qürrələnərək yellədiyi quyruğu da həmin çatın arasında qalır. Meymun hardan bilsin ki, lazımsız quyruqdansa, yaxşı işləyən baş daha yaxşıdır.

Bilənlər bildiklərini bilməyənlərə öyrətsin .. bilməyənlər də bilirmiş kimi görüntü yaratmaqdan əl çəksinlər.. Əvvəl, axır kimin qabında nə var üzə çıxır.. ayranla yağ məsələsi kimi.

Aydın Səma

Kəllə qənd

Əvvəllər bütün qəndlərin ən yaxşısı kəllə qənd hesab olunurdu. Onu da burda yox, İrandan gətirirdilər. Elə ona görə də keyfiyyətli idi. Sonradan ölkəmizdə də bütün qəndlər kimi kəllə qəndin də istehsalına başlandı və onu elə günə qoydular ki, əvvəlki qənddən də keyfiyyətsiz hala düşdü. İndi hansı marketdən, mağazadan o qənddən alırsan, heç bir dadı, ləzzəti yoxdur.

Özü də zarafat deyil ey, baha qiymətə!

Ümumiyyətlə, bizdə qənd istehsalında çox bərbad bir vəziyyət yaranıb. Maraq və pul naminə hər yerindən duran qənd istehsal edir. Amma o qənddən alırsan, istifadə edirsən, görürsən ki, qənd qənd tamı vermir.

Ona görə də bir çox insanlar mağazada və dükanda satılan qəndlərdən imtina edərək şəkər tozu alır və evdə onu bişirib qənd halına salırlar.

Deyirlər ki, bizim şəkər tozundan düzəltdiyimiz qənd mağazalarda satılan kəllə qənddən və digər qəndlərdən daha dadlıdır. Qida Təhlükəsizliyi Agentliyi bu məsələləri diqqətdə saxlamalı, keyfiyyətsiz qənd istehsalçılarını məsuliyyətə cəlb etməlidir. Amma görünür məlum qurum bu sahədə zəif fəaliyyət göstərir, istehlakçıların hüquqlarını qoruya bilmir və bəzi istehsalçılarla mübarizə aparmaqda çətinlik çəkir.

Adamın Allahı olar!

Bu sözləri Milli Məclisin deputatı Vahid Əhmədov deyib. O deyib ki, cənab prezident bütün pensiyaları, təqaüdləri, ünvanlı sosial yardımları və müavinətləri artırır, bir çox şeylərin qiymətləri də o dəqiqə süni şəkildə bir neçə dəfə bahalaşdırılır. Bu isə camaatın haqlı narazılığına səbəb olur. Əvvəllər biz Rusiya istehsalı olan "ASS" dərmanını 3 manat 80 qəpiyə alırdıq. Bir neçə gün bundan qabaq həmin dərmanı apteklərin birindən aldıq və məlum oldu ki, onun qiyməti bahalaşaraq 5 manat 65 qəpiyə çatıb. Balam, bu necə bahalaşdı, nə təhər artdı, onu bilmək olmur?!

Hansı ki, qiymətlərin artımını Tarif Şurası müəyyənləşdirir. İndi bəzi apteklər heç Tarif Şurasını saya saymırlar. Özləri istədikləri qiymətə dərman satırlar. Bunun isə bir adı var: özbaşınalıq və dərəbəylik! Bu özbaşınalığın və dərəbəyliyin qarşısı nə vaxt alınacaq, bax, onu bilmək olmur!

Emil FAİQOĞLU

Vüqar Abbasov
vugarabbasov@hotmail.com

İqtisadi əfv və yaxud oğru məmurların biznesmenə çevrilməsi

Mənə elə gəlir ki, Azərbaycanda iqtisadi əfvə ehtiyac var. Təklif edərdim ki, iqtisadi əfv verilsin, amma bir neçə şərtlə...

Azərbaycanda kiçik və orta sahibkarlıq o qədər də inkişaf etməyib, bu bir həqiqətdir. Bunun əksini sübut etməyə çalışmaq isə bu problemi həll etmir. Doğru - dürüst statistika olarsa (ki, olması çox vacibdir), bunu görmək mümkündür. Nəhayət ki, boş sözlərdən əl çəkib rəqəmlərin dili ilə danışmağı öyrənməyə çalışmalıyıq. Yuval Noah Hararinin ("Sapiens" Bəşəriyyətin qısa tarixi) dili ilə desək: "Hökumətlərin, təşkilatların və şirkətlərin qərarlarına təsir etmək istəyən şəxs mütləq rəqəmlərin dili ilə danışmağı öyrənməlidir." Kiçik və orta sahibkarlığın inkişafına ən böyük əngəl isə məmur özbaşnalığı, rüşvət və korrupsiyadır. Ölkədə bu kimi mənfi halların mövcud olması ən yuxarı səviyyədə belə inkar olunmur. Doğrdur, bunun qarşısını almaq üçün bir çox addımlar atılıb, qanunlar qəbul edilib. Bura ASAN xidmətlərin yaranmasını, şirkətlərin qeydiyyata alınmasının, vergi ödənişinin sadələşdirilməsini və.s. göstərmək mümkündür. Amma qanunların icra olunması məsələsində, necə deyərlər, yenə də divara dirənirik; yenə də məmur özbaşnalığı, rüşvət, korrupsiya. Halbuki kiçik sahibkarlar tədricən orta sahibkarlara, orta sahibkarlar isə böyük biznes adamlarına çevrilməlidir. Bunun baş verməsi isə kasıb cəmiyyətlərdə mümkün deyil. İnsanların alıcılıq qabiliyyəti yüksək olmalıdır ki, insanlar nəsə ala, təklif olunan xidmətlərdən istifadə edə bilsinlər. Bunun üçün isə iqtisadiyyata sözdə deyil, gerçəkdə sərmayə qoyulmalıdır.

... Sirr deyil ki, Azərbaycanda yüksək vəzifə tutmuş birini işdən çıxartdıqdan sonra onun dövlətdən milyonlar oğurladığı məlum olur. Əslində isə, işdən çıxarılmamışdan öncə də bunlar xalqa məlumdur, sadəcə bütün bunlar insanlara sonradan etiraf olunur. Oğurlandığı etiraf edilən və edilməyən milyonlar isə, obrazlı desək, ya "yastığın altında" yatıb qalır, ya ortada "itib-batır", ya da digər ölkələrə sərmayə kimi qoyulur. O ölkələrə ki, oranın əhalisinin alıcılıq qabiliyyəti yetərincədir. Amma ölkəmizdən çıxarılaraq xarici ölkələrə qoyulmuş bu sərmayədən ölkəyə gəlir gəlmir. Qazanan sərmayə qoyulmuş ölkə(lər) və sərmayə qoyan(lar) olur. Nəticədə sərmayə qoyan(lar) bizim ölkəmizdə zənginləşir, bundan isə bizim insanlara fayda yoxdur. Bir sözlə, ölkədən oğurlanmış pullar ölkə iqtisadiyyatına yatırılmadıqca bu sərmayə, yenə də Yuval Noah Hararinin dili ilə desək, "dəniz quldurlarının xəzinə aparan İspan gəmisini garət edərək ələ keçirdiyi qızıl dolu sandıqları Karib dənizindəki adaların birində torpağa basdırması" kimi bir şeydir. Quldur hər bir halda quldurdur, ha gəmini çap - tala, ha dövləti. Mənim fikrimcə yeganə çıxış yolu iqtisadi əfv elan olunmasıdır. Yəni bir fərmanla qulduru biznesmenə çevirmək mümkündür. Şərt isə belə ola bilər: bu günə qədər nə etmisənsə, etmisən. Bundan sonra belə hallar olacaqsa, qanunun yol verdiyi ən ağır cəza ilə cəzalanacaqsınız. Bu günə qədər əldə etdiklərini isə ölkə iqtisadiyyatına sərmayə kimi qoyacaqsan.

- Təhsilə sərmayə qoyulmalıdır: təhsilin inkişafı həmçinin yeni texnalogiyaların inkişafına səbəb ola bilər. Bu isə həm iqtisadi, həm həm hərbi, həm də siyasi gücün artması deməkdir. Çox uzağa getmədən Türkiyənin son dövrlərdəki texnologiya sahəsindəki uğurlarına baxaq. Bayraktar Savunma tərəfindən istehsal olunan pilotsuz döyüş təyyarələrini misal gətirmək olar. Bizim 44 günlük Vətən müharibəmizdə Bayraktarın rolunu kim dana bilər? Türkiyənin özünün də etiraf etdiyi kimi, məhz Vətən müharibəsindən sonra bu təyyarələri almaq üçün bir çox ölkələrdən çoxlu sifarişlər alıblar. Bu isə ölkəyə gələcək valyuta axını deməkdir. Bu irəliləyiş Türkiyənin beynəlxalq aləmdə də nüfuzunu xeyli artırmış oldu. Bundan başqa, bu il Türkiyədə seçkilər ilidir. Şübhə etmirəm ki, Türkiyənin hazırkı prezidenti məhz bu inkişafdan həm də siyasi məqsədlər üçün istifadə edəcək. Baxaq, bir Bayraktar həm iqtisadi, həm hərbi, həm siyasi (daxili və xarici) gücü artırmış oldu.

- İstehsala sərmayə qoyulmalıdır: həm kənd təsərrüfatının, həm sənayenin inkişafına. Əgər Azərbaycan bu sahələrdə uğur əldə edərsə, məhsullarımızı gələcəkdə qonşu ölkələrə, Türkiyəyə, Gürcüstana, Rusiyaya, İrana və hətta bəlkə gələcəkdə Ermənistana belə sata bilərik. Bununla, məsələn, sonuncunu hətta özümüzdən iqtisadi baxımdan aslı etmək imkanımız belə ola bilər və bunun da nə demək olduğunu izah etməyə ehtiyac görmürəm.

İstehsaldan əldə olunan gəlir isə yenə də istehsalın genişlənməsinə xərclənməlidir. Yəni ölkədə əsl kapitalizm sistemi yaradılmalıdır. Bu inkişaf isə nəhayətində sosial bir ölkəyə çevrilməyimizlə nəticələnə bilər. İnkişafına həsəd apardığımız Avropa, Qərb ölkələri bu günkü uğiurları əldə etməkdən ötrü çox mərhələlərdən keçiblər. Bütün bunlara isə ən başlıca təhsilə və iqtisdiyyata ayırdıqları diqqətdir. Bu gün dünya elmin, iqtisadiyyatın, texnalogiyanın bu yerlərə gəlib çıxmasına görə Qərb dövlətlərinə, elminə borcludur, bunu kimsə dana bilməz.

...Kənar səraməyələrin də ölkəyə cəlb olunmasına, iş adamların ölkədən qaçmamasına çalışmaq lazımdır. Bunun üçün isə ilk növbədə hüququn aliliyi qorunmalı, məhkəmələrin müstəqilliyi tam təmin olunmalıdır. Bu, həm yeni xarici sərmayədarları ölkəyə sərmayə qoymağa həvəsləndirər, həm də ölkədəki imkanlı şəxslərin ölkə iqtisadiyyatına sərmayə qoymasını təmin etmiş olar.

Yazımın əvvəlində qeyd etdiyim kimi, iqtisadi əfvə ehtiyac olduğunu düşünürəm, amma müəyyən şərtlər daxilində. Bunun ölkəmizə həbslərdən daha çox faydalı olacağını düşünürəm. Ən azından xalqdan oğurlanmış pullardan xalq da bu formada faydalanar. "Dəniz quldurları" da iş adamlarına çevrilər.

Yazıma Yuval Noah Harari adını yuxarıda qeyd etdiyim kitabından bu seçmə ilə davam etmək istəyərəm:

"1776 - cı ildə şotlandiyalı iqtisadçı Adam Smit bəlkə də, tarixdə ən mühüm iqtisadi manifesti olan "Xalqların zənginliyi" kitabını nəşr etdirdi. İlk cildinin səkkizinci fəslində Smit bu ideyanı irəli sürürdü: Torpaq sahibi, toxucu və ya pinəçi ailəsini saxlamaq üçün lazım olandandaha çox gəlir əldə edərsə, artıq pulu işçi tutmaq və beləliklə, gəlirini daha da artırmaq üçün istifadə edir. Onun gəliri artdıqca, daha çox işçi tutur. Buradan belə nəticə çıxır ki, fərdi sahibkarlığın gəlirindəki artımın ümumi inkişafın və zənginliyin təməlidir.

Smit insanlara iqtisadiyyatın "qarşılıqlı mənfəət situasiyası" olduğunu, yəni birinin mənfəətinin sizin də mənfəətiniz olduğunu düşünməyi öyrətdi. Əgər mən yoxsulamsa, sən də yoxsullaşacaqsan, çünki sənin məhsullarını, xidmətlərini ala bilməyəcəm. Əgər mən varlıyamsa, sən də varlanacaqsan, çünki mənə nəsə sata bilərsən."

Bu isə həqiqətən də belədir. İnsanların varlanması, yuxarıda qeyd etdiyim kimi, nəhayətdə sosial dövlətin yaranması ilə nəticələnə bilər. Necə deyərlər, oğurlanan pullar ölkə iqtisadiyyatına qoyun, xalqı varlandırın. Xalq varlandıqca siz də varlanacaqsınız, çünki xalqa nəsə sata biləcəksiniz. Xalqa yalan satmaqdansa, məhsulunuzu satın. Bu hər iki tərəf üçün daha yaxşıdır.

***P.S.** Bu yazımı bundan öncəki iki yazımın, "Bu millətə nə verdik ki..." və "Gəlin başlayaq" adlı yazılarımın davamı da hesab etmək olar.*

https://adalet.az/az/writers/detail/bu-millete-ne-verdik-ki-vuqar-abbasov-yazir-1664264496

https://adalet.az/az/writers/detail/gelin-baslayaq-vuqar-abbasov-yazir-1669803465

https://adalet.az/az/writers/detail/gelin-baslayaq-vuqar-abbasov-yazir-1669803465

Niderland.

(əvvəli ötən şənbə saylarımızda)

***

Maşını sürdü Lökbatan bazarının qabağına, bəlkə bir-iki manat pul qazana. Bazarın ağzında maşını elə təzəcə saxlamışdı ki, burdakı sürücülər tökülüşdü üstünə:

- Ə, sən hardan çıxdın?

- Siz hardan çıxmısız mən də ordan.

Bir bazburtlusu saldı Şakiri çənəsinin altına, Şakirin boyu elə onun çənəsinin altındaydı:

- Ə, buralar bizlikdi.

- Dədənizdən qalıf?

- Hə. Sən get ayrı yerdə xaltura elə. Buranı bizə veriblər. Sən çujoysan.

Bu vaxt sürücülərdən biri dedi:

- Ə, dəyməyin yazıqdı, o da bizim kimi qaçqındı. Qoy balalarına beş-on manat aparsın.

Nə qədər gözlədi, bazardan çıxanlardan heç biri "Jiquli"ləri qoyub onun dranqulet "Moskviç"inə yaxınlaşmadı. Axırda gözləməkdən yoruldu, çıxıb getmək istəyirdi ki, bu vaxt bazardan bir yaşlı kişi ilə qadın çıxdı. Yükləri ağır idi. Tez yüyürüb kömək elədi, gətirib yığdı maşına və sevincək oturdu sükanın arxasına:

- Dayı, hara sürüm?

- Talış məhəlləsinə.

- Ora haradı?

- Deyəsən təzəsən? Hardan gəlmisən?

- Ağdamnan.

- O cür şəhəri qoyub qaçarlar?

- Bağışla dana, dayı, bir qələtdi eləmişiy. Sallah qoy maşınımı sürüm. Öz dərdim özümə bəsdi. Neyniyəy, sizin kimi kişi olmadıx dana.

Arvad arxadan zəhmli səslə dedi:

- Ay kişi, sənin dədələrin İrəvandan nətəhər qaçıbsa, onlar da elə. Camaatın zəhləsini tökmə, yolu göstər.

Kişi səsini xırp kəsdi. Şakiri gülmək tutdu:

- Dayı, mən ermənininn top-tüfənginnən qorxuf qaşmışam. Sən arvadınnan qortdun. Yolu göstər.

Nə isə, gəlib çatdılar mənzil başına, yenə düşüb yüklərinə kömək elədi. Kişi çıxarıb iki "məmməd" verdi və dedi:

- Ay oğul, maşından it iyi gəlir, bunu bir təmizlət.

- İt iyi döyül, dayı, erməni iyidi.

- Tula itdən betər.

Şakir dilxor oldu. Maşına kim otururdu, deyirdi iy gəlir. Nə qədər təmizlətsə də bu iy getmirdi, şüşələri də açıq qoyurdu, xeyiri yoxuydu. Surenin iyi maşına nə təhər hopmuşdusa adekalon da vururdu, adekalonun iyi gedən kimi yenə maşından erməni iyi gəlirdi. Bu iyi təmizləmək mümkün deyildi.

Gəldi Market Vəlişin kafesinə. Kafenin qabağı qaçqınlarla dolu idi. Hamı yığışmışdı bahalı geyimli bir kişinin başına. Səs-küydən qulaq tutulurdu. Şakir bağırdı:

- Səsinizi Allah kəssin, qoyun görəh kimdi, nəyə gəlif?

Məlum oldu ki, gələn Qaçqınkomun sədridi. Sədr bir az ordan-burdan danışandan sonra yataqxanaların yuxarısındakı boş düzəngahı göstərib dedi:

- Bax, orda sizin üçün çoxmərtəbəli binalar tikiləcək, məktəbi, bağçası olan qəsəbə salınacaq. Siz də ağac əkərsiz, cənnətə dönər.

Şakir sədrin üzünə baxıb dedi:

- Ağsaqqal, burda yalnız uşax əkməy olar.

Sədri də gülmək tutdu, camaatı da.

Şakir day "yaz gələr, yonca bitər" söhbətinin ardına qulaq asmadı, girdi kafeyə.

Vəliş bir stəkan çay süzdü ona:

- Ə, sənin bu dilin axırda başına bəla olacaq. Nazir adamdı, deyər, tutub basarlar qoduqluğa. Bura Ağdam deyil ey, Lökbatandı.

- İstiyir eşşəhbatan olsun. Ay nemes, sənin sözünə aldanıf gəldim, bağ belə, bostan belə. Ağcabədidə gül kimi yaşıyırdım. Elə öz camaatımızıydı, xətir-hörmət vardı. Burda özümüzünkülərdən başqa bir it də tanımır məni. Maşınıma minən də yoxdu. Kim minir düşəndə deyir maşınnan erməni iyi gəlir. İndi mən neyniyim? Heş bu boyda hökumət ölkəni bu erməni iyindən təmizdiyə bilmir, buna Şakir neynəsin?

- Ə, çayını iç, düzələr.

- Qorxuram düzələnəcən biz çezək.

Bu vaxt musiqi məktəbinin direktoru girdi kafeyə. Hal-əhval tutdu. Vəliş bir stəkan çay da ona süzdü. Direktor çaydan bir qurtum alıb üzünü tutdu Şakirə:

- Şaka, bizdə qarmon sinfi açılıb, amma müəllim yoxdu. Bəlkə gəlib uşaqlara dərs keçəsən? Maaşı da pis deyil.

- Ə, nemes, məndən məllim olar?

- Ə, niyə olmur? Sən kimin qızından əskiksən? Fizika deyil, riyaziyyat deyil, sən çalırsan, uşaqlar da baxıb öyrənir.

- Baxmaxla öyrənmək olsaydı Qəssaf Qulamın dükanının qabağındakı itlər hamısı qəssaf olardı. Həm də gorum var ki, kəfənim də ola? Qarmonum qaldı nemeslərə. Öyün girmişdim dükana, həsrətlə qarmonlara baxırdım. Ən ucuzu sənnən, mənnən bahadı.

- Bizdə də qarmon yoxdu. Mədəniyyət şöbəsinin müdiri hamısını satıb-sorub. Bir-iki sınıq-salxaq pianomuz var, o gün yoxlama gəlmişdi deyir hanı royalınız? Dedim, ay qardaş, royal nədi, get onu müdirdən soruş. Amma doğru sözümdü, bir qarmon tap gəl səni götürüm müəllim.

- Ə, nemes, itirmişəm tapam?

Market Vəliş söhbətə qoşuldu:

- Şaka, Rəmişin dostu deyilsən? Rəmişə de birini bağışlasın.

- Rəmişi Əzrayıl tapa bilmir canını alsın, mən hardan tapım?

- Aqil Abbasın dostudu.

- Aqil Abbas kimdi,ə? O mənim eşşəyimi vuran?

- Hə.

- O zəhləmgetmişi hardan tapım?

Market Vəliş gedib bir "Ədalət" qəzeti gətirdi, atdı stolun üstünə:

- Burda telefonu var. Götür zəng elə.

- Nemes, eşşəyimi vuranda ona itin sözün demişəm, yəqin yadınnan çıxmıyıf.

- Xançalıyın qaşı düşəcək? Zəng elə də, tapsa o tapacaq.

Şakir girdi yataqxanaya. Sınıq-salxaq bir telefon vardı yataqxanada, götürdü və nömrəni yığdı.

- Alo, salam.

- Salam.

- Maa Aqil Abbas lazımdı.

- Eşidirəm,

- Bir də salam.

- Lap iki də salam. Kimdi?

- Şakirdi.

- Hansı Şakir?

- Neçə Şakir tanıyırsan?

- O qədər.

- Şakirdi dana, qarmonçalan Şakir, Gülablı Şakir.

Telefonun o başından gülmək səsi gəldi:

- Mənə eşşək yüklədən Şakir?

- Hə, həmən Şakir.

- Xoş gördük, Şakir müəllim.

Şakirə ilk dəfə müəllim deyirdilər, bu söz onu güldürdü:

- Day məllim deyiləm, zavuş qoyuflar.

- Təbrik edirəm, gün o gün olsun direktor olasan.

- Sağ ol. Səni nətəər tapa bilərəm? İşim düşüf.

Şakir maşından düşüb qapını örtəndə dedi:

- Elə sən də yaxşı kişiyə oxşuyursan. - dedi və girdi nəşriyyata.

Foyedə iki polis oturmuşdu, yaxınlaşdı onlara:

- Mən Aqil Abbasın yanına gedirəm, özü çağırıf.

Serjant:

- Bizə deyib, gəl səni ötürüm. - dedi və qalxdı ayağa.

Şakir:

- Özüm gedərəm dana.

- Yox, qoy səni ötürüm.

- Burda it-zad var ki, məni itdən ötürəsən?

Serjant başını buladı:

- Ayə, zəhləmi tökmə, gəl dalımca deyirəm, gəl.

Şakirin bəxtindən lift işləmədi, piyada qalxası oldular altıncı mərtəbəyə. Pilləkanları qalxanda yoruldu və dedi:

- Ə, bu boyda binanın lifti məni gördü işdəmədi?

Serjant da dilxor halda:

- İşləyən vaxtı olub ki?

Çatdılar altıncı mərtəbəyə, hər ikisi nəfəsini dərdi, serjant qapını göstərdi ki, burda oturur.

Şakir girdi içəri. İçəridə bir qız oturmuşdu telefonla danışırdı, heç vecinə almadı ki, içəri kim girdi. Başını qaldırmadan soruşdu:

- Nə istəyirsiniz?

- Nə istəmirəm, kimi istiyirəm. Aqil Abbasın əmisi oğluyum.

Qız "əmisi oğlu" sözünü eşidəndə telefonu qoydu yerə, qalxdı ayağa, içəri qapını açıb dedi:

- Bəxtiyar məllim, ev-eşik var, nə var nə yoxu da ola? Löhbatanda yataqxanada qallam.

- Darıxma, Şakir. Dünya belə gəlib, amma belə getməz. Hər bir gecənin bir gündüzü var. Bir gün yenə Gülablıda evin-eşiyin olar. Nə vaxt istəsən Aqilə denən, evi tanıyır, gətirsin bizə. Düzdür, mən sənə kabab verə bilməyəcəm, amma Şəki pitisinə qonaq eləyərəm.

- Sağ ol, Bəxtiyar məllim. Dedim ki, bəlkə bizim başçıya deyəsən mənə bir iş verə.

- Həsən Sarıyevə?

- Yox, Löhbatanın başçısına.

- Deyərəm. Sən Aqillə əlaqə saxla.

- Allah balalarını saxlasın. Allah səni bu eldən-ovadan əskiy eləməsin. Sən yaxşı kişisən, böyük də şairsən.

Sağollaşdılar. Şakir telefonun dəstəyini qoydu yerinə:

- Ə, bu yaman oldu, kişi söz verdi, mənə iş düzəldəjək. Kasıbınkı gətirəndə gətirir də. Rəmişi də tapsan, sənə bir yekə sağ ol deyəjəm. O qədər yekə ki, ömrüyün axırınacan xərjlə qurtarmasın.

Durdular çıxdılar. Yendilər aşağı, yenə də pilləkanlarla piyada. Nəşriyyatdan çıxdılar, oturdular bir xarici maşına.

- Ə, bə sənin qaziyirmidördün yoxuydu?

- Onu sənin eşşəyini vurandan sonra satdım. Nədi, bu maşını bəyənmirsən? Nemes maşınıdı.

Maşın yerindən tərpəndi. Çox rahat idi, xoşhallandı, sonra dedi:

- Dədə, Allah sənə rəhmət eləsin, belə maşın düzəldənə güllə atallar?

Aqil ABBAS

ÇAY QIRAĞINDA BİTİB, SUSUZ QALAN AĞACLARIN SAĞLIĞINA...

(Abdal-Gülablı Şakirin xatirəsinə)

(povestdən bir parça)

- Hardan danışırsan?

- Löhbatandan.

- Otur bir taksiyə, denən sür Yasamal qəbiristanlığının yanına, Azərbaycan nəşriyyatına. Qapıdakı polisə denən Aqilin yanına gedirəm, səni gətirər yanıma.

- İstiyirsən, qəbirsanlıxdan keçəndə ölənlərinə bir Quran da oxutdurum. Amma inanmıram gedif Qaraacıya çata, nemeslər Evoğlunun üstünnən yolu kəsif.

- Yolu kəsə bilərlər, dualarımızın qarşısını kəsə bilməzlər.

Yataqxanadan çıxdı. Bir taksi tapdı, bayaq qazandığı iki "məmmədi" verdi sürücüyə:

- Qardaş, məni at Yasamal qəbirsanlığının yanındakı nəşriyyata.

Taksi sürücüsü dodağını büzdü:

- Bir məmməd də ver.

Şakir ciblərini eşələyib bir "məmməd" də tapdı, verdi sürücüyə:

- Ala, haram xoşun olmasın.

- Arvad kimi qarğış edirsən, ə?!

- Deyirəm yəni haram olmasın dana, halal olsun. Sən də günəşi götəş oxuyursan.

***

Yasamal qəbiristanlığına çatanda, yadına Xudu Məmmədov düşdü. Bakıda elə də çox olmamışdı, bir əsgərliyə gedəndə, bir də qayıdanda şəhərdə iki-üç gün qalıb azadlığın kefini çıxarmışdı, bir də Xudu Məmmədov rəhmətə gedəndə gəlmişdi onun dəfninə. Ürəyində dedi ki, bir də nə vaxt yolum bura dəşəcək, girim Xudu Məmmədovu bir ziyarət edim, bir "Yasin" oxutdurum ruhu şad olsun.

Sürücüyə dedi:

- Qaqa, bir məmməd də verəcəm, qəbirsanlığın içinnən sür.

İkinci Fəxri Xiyabana çatanda dedi ki, qaqa, burda saxla. Düşüb girdi içəri, axtarıb Xudu müəllimin məzarını tapdı, başdaşını öpdü, sonra bir "Fatihə" də verdi.

Marağa sürücü də onunla birgə gəlmişdi qəbiristanlığa. Soruşdu:

- Qədeş, qohumundu?

- Qaqa, görmürsən Xudu Məmmədovdu, professor, alim.

- Mən də eşitmişəm. Dedim bəlkə qohumundu?

- Qaqa, belə qohumum olsa nə dərdim olardı?

Xiyabana iki nəfərin girdiyini görən bir molla tez özünü içəri saldı, yaxınlaşdı onlara, uca səslə dedi:

- Allah rəhmət eləsin!

- Allah sənin də ölənlərinə rəhmət eləsin, - dedi Şakir çevrildi mollaya tərəf, gözlərinə inanmadı, Qədir Rüstəmovun bacanağıydı; - Ə, sən Qədirin bajanağı döyülsən?

Molla:

- Sən də Şakir döyülsən?

Qucaqlaşdılar.

- Qədir nətərdi?

- Vallah, xəbərim yoxdu, Oğuzda olur.

- Bəs, sən qəbirsanlığda nəzirsən?

- Mollalıq edirəm. Gündə beşdən-ondan qazanıram, Allah bərəkət versin. Uşaqları ac qoymuram.

Şakir əlini saldı cibinə, pul çıxardıb uzatdı mollaya:

- Xudu məllimə də bir yasin oxuyarsan.

Molla pulu almadı:

- Ə, qoy cibinə. Xudu müəllimin yasinindən pul alacam?!

Molla şirin bir avazla "Yasin"i oxuyub qurtardı və soruşdu:

- Kimin adından xətm eləyim?

- Ağdamlıların.

Yenə qucaqlaşıb ayrıldılar. Gəlib oturdular maşına, sürücü çevrilib mənalı-mənalı Şakiri süzdü.

Gəlib çatdılar nəşriyyata.

Sürücü:

- Bu da nəşriyyat.

Şakir əlini saldı cibinə ki sürücüyə bir məmməd də versin, sürücü bayaq ondan aldığı üç məmmədi də qaytardı Şakirə:

- Yaxşı kişiyə oxşayırsan, götür pulunu. Sən ki Xudu Məmmədova yasin oxutdurdun halaldı, - və zorla pulu verdi Şakirə.

- Aqil müəllim, əmin oğlun gəlib.

- Gəlsin.

Şakir forslu-forslu qıza baxıb keçdi içəri. Otağa girən kimi gözünə ilk sataşan Rəmişin portreti oldu. Belə bir portret görməmişdi. Rəmiş bir palıd ağacı kimi təsvir olunmuşdu. Ayaqları girmişdi torpağa, kök atmışdı. Saçları palıdın budaqları, yarpaqları idi. Gitarası palıddan ayrılan bir zoğ idi, simləri də qırılmışdı, üstündə bircə dənə sim vardı. Rəmişin barmaqları girmişdi gitaraya və barmaqlarından qan süzülürdü. Rəmişin portretinin yanında Qədir Rüstəmovun da böyük bir şəkli asılmışdı, əlində qəlyan. Portret Şakiri necə tutmuşdusa salam vermək də yadından çıxdı. Aqil də durub gəldi Şakirin yanına, portretin qabağına:

- Nədi, portret xoşuna gəldi?

- Hə, kim çəkifsə köpəyoğlu yaxşı çəkif. - Sonra güldü və dedi: - Ağdamın dəlilərinin şəklini vurmusan, bircə dəli Dilbərin yeri əskiydi.

Aqil qucaqlayıb Şakiri öpdü, yer göstərdi, katibəyə də tapşırdı ki, çay versin.

Şakir:

- Yəqin Məşədi Abbasın söhbətini eşitmisən?

- Hansını?

- Mircəfər Bağırov gəlir Ağdama, girir Məşədi Abbasın kabinetinə. Görür Məşədi başının üstündən üç portret asıf. Sağda Stalin, solda Bağırov, ortada da öz portretini. Soruşur ki, Məşədi, bu nədi? Məşədi də deyir ki, yoldaş Bağırov, sağ tərəfdəki Stalindi, ölkənin yiyəsi, solda sizsiniz Azərbbaycanın yiyəsi, ortadakı da mənəm dana, Ağdamın yiyəsi. İndi sən də Rəmişlə Qədirin şəkillərinin ortasında öz şəklini as, sən də elə onlar ağıldasan.

Bir az keçmişdən danışdılar, bir az Gülablıdan, bir az Ağdamdan. Nəhayət, Şakir dedi:

- Niyə soruşmursan nəə gəlmişəm?

- Nəyə gəlmisən, xoş gəlmisən.

- Maa Rəmiş lazımdı. Deyirlər sənin yaxın dostundu. Onu tap ver maa.

- Xeyirdimi Rəmişi axtarmaqda?

- Şərə lənət, Löhbatanda bizim kəndin müsiqi məktəfini açıflar. Direktor diyir ki, gəl orda qarmon dərsi de. Məktəfdə də qarmon yoxdu, mənim də qarmon almağa pulum yoxdu. Pul oluf cin, biz də olmuşux bismillah, bizi görən kimi qaçır. Rəmişi axtarırdım maa bir qarmon alsın.

- Day Rəmişi neyləyirsən, gedək mən alım da. Onsuz da sənə bir eşşək borcum var.

- Deyəsən, eşşək yadınnan çıxmıyıf. Mən o eşşəyi Bağbanlardan əlli manata almışdım, bizim gədə də onu min manatlıq işlətmişdi. Sağ ol, sən maa Rəmişi tap, kədçimdi, qohumumdu.

- Rəmiş də Lökbatanda yaşayır. Orda kimdən evini soruşsan göstərər.

- Ə, Löhbatan Ağdam döyül ey, hamı Avdal Hüseynin evini tanıya.

Aqil güldü:

- Şakir, Rəmiş dədəsi Abdal Hüseyndən min dəfə məşhur adamdı.

- Nə isə, çox danışma dana, tapırsan, yoxsa yox?

- Otur çayını iç, mən də əlimdəki işimi qurtarım, səni aparacam Rəmişin yanına.

Şakir otaqdakı kitabları göstərib dedi:

- Sən oxumuş adamsan, de görüm Ağdamı görə biləjiyik?

- Görəcəyik. Hələ o qədər Ağdamda toy çalassan.

- Allah ağzınnan eşitsin. - sonra da dedi: - Səndə Bəxtiyar Vahabzadənin telefonu var?

- Var.

- Sallah, yığ bir onla danışım. Kişiylə neçə dəfə çörəh kəsmişəm, yaxşı adamdı. Deyirəm bəlkə maa bir iş tapdı.

Aqil telefonu götürüb hansısa bir nömrəni yığdı:

- Bəxtiyar müəllim, salaməleyküm. Aqildi. Necəsiniz? Sağ olun, Məmməd də babatdı. Burda bir yoldaş var sizinlə danışmaq istəyir. - sonra telefonu verdi Şakirə: - Buyur.

Şakir telefonu aldı, bir az da həyəcanla:

- Salam Bəxtiyar məllim. Şakirdi, gülablı Şakir, qarmonçalan Şakir. Tanıdız?

Bəxtiyar Vahabzadə:

- Ooo, xoş gördük Şakir, səni tanımamaq olar? Necəsən? Evdə-eşikdə nə var, nə yox?

Aqil maşını sürdü Sahil bağının arxasına. Yarızirzəmi bir restoranın qabağında saxladı. Maşından düşdülər. Şakirin ağlı restorandan bir şey kəsmədi.

- Qaqa, Rəmiş kimi bahalı oğlan bu padvalda çörəy yeyir?

- Sən çölünə baxma, içi ayrı cürdü.

Şakir bağa baxdı, dedi:

- Burda iyirmialtıların heykəli yoxuydu?

- Var idi.

- Bə nejoldu?

- Göndərdilər iyirmialtıların dalınca.

Yendilər restorana. Doğrudan da restoran çox səliqəli, bərli-bəzəkli idi. Hələ musiqiçilər də vardı, ağzınacan doluydu.

Aqil bir stolu göstərib dedi:

- Bəxtin gətirib, budey Rəmiş curlarıyla yemək yeyir.

Yaxınlaşdılar Rəmişgilə. Rəmiş Şakiri görən kimi yerindən qalxdı, sarıldı boynuna:

- Can mamoğlu.

Hər ikisi kövrəldi. Sonra da Rəmiş üzünü tutdu stolda oturanlara:

- Tanış olun, bu mənim bratımdı. Adı Şakirdi, Qarabağda beş kişidən biridi. Özü də elə qarmon çalır ki, Aftandil onun yanında yalandı.

Sonra Aqillə də görüşdü, onu da təmtəraqla dostlarına təqdim elədi. Şakiri oturtdu öz yerində, ofisiantı da çağırdı ki, iki dənə də stul gətir. Ofisiant tez-tələsik iki stul gətirdi, təzə boşqab, çəngəl-bıçaq gətirdi.

Rəmiş:

- Ə, denən ordan yenə kabab qoysunlar, araq da gətir.

Rəmiş çöndü Şakirə tərəf:

- De görüm nətərsən ey, arvad-uşaq nətərdi?

Şakir incik halda:

- Belə dayoğlusan da, neçə ildi itirif-axtarmırsan ki, Şakir, ölmüsən-qalmısan, ajsan-sussuzsan?

- Rəhmətliyin oğlu, neçə ildi heç mən özümü axtarıb-tapa bilmirəm. Danlama, day tapışdıq da. Sənincün nə lazımdı, qulluğundayam. Səni toylara da apararam.

- Toynan qutarmışam. Kəndimizə qayıdanacan toya gedən deyiləm.

- Mən ölüm, deyim qarmonu versinlər, bir çal. Dostlarım görsün ki, papaq altda nə oğlanlar var?

Rəmişin dostları da üz vurdu, amma Şakir çalmaq istəmədi. Süfrədəki araq stəkanını götürüb çəkdi başına. Təzə gələn kababdan da bir dişlək aldı:

- Ə, bu nə qəşəh arağdı, ə?!

- Moskva arağıdı də. O qədər Ağdamda giydirmə araq içmisən, ona görə sənə bal kimi gəlir.

Rəmiş sonra üzünü tutdu Aqilə tərəf:

- Sən niyə içmirsən?

- Mən maşın sürürəm.

- Qaidən qorxursan? Saxlasalar deyərsən Rəmişlə içmişəm, götür arağını iç.

Aqil də Rəmişin sözünü yerə salmadı, götürüb arağı çəkdi başına.

Şakir:

- Rəmiş, bilirsən səni niyə axtarıram? Löhbatanda bizim kəndin musiqi məktəbini açıflar, direktor deyir gəl uşaxlara qarmon çalmaq öyrət. Nə məktəfdə qarmon var, nə də mənim. Elə maa bir qarmon al bağışda, Hüseyn dayının goruna dua edim.

Rəmiş:

- Ə, qarmon nədi, sənə istəyirsən maşın bağışlayım.

- Sağ ol, bir dranqulet moskviçim var; - Stol arxasında oturanlara baxıb forsla əlavə elədi: - Ermənilərdən trafey götürmüşəm.

- Ə, birdən Surenin moskviçi olar?

Şakir güldü:

- Hə, təpəsinə bir-iki qapaz vurub əlindən aldım.

Rəmiş:

-Surendən başqa ayrı avam erməni var ki, maşınını əlindən alasan? Götür arağını iç.

Şakir bir az da vurandan sonra kefi açıldı. Başladı Rəmişlə, yanında oturanlarla da məzələnməyə, dedi:

- Rəmişin meymunu yadınızdadı? Qızıl diş də saldırmışdı? Ağdamda meymun çiynində, Fazil məllimin kinosunun qarşısında maşından düşür, bir uşaq da görür gəlir evə, papasına deyir ki, papa, Rəmişi gördüm çiynində də meymun. Papası da qayıdır ki, ə, köpəyoğlu, day denən iki meymun görmüsən də.

Hamını gülmək tutdu.

Şakir:

- Rəmiş, mən ölüm, o meymun nejoldu?

- Ə, indiyə meymun qalar? Öldü, aparıb təmtəraqla da basdırdıq.

- Gərək bir başdaşı da qoydureydin.

- Sən öl, qoydurmuşam. Ha vaxt istəyirsən aparım ziyarət elə.

- Rəmiş, mən ölüm, Allah ağıl paylayanda sən hardeydin?

- Ə, nə bilim, nəşəli vaxtıma düşüb.

Yeyib-içdilər, qalxdılar ayağa. Rəmiş cibindən bir topa pul çıxarıb atdı stolun üstünə, ofisianta dedi götür. Bir çəngə pul da ofisianta verdi ki, ver musiqiçilərə. Restorandan çıxdılar.

Aqil üzünü Şakirə tutub dedi:

- Bu da sənə Rəmiş. İndi icazə verirsənmi gedim?

- Xoş getdin. Yaxşı oğlansan, amma Rəmişlə az otur-dur. Bir də görəssən ki, olmusan bunun tayı.

Aqil hamıyla öpüşüb-görüşüb oturdu maşınına, getdi. Rəmiş də Şakiri və dostlarını öz maşınına oturtdu və sürdü Daxili İşlər Nazirliyinin arxasındakı musiqi alətləri mağazasına. Maşından düşüb girdilər mağazaya.

Satıcı Rəmişi görən kimi yüyürdü qabağına, qucaqlayıb öpdü, sonra da dedi:

- Həmişə, sən gələsən. Əla ispanski, yuqoslavski gitaralar gətirmişəm.

- Gitara almağa gəlməmişəm. Bu dostuma yaxşı bir qarmon seç.

Şakir özü keçdi qarmonlar olan tərəfə, baxdı, baxdı, birini götürdü. Qulağını qarmona dirəyib bir barmaq vurdu, qaytardı qoydu yerinə. Başqa birini götürdü, ona da bir barmaq vurub səsinə qulaq asdı, onu da qaytarıb qoydu yerinə, üçüncüsünü götürdü.

Satıcı:

- Rəmiş, indi bu bütün qarmonları barmaqlayacaq?

Şakir:

- Ə, barmaxlamıram, səsini yoxluyuram.

Nəhayət, qarmonların birinin səsi xoşuna gəldi, bəyəndi. Dedi, bunu götürürəm.

Rəmiş üzünü tutdu satıcıya:

- Neçəyədi?

- Min dollar.

Şakirin gözü çıxdı kəlləsinə:

- Ə, qaqa, mənim özümü bazara çıxarsan heş yüz dollar eləməz. Min dollara qarmon olar?

Rəmiş:

- Ə, sən qarmonunu götür, - üzünü çevirdi satıcıya;- futlyarını ver, - sonra yenə Şakirə dedi: - Bu, sən dediyin qarmonlardan deyil. Hələ bizə ucuz verdi, götür, halal xoşun olsun.

Satıcı:

- Rəmiş, bəlkə bir dənə də gitara sənə verim? Gitara deyil ey, möcüzədi, elə əlini vurursan özü çalır. Elə də baha deyil, dörd min dollar.

- Sağ ol, o gitaranı çala bilməyənlərə satarsan. Şakir, sən də qarmonunu götür min maşına.

Dostlarına dedi ki, siz bir taksiylə gedin, mən onu aparım qaldığı yerə, görüm harda qalır.

Oturdular maşına.

- Hara sürüm, mamoğlu?

- Löhbatana.

- Orda yaşayırsan?

- Hə, qaşqınlar yataxxanasında.

- Mənim Lökbatanda üçotaqlı evim var, istəyirsən açarları verim sənə, get yığış ora. Onsuz da mən orda qalmıram, Moskvada oluram. Hərdən gəlirəm, bir general dostum bağışlayıb.

- Sağ ol, Rəmiş, bu qarmon dədəmə də bəsdi.

Gəldilər Lökbatana, qaçqınlar yataqxanasına.

Rəmiş maşını saxladı yataqxananın həyətində, Market Vəlişin kafesinin qabağında. Bir çiyni üstə maşınından düşdü. Onu görənlər heyrətləndilər və təəccüblə bir-birinə dedilər:

- Ayə, Rəmiş...

- Sən öl, Rəmişdi...

Rəmişin gəldiyini eşidib yataqxanada nə qədər adam vardı, arvadlı-uşaqlı töküldülər həyətə. Bir basabas düşdü ki, Şakir dedi:

- Ə, meymun oynadıram, nooluf?

Amma camaat əl çəkmədi. Hamı Rəmişlə görüşüb-öpüşmək istəyirdi. Market Vəliş kafedən stullar çıxartdı, çay gətirdi. Rəmiş oturdu. Şakirə dedi:

- Sən niyə xiyar kimi dik qalmısan? Otur dana, qarmonunu da futlyardan çıxart, bir çal qulaq asım, gedim. Camaat da qulaq assın. Neçə ildir sənin barmaqlarını eşitmirəm.

Şakir bu dəfə Rəmişin sözünü yerə salmadı. Qarmonu futlyardan çıxartdı, qoydu dizlərinin üstünə, başladı "Segah"da gəzişməyə. Qarmon səsini eşidən yoldan keçənlər də, ətrafda yaşayanlar da axışıb gəldilər yataqxananın həyətinə.

Şakir çalırdı, amma "Segah" çalmırdı, gözlərini də yummuşdu. "Segah" çalmırdı, yanan evini çalırdı, güllədən partlaya-partlaya ölən Qurdbasarını çalırdı, deşik-deşik olmuş maşınını çalırdı, od tutmuş kəndini çalırdı. Və gözlərindən də yaş axırdı. Elə başına toplaşan adamların da gözlərindən yaş gəlirdi. Onlar da yanan evlərini görürdülər, yanan məktəblərini görürdülər, erməni gülləsindən qaçan camaatın vay-şivən səsini eşidirdilər.

Şakir çaldı, çaldı, day barmaqları işləmədi. Qəhər qoymadı barmaqları işləsin. Qarmonu qoydu stolun üstünə.

Rəmiş:

- Ə, mamoğlu, bu camaatı niyə öldürürsən?

- Ə, belə yaşamaxdansa elə ölməh yaxşıdı.

Rəmiş camaatla sağollaşdı, yalandan söz verdi ki, yenə gələcəm.

Oturdu maşına və getdi.

Camaat Şakirdən əl çəkmədi:

- Sən dədeyin goru, yenə çal.

Bu vaxt yoldan polis maşını ötürdü. Polislər xeyli camaatın bir yerə toplaşdığını görüb maşını saxlayıb düşdülər və yaxınlaşdılar topaya. Adamları yara-yara gəldilər düz Şakirin qarşısına:

- Nədi, ə, mitinqdi?!

Şakir:

- Yox, nümayişdi.

(Ardı olacaq. Özü də Rasim Müzəffərlinin xətrinə)

Eminquey

Hələ Mirzə Cəlil olmamışıq, Danabaşıq ki Danabaş!

Bir oğlan şortiklə hansısa kənddə daş-qalaq olunmuşdu. Yadınızdadır?

Hə, bax oğlana görə 3 gün şortikdə ilişib qalmışdıq.

Əyalətlərin birində idi.

Şortik dünyəvi geyim olsa da, Qafqazda şəhərlidir. Bir sözlə şəhərli şortik kənddə qəbul olunmur. Kimsə İsmayıllının Basqal kəndinə şortiklə girə bilməz. Geyinə bilərsən, həddi-buluğa çatana kimi. Əhalinin mental qanunları budur.

Eynilə də şəhərdə!

Kənddə gördün ki, özünü tuta bilmirsən, ağacın, kolun dibinə verərsən, şəhərdə bunu etmək olmaz! Amma hələ də şəhərdə binaların liftinə, blokuna işəyən mərifətsiz adamlar var. Bilmirik haralıdır?!

Yaxud da Salyandan Bakıya təzəcə düşmüş bir "qaqaş" Bakının hansısa yerində "buranın vəziyyəti bizlikdi" deyib qışqıra bilər, amma Bakıdan bir nəfər gedib Salyanda, bu qaqaşın kəndində bunu etsə şalvarını boğazına qalstuk edərlər.

N qədər müqayisələr aparmaq olar, üç gün, beş gün.

Bütün bu söhbətlər şəhərin yüklənməsilə bağlıdır. Bakının dərdi var, Bakı yüklənib. Allahaqqı yüklənib. Yükləmişik. Yüklətdiriblər!

Hər nə isə.

Hərdən düşünürəm ki, atamgil kənddə böyüyüb, anamgil kənddə böyüyüb, şəhərdə təhsil alıblar, şəhərə köç ediblər. Mən şəhərdə doğulmuşam.

Bakının elə bir yerində yaşayıram ki, sağım mikrorayon, solum Papalin, yuxarım Binəqədi, aşağım Vorovski. Narkomaniya, avaraçılıq və s. Bəs necə oldu ki, 29 yaşı başa vurmaqdayam, narkoman olmadım, avara olmadım, atam qumar borcumu ödəmədi, narkomaniyadan anamın gözünün önündəcə ərimədim?!

Necə oldu bu?

Axı gözümün qarşısın da nə qədər belə adam var?

Narkomaniya da yerindədir, avaraçılıq da.

Hər gün küçələrdə ruh kimi gəzən hallılar da görürəm, beyinsiz bədənlər də.

Bu bataqlığın içində necə oldu ki sağ qalmışam?

Bax deyirsiniz ha, Mirzə Cəlil də kənddə doğulub, böyüyüb, yaşayıb. Məsələ də budur. Mirzə Cəlil Londonun hansısa küçəsindən yazırsı? Öz yaşadığı kənddən yazırdı da. Mirzə Cəlilin o kənddə doğulmağı nəyi dəyişirdi? Heç nəyi! Kənd yenə Danabaş idi də.

Yəni...

Xülasə, məsələ məkan deyil. Üç dənə Alov qülləsinə, Kristal Halla kapital qoymaqdansa, insana kapital qoymaq lazımdır,

Məsələ mahiyyətdədir.

Mahiyyətimiz nədir?

Çox təəssüf ki şəhərli-kəndli qarışıq hələ Mirzə Cəlil olmamışıq, Danabaşıq ki Danabaş!

Ha Bəhram olsun, ha Tahir.

Meqapolis dediyimiz bir şəhərdə, Bakıda hələ də qul bazarı varsa, hələ də gecəqondular və o qəsəbələrdə kanalizasiyanın içi çölüylə birdisə, demək ki heç bu şəhər də hələ şəhər deyil...

Acı da olsa adı Nəşriyyatdır!

Nəşriyyatda etiraz aksiyası başlayıb. Yaşlı bir kişini çıxardılar, səbəb bu binanın resurslarından ayrı cür istifadə edirdi deyə. Məsələn, mebel sexi, xalçayuma, maşın təmiri kimi işlər görülürdü bu binanın həyətində.

TV-lər gəldilər, xəlvəti çəkiliş apardılar, sonra Nəşriyyatın qabırğasına döşədilər. Nəşriyyat olmuşdu həftəbecər. Yerinə cavan bir qızı gətirdilər ki, yeni kadrdı, guyammış düzəldəcək. Bu rəhbər gəldiyi ilk gündən artıq otaqların ölçüsü hesablanmağa başladı. Dedik, yəqin təmirə bağlanacaq. Nə təmir? Tualetlər bərbad gündə, istilik yox dərəcəsində, Allahın sabununu tapmaq olmur bu binanın tualetlərində. Sonuncu dəfə güclü yağışdan sonra binanı su basdı, otaqlar bərbad günə düşdü, Sovetdən qalan parketlər qabardı, şişdi. İndi də otaqların kirayə pulunu qaldırıblar.

Burada fəaliyyət göstərən jurnalistlər etiraza çıxıb binanın önünə. Ölkədə bir binada, özü də kifayət qədər əhəmiyyətli bir binada vəziyyət budur. Acı da olsa adı Nəşriyyatdır!

Eminquey

Arayik "dəyiş-düyüş" etməkdən yorulmur: Yeni "sərəncam"

Arayik Prezident-prezident oynamaqdan həzz aldığını hər addımbaşı bildirir

Adalet.az xəbər verir ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda separatçılar tərəfindən yaradılmış qondarma qurumun baş separatçısı, "prezident" Arayik Arutyunyan yanvarın 16-da yenə "fərmanlar" imzalayıb.

"Sərəncamlar"a əsasən, general-mayor Aşot Akobcanyan "Artsax milli təhlükəsizlik xidmətinin" "direktor"u vəzifəsindən azad edilib və general-mayor Ararat Melkumyan Artsax Təhlükəsizlik Şurasının katibi vəzifəsindən azad edilərək Artsax Milli Təhlükəsizlik Xidmətinin direktoru təyin edilib. Samvel Şahramanyan Təhlükəsizlik Şurası katibinin müavini vəzifəsindən azad edilərək Artsax Təhlükəsizlik Şurasının katibi təyin edilib.

P.S. ***Bu qondarmaların meydanını ancaq qanuni dövlət olan Azərbaycan daraldacaq . Necə deyərlər, çaqqalların hökmüranlığı bozqurdlar meydana yığılanacandır!***

Əntiqə Rəşid

NƏ MUTLU TÜRKƏM DEYƏNƏ!

"Rusya'da bir söz vardır: Hangi Rus'u kazısanız, altından mutlaka Tatar çıkar".

Rus Devrimci Vladimir Lenin - 1920

***

"Araplarda bir söz vardır: Mısırlılar Allah'tan başka kimseden korkmaz, Türkler ondan da korkmaz".

Arap Düşünür Semame İbn-i Eşreş

***

"Dünyada iki bilinmeyen vardır: Biri kutuplar diğeri Türkler".

Fransız Tarihçi Albert Sorel - 1839

***

"İnsanlari yücelten iki büyük meziyet vardır: Erkeğin cesur, kadının namuslu olması. Bu iki meziyetin yanında hem erkeği, hem kadını şereflendiren bir daha meziyet vardır. İcabında tereddütsüz canını feda edebilecek kadar vatanına bağlı olmak. İşte Türkler bu meziyetlere ve fazilete sahip kahramanlardır. Bundan dolayıdır ki; Türkler öldürülebilir, lakin mağlup edilemezler"

Fransa İmparatoru Napoleon Bonaparte - 1801

***

"Eğer bir Türk devleti olmasaydı mutlaka yaratmak gerekirdi".

Fransa İlk Cumhurbaşkanı Adolph Tiers - 1850

***

"Dağ başındaki haydutlar olarak isimlendirdiğiniz Mustafa Kemal ve ordusundaki Türkler burada olsalardı teker teker hepsinin heykellerini dikerdik".

Fransa Başbakanı Aristide Briande - 1940

***

"Türkün yüzünü, kuvvetli endamını, pırıltılı kostümünü, zarif tavırlarını, kibar gülüşünü, aslanca kükreyişini fırçayla göstermek mümkündür. Fakat pek güç olan, Türkün özünü göstermektir. Bu öz, ayışığı gibi görülür fakat gösterilemez".

Fransız Ressam Alexandre G. Decamps - 1830

***

"Türkçeyi öğrenmek benim için büyük bir mutluluk oldu. Çünkü Türk'ü anlamak için kendisiyle mutlaka tercümansız konuşmalıdır. Tercüman, ışığı örten zevksiz bir perde gibidir".

Fransız Bilgini Antonie Gelland - 1704

***

"Irk ve millet olarak Türkler; geniş coğrafyalar ve imparatorluklar içinde yaşayan kavimlerin en asili ve başta gelenidir. Sosyal ve örfi fazileteri tarafsız kimseler için birer takdir ve hayranlık kaynağıdır".

Fransız Yazar Devlet Adamı Lamartine

***

"Bugün Türklerin esiriyim. Demirin, ateşin ve suyun yapamadığını onlar bana yaptılar, esir ettiler. Yalnız ayağımda zincir yok, zindanda da değilim; istediğimi yapıyorum. Fakat bu defa da şefkatin, asaletin, nezaketin esiriyim. Türkler beni işte bu elmas bağa sardılar. Bu kadar alicenap, asil ve bu kadar nazik bir milletin arasında hür bir esir olarak yaşamak ne kadar değerli bir bilseniz".

İsveç Kralı Demirbaş Şarl

***

"Türklerin yalnız sonsuz bir cesareti değil, iradeleri sersemleştiren bir sihirbaz zekası vardır. İşte Türk, bu zekasıyla zafer kazanır, uygarlıklar yaratır ve insanlık dünyasında en şerefli hizmeti başarır. Zaten Avrupanın yarısını yüzyıllarca boyunduruk altına almak başka türlü mümkün olamazdı".

Rus Komutan İvan Çarnayev - 1922

***

"Rusya tarihinde Türklerin olmadığı herhangi bir dönemden söz etmek mümkün değildir, hangi Rus'u kazısanız altından mutlaka Tatar çıkar deyimi, milli kimlikten ziyade tarihi ve kültürel bir gerçekliği ifade ediyor".

Rusya Devlet Başkanı Vladimir Putin - 2010

***

"Kılıcı insafsız bir beceriyle kullanan Türkün eli, yendiği insanların yarasını sarmakta da ustadır".

İskoç Şair Lord Bayron - 1801

***

"Türkler, devlet yıkmakta ve devlet kurmakta birinci sınıf üstadlardır".

Avusturyalı Tarihçi Diplomat Joseph von Hammer Purgstall

***

"Türk kadınlarının en büyük süsü Türk oluşlarıdır. Onlar süslenmek için elmas veya zümrüt takınmıyorlar, belki üzerlerinde taşıdıkları o taşları süslemiş, kıymetlendirmiş oluyorlar. Çünkü her Türk kadını canlı bir inci ve paha biçilmez bir pırlantadır".

İngiliz Yazar Lady Mary W. Montagu

"Türk'ün ahlaki seciyesi çocukluğunda aldığı iyilik telkinleriyle yada farazi ahiret tehdidiyle değil, çevrelerinde fenalık görmemek sureti temelinde oluşur".

Danimarka'lı Filozof Thomas Thorsten

***

"Türkler kahramadırlar, dostlarına zarar vermezler. Bu yüce millet tuttuğu eli bırakmaz, sözünden dönmez, iyi ve kötü günlerde dostundan ayrılmaz. Böyle bir ulusla el ele vermek yeryüzünde her zorluğu yenmek için sonsuz bir güç ve yetenek kazanmak demektir".

Çek Bilgini Jon Amos Comenuis - 1630

***

"Türkün şevkat ve insaniyet duygusunu inkar mümkün değildir. Bu duygu insanı atalete sevkedip teşkilatı düzensiz bir toplumun bir derdine tek çare demektir. Türk ırkının soyluluğunu gösteren diğer duygular, yani en küçük iyiliklere karşı besledikleri minnet ve şükran duygusu, ölmüşlere karşı besledikleri minnet ve şükran duygusu, büyük bir nezaketle yapılan konukseverlik adeti, hayvanlara saygı alışkanlığı gibi faziletlerin inkarı da mümkün değildir".

İtalyan Edebiyatçı Edmondo De Amics - 1900

***

"Düşmanına saldırırken amansız bir kasırgaya, korkunç bir denize ve insafsız bir yıldırıma benzeyen Türk; dost yanında ve silahsız düşman karşısında bir seher yelidir, berrak bir göldür. Gönül açan bu seher yelini yıldırmak, gözleri kamaştıran bu gölü coşkun bir denize çevirmek tabiatı da inciten bir gaflet olur".

İtalyan Şair Yazar ve Edebiyatçı Tasso

***

"Türk gibi ölüme gülerek bakan bir eri başka hiçbir ulusta bulamazsınız. Yalnız ona iyi bir komutan gereklidir".

Alman Binbaşı Mullman - Çanakkale

***

"Her Türk'ün bakışında silahın ruha verdiği güveni görmek mümkündür. Onlar; hayata ve olaylara güvenle bakmayı öğrenmişler. Kaçınılmaz olan şu ki, Türklerin ruhu yeniden parlayacak ve silah kullanmak için doğan bu kahraman milletin tarihi eski ışığını bulacaktır. Şimdiden görebildiğim bu gerçeği, tarihe bir not olarak düşüyorum".

Alman Feldmareşal Von Moltke

***

"Türk, Heredot'tan ve Tevrat'tan çok daha eski yüzyılların tanıdığı bir ulustur. Sadelik içinde görkemi, sükunet içinde ihtişamı, tahakküm kabul etmeyen bir yüreklilik, alabildiğine geniş bir fetih aşkı, bölgelere ve inançlara uymaktan daha çok, bölgeleri ve inançları kendine uydurma zevki ve alışkanlığı Türk milletinin asırlar dolduran tarihinde açıkça görülür. Ülkeleri değil kıtaları altüst etmişler ve korkunç saldırılar karşısında sarsılması hiç de kolay olmayan egemenliklerini yaratmışlardır. Kısacası tarih, Türklerden çok şey öğrenmiştir".

Alman Tarihçi Hammer

***

"Türk dilini incelerken insan zekasının dilde başardığı büyük mucizeyi görürüz. Türkçe bir dilbilgisi kitabını okumak, bu dili öğrenmek niyetinde olmayanlar için bile gerçek bir zevktir. Türlü dilbilgisel biçimlerin belirtilmesindeki ustalık, ad ve eylem çekimi sistemindeki düzenlilik, bütün dil yapısındaki saydamlık ve de kolayca anlaşılabilme yeteneği, insan zekasının dil aracıyla beliren üstün gücünü kavrayabilenlerde hayranlık uyandırır. Türk dilindeki duygu ve düşüncenin en ince ayrımlarını belirtebilme, ses ve biçim öğelerini baştan sona dek düzenli bir sisteme göre birbiriyle bağdaştırıp dizileme gücü bize, insan zekasının dilde yarattığı mucizeyi gösterir. Birçok dillerde bu gibi olaylar gözden perdelenmiştir; onlar çözülmez kayalar gibi karşımızda durur ve ancak dilcinin mikroskopuyla dil yapısındaki organik öğeler ortaya çıkarılır. Türk dilinde ise, her şey saydamdır, apaçıktır. Dilin iç ve dış yapısı, berrak kristal bir arı kovanı yapısını seyrediyormuşuz gibi ortadadır".

Ünlü Alman Filolog Friedrich Max Müller

***

"Onlar farkında değillerse de Avrupalılar bir gerçeğin farkındadır. Tarihten Türkler çıkarılırsa ortada tarih adına pek bir şey kalmayacaktır".

Alman İktisatçı Fritz Neumark

"Silahlı milletin en canlı örneği Türklerdir. Türk köylüsünün orak, katibinin kalem ve kadınlarının etek tutuşunda d?hi silaha sarılmış bir pençe kıvraklığı vardır. Türk ata biner gibi oturur, keşfe yollanan asker gibi uyanık yürür".

Alman Genelkurmay Başkanı Helmuth Karl Bernhard - 1911

***

"Onlara 'Türk' adını Tanrı'nın kendisi verdi. Tanrı dünya milletlerinin idare dizginlerini onlara verdi ve zamanımızın hükümdarlarını hep onlardan seçti. Türklerin oklarından korunmak isteyenler onlara düşman değil dost olsun. Onlarla dost olmanın en iyi yolu onların diliyle konuşmaktır. Türkler onların diline sığınıp Türkçe konuşanları kendilerinden sayarlar".

Kaşgarlı Mahmud - Divan-ı Lügati-t Türk

***

"Dünya milletleri arasında kahramanlık ve cesaret bakımından Türklerden üstün; büyük hedeflere ulaşmak bakımından da onlardan dirayetli hiçbir kavim yoktur. Cenab-ı H?k onları aslan sıfatında yaratmıştır".

Mısırlı Tarihçi İbn-i Hassul Buveyn

***

"Türklerin yürekleri temiz, töreleri çeliktendir. Bizde olduğu gibi batıl fikirleri, saplantılı fikir ve düşünceleri yoktur, bu nedenle onları kolayca korkutamazsınız. Türkler korkmaz, korkutur!"

Arap Düşünür Semame İbn-i Eşreş

***

"Türklere gelince; Dünya krallarından hiçbiri ne Hüsrev ne Sezar ne İskender ne Nebukadnezar onlarla karşılaştırılamaz. Hüsrev'e gelince, o Perslerin lideri ve krallarıydı, ancak Persler Türklerden tamamen eksiktir. Sezar ve İskender'e gelince, onlar Yunanlıların ve Romalıların krallarıydı, ancak yine Yunanlılar ve Romalılar büyüklük açısından Türklerle karşılaştırılamaz".

Ünlü Tarihçi ve Filozof İbn-i Haldun - 1394

***

"Türkler atını kendisi yetiştirir, atının adını söylerse atı onu takip eder, koşarsa atı da arkasından koşar. Atlarına adeta vücutlarının bir uzvu gibi hükmederler, hızla koşan atların üstünde geriye dönerek isabetli ok atarlar. Türk'ün ömrünün günlerini toplasan atı üzerinde geçen günlerinin daha çok olduğunu görürsün. Altındaki hayvanı dinlendirmek isterse inmeden diğerine biner. Türk hem çoban, hem siyasi, hem cambaz, hem baytar hem de süvaridir. Hülasa, bir Türk başlı başına bir millettir".

Arap alimi El Cahiz - 740

***

"Ey müminler, hadiste açık bir şekilde "Türkler size dokunmadıkça siz de onlara dokunmayın" denilmiştir. Haddi zatında bu hadis, Hazreti Peygamberin tüm Araplara bir nevi vasiyet ve uyarısı mahiyetindedir. Aklı selim için yol, bizim Türklerle mütareke içinde dostça yaşamamızdr. Bir millet ki Zülkarneyn (Büyük İskender) bile bütün yeryüzüne bir kasırga gibi harb ve kılıçla h?kim olduktan sonra, onlarla harbetmekten çekinmiş ve; 'Onları bırakın, onlara Türk'tür! demiş ve onlara hiçbir surette dokunamamıştır. Şimdi siz, böyle bir milleti ne zannediyorsunuz? Onlarla başa çıkmak pek kolay olmasa gerektir".

Halife Ömer devri katiplerinden - Ebu Osman Amr bin Bahr el-Kinani - 753

(ardı var)

Derleyen-Yazan
ALİ OKAN SARICA
DENİZLİ - Kırk Tatarlar - 2015
Turcology -Turkic Historia Studies
Dictionary of Turkic-Mongolic Language

Mətbuat Şurası bəyanat yaydı

Azərbaycanlı fəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın-Xankəndi yolunda keçirdikləri aksiyanın dünyanın bir sıra media vasitələrində təqdimatı cəmiyyətimizin müxtəlif təbəqələri kimi, ölkəmizin jurnalist ictimaiyyətinin nümayəndələrini də ciddi şəkildə narahat etməkdədir.

Adalet.az xəbər verir ki, bununla bağlı Azərbaycan Mətbuat Şurası bəyanat yayıb.

Bəyanatda qeyd olunur ki, bu təqdimatlar söz və ifadə azadlığının imkanlarından sui-istifadədir, qərəz və qeyri-obyektivlikdir.

"Qarabağ Azərbaycanın suveren, beynəlxalq səviyyədə tanınmış ərazisidir. Bölgədə yaşayan ermənilər də hüquqi baxımdan ölkəmizin vətəndaşlarıdırlar. Lakin erməni lobbi və diaspor təşkilatlarının, habelə, Qarabağdakı qondarma rejimin"dövlət naziri" kimi oyuncaq postu tutan Ruben Vardanyanın çirkli maliyyəsi hesabına məqsədli formada hərəkətə gətirilmiş dünyanın bəzi media orqanları elə görüntü yaradırlar ki, sanki, azərbaycanlı fəalların Laçın-Xankəndi yolunda keçirdikləri aksiya Qarabağ ermənilərinin yaşam hüququna təhdiddir. Bu fonda humanitar fəlakət, Azərbaycanın erməni əhaliyə qarşı soyqırımı, etnik təmizləmə, 120 min erməninin blokadada qalması, onlardan 30 mininin uşaq olması, Xankəndi xəstəxanalarında ağır xəstələrin mövcudluğu kimi yalan şablonlar dövriyyəyə buraxılır. Belə təqdimatlar reallığı qətiyyən əks etdirmir. Çünki azərbaycanlı fəalların etirazının konkret məqsədi var. Aksiya heç bir halda Qarabağı blokadada saxlamaq məramına xidmət etmir, bölgəyə humanitar yüklərin daşınmasında hər hansı problem, maneə yoxdur".

Bəyanatda xatırladılır ki, Laçın-Xankəndi yolundakı aksiya artıq bir aydan çoxdur ki davam edir: "Qeyd edilmiş media vasitələri ermənipərəst siyasətin əsirinə çevrilməyib duruma bir qədər həssas yanaşsaydılar, vardanyanların və digərlərinin şablonlarının mahiyyətinə diqqət yetirər, müəyyənləşdirərdilər ki, bölgədə humanitar fəlakət kimi qiymətləndiriləcək durum tam istisnadır. Təəssüf ki, biz belə həssas yanaşmanı deyil, qeyri-peşəkarlığı görürük. Bu yol isə aksiya ilə bağlı əsl gerçəklikdən diqqəti yayındırmaqdır, aşkar manipulyasiyadır.

O da təəssüf doğurur ki, bilərəkdən, yaxud bilməyərəkdən manipulyasiyaya yol verənlər dünyanın və Avropanın ictimai rəyində çəkiyə malik olduğunu, fikir plüralizmini rərbər tutduğunu, yaradıcılıqlarının bəşəri dəyərlərə xidmət amalına söykəndiyini bəyan edən media vasitələridir. Onların məqalələri, faktiki olaraq, bir-birinin təkrarıdır. Eyni məzmun, eyni qərəzli iddialar, hətta, bəzi hallarda cümlələr belə eynidir. Halbuki, obyektiv media R.Vardanyanın kimliyini araşdırmalı, onun böyük məbləğdə pul maxinasiyaları həyata keçirdiyini, kriminalla yaxın olduğunu bildirməli, belə bir şəxsin qanunsuz və cinayət xarakterli fəaliyyət həyata keçirdiyini diqqətə çatdırmalıydı. Bu, bəşəri dəyərlərə xidmət nümunəsi olardı.

Azərbaycan Mətbuat Şurası dünyanın aparıcı media vasitələrini Laçın-Xankəndi yolundakı aksiyaya obyektiv qiymət verməyə, onunla bağlı əsl həqiqətlərə diqqət yetirməyə, birtərəfli və qeyri-obyektiv təbliğatın aləti olmamağa çağırır. Onlar nəzərə almalıdırlar ki, bu aksiyanın, ümumiyyətlə, Azərbaycan və Ermənistan arasındakı münaqişəli durumun beynəlxalq miqyasda ədalətli təqdimatı, bütövlükdə Cənubi Qafqaz coğrafiyasında sülhün, əminamanlığın, dinc birgəyaşamın formalaşması baxımından son dərəcədə vacibdir", - deyə Mətbuat Şurasının bəyanatında bildirilir.

Aygün ATTAR

BƏSDİ ÖZGƏ ATINA MİNDİYİNİZ!

İşlərim çox olduğu üçün "facebook"da paylaşılan yazıları oxumağa vaxtım olmur. "Twitter"i daha aktiv istifadə edirəm. FB-da qarşıma çıxan (xüsusilə Türkiyə ilə bağlı) xəbərləri oxuduqca isə heyrət edirəm.

Azərbaycandan gəlib Türkiyədən gedən müxtəlif peşə sahiblərinin görüş xəbərlərini elə şişirdilmiş başlıq, elə şişirdilmiş taktika ilə təqdim edirlər ki, sosial şəbəkələrdə, insan üsyan edir.

Tanış olmaq, danışmaq, ünsiyyət qurmaq çox xoşdur, bu günlərə görə təşəkkür edirəm. Amma adi işlərə dövlət önəmi vermək nə deməkdir, Allah eşqinə?!

35 ildir ki buradayam.

Ömrüm akademik mühitdə siyasətin və bürokratiyanın mərkəzində keçsə də, Türkiyədə ömrüm boyu adını eşitmədiyim sonuncu dərəcəli qurum və heç kimin tanımadığı insanlar elə yaltaqlıqla təqdim olunur ki, Azərbaycanda, açığı əvvəlcə belə şişirdilmiş sifətlərə malik "şəxsiyyət" və qurumları tanımadığım üçün öz cəhalətimdən utanıram.

Biraz araşdıran kimi "məşhur filankəsin, tanınmış bəhmənkəsin" və Türkiyədə ciddiyə alınmayan, adının qarşısına "dünya" yazılan kimi dünyada tanınıb qəbul edildiyini zənn edən nə qədər ciddiyə alınmayan həvəskarlar varsa, onların mövzu obyekti olduğunu görürəm.

Xoş Azərbaycandan gələn və özünü eyni ünvanlarla burada təqdim edənlər də heç buradakılardan geri qalmırlar.

Kədərlənirəm.

Kaş ki həqiqətən də sözü keçərli, gördüyü işlər səs-küy salan, yurd içində və yurddan kənarda çoxlu nüfuzlu təşkilatlar, şəxslər olsa da, başda Türkiyə və Azərbaycan olmaqla Türk Dünyası olaraq hamımıza xeyir-dua verə bilsəydim. Amma hanı? Korlar və karlar bir-birini qarşılayır.

Dostlar, özlərinə hardansa, hansı qurumdansa cici-bacı münasibətlərin hesabına bir fəxri ad düz-qoş edən adamlarla və yüzüncü dərəcəli "qələm sahibləri"ni böyük yazıçı adı ilə satışa çıxarmaqla olmur bu işlər.

Bu, Azərbaycanın əsl ziyalılarına, ömrünü Azərbaycanın müstəqilliyinə həsr etmiş türk milli idealına xidmət edənlərə qarşı haqsızlıqdır!

Sosial mediada iki sətir yazıb-pozan böyük yazıçı, böyük şairdirsə, Sabir Rüstəmxanlı, Rüstəm Behrudi, Anar, Elçin kimdir bəs?

Onlar həyatda ikən (Allah sağlam, uzun ömür versin) özünüzə böyük dedirtməkdən həya etmirsinizsə, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürkün ruhundan ar edin heç olmasa!

O cür təmtəraqlı adlar və aşağı liqada oynayan bir futbolçunu super liqanım favorit bombarderi kimi təqdim etmək və etdirməklə olmur bu işlər.

Gülüncdür.

Şişirtməyin ifratı son dəfə Azərbaycana gedəndə küçələrdə qarşılaşdığı gənc qadınlarımızın (çox təəssüf ki) özlərini qabaqdan Ajda Pekkan, arxadan Kim Kardaşyana bənzədərək yaman günə qoyduqları kimi iyrənc olur.

İnsanın ürəyi bulanır. İnsanın özü olmağı daha çox reklam qazandırır.

İfrat isə hər mənada ikrah hissi oyadır.

Qeyd: Öz olmaq: insanın özü, öz mənəvi varlığı, bir şeyin əsas ünsürü olmaq deməkdir. Özümüz olaq, özgə atına minən tez düşər, unutmayaq!

Eminquey

30 qəpik gediş haqqı ilə kübarlıq

O qədər neqativ, o qədər küntöv, o qədər mədəniyyətsiz adamlarla rastlaşırıq ki, mədəni, kübar insanlar görəndə gözlərimiz bərəlir.

Səhər yarıyuxulu avtobusa minhamində bir dolu, yox, dopdolu qadın əlindəki torbanı mənə uzatdı:

- Oğlum, bunu mən qaldıra bilməyəcəm, mənə kömək edə bilərsən?

"O nə sözdür, bibi, gözlərim üstə", - deyib torbanı əlimə aldım.

Dolu, yox, dopdulu bibiyə avtobusa qalxmaqda kömək edəndən sonra özüm də qalxdım. Bibi kartını uzatdı, öz gediş haqqını vurdu, mən kartı uzatmaq istəyəndə əlimi yana itələdi, israrla mənim də əvəzimə gediş haqqımı vurdu. Sonra bir yer tapıb əyləşdi. Torbasını aldı və dəfələrlə təşəkkür etdi.

Elə bil, nəşələndim, ağzım qulağımın dibinə çatdı, bədənim yuxudan oyandı.

Nə mənim etdiyim kömək böyük bir zaddır, nə də 30 qəpik gediş haqqı bir şeydir. Amma əl dəyən, toxunulan nəsnələrin insana əl dəyməyən hissləri yaşatması, özü də bu neqativliyin, küntövlüyün, mədəniyyətsizliyin içində o qədər gözəldir ki.

Mən də corabımla evlənəcəm...

Dadadam!

49 yaşlı bir ingiltərəli qadın nəhayət öz yarını tapıb. İndi deyərsiniz ki, bunda qeyri-adi nə var?

İş də burasındadır ki, bu 49 yaşlı qadının yarı yorğandır. Bəli, mat-məəttəl qaldınız, bilirəm. Yaşı-başı olan bu qadın yorğanla ailə qurub. Hətta utanmayıb, toy da edib, hələ utanmayıblar, 150 nəfər bu toyda iştirak da edib. Hətta bu yorğanın adı da var - Conni!

Qadından bu barədə soruşublar, o da deyib ki, əvvəllər mənim çox yorğanım olub, amma Connidən sonra artıq heç birini istəmirəm. Mən ən xoşbəxt, ən pis anımda Conniyə sarılıram. Mən ona sadiqəm. O qısqanc deyil. Ərə gedəndən sonra özümü çox rahat hiss edirəm.

Mən elə bilirdim ki, qısqanclıq ancaq biz qafqazlı kişilərdə bu qədər qabarıqdır. Sən demə ingilis kişilər də qısqanc imişlər. Bu qadın da qısqanclıqdan bezib, könlünü Conni adlı yorğanına verib.

Bəs yaxşı, bu qadın harasa qonaq gedəndə başqasının yorğanıyla yatsa xəyanət etmiş olmayacaqmı?

Bəs yaxşı, bu Conni adlı yorğanı hər yay söküb yenidən sırıyanda ağlamayacaqmı?

Görəsən, bu qadın ayağını yorğanına görə uzada bilirmi?

Nə bilim, vallah.

Yorğanına şükür, ilahi!

Gördüm evlənə bilmirəm, ilk dəfə öz cırdığım corablarımla evlənəcəm.

Eminquey

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

№ 3 (2327) 20 yanvar 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yurda dönüş insanları çox sevindirir

Deyirlər ki, el-elə sığışar, ev-evə sığışmaz. Bu sözdə çox böyük həqiqət var. Çünki məcburi köçkünlük dövründə öz yurd-yuvasından ayrı düşmüş insanlar Azərbaycanın 60-a yaxın rayonunda məskunlaşmışdılar və bu məskunlaşma zamanı da onlar yerli əhali ilə isti münasibət yaratmış, bir-birinə doğmalaşmışdılar. Əlbəttə, bütün bunlar onu göstərirdi ki, yaman günün ömrü az olar. Füzulilər də 1993-cü ilin avqutun 23-də rayon işğal olunarkən nə az, nə çox 50-ə yaxın rayonda sığınacaq tapmışdılar. Ən çox da Füzuli camaatı İmişlidə, Sabirabadda və Saatlı rayonlarında məskunlaşmışdı.

Elə ki, Azərbaycanın işğal altında olan rayonlar azad edildi və onda da müxtəlif rayonlara səpələnmiş füzulilər yenidən dədə-baba yurdlarına qayıtmalı oldular. Bütün bunlar onu göstərirdi ki, bu xalqın inamını və sabaha olan ümidini heç vaxt qırmaq mümkün deyil. Çünki Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev işğal altında olan torpaqlarımızın azad olunması üçün bütün güclərindən və imkanlarından istifadə edirdilər. 30 il qaçqınlıq həyatı yaşamaq, məcburi köçkün ömrü sürmək elə də asan deyildi. Bu sıxıntılardan yalnız və yalnız doğma yurda qayıdandan sonra xilas olmaq mümkün idi.

Füzuli rayonu ərazisində torpaqlarımız işğaldan azad olunandan sonra 6 qəsəbə salındı və 6 yeni qəsəbənin salınması, yeni infrastrukturun yaranması, sosial obyektlərin, xəstəxanaların, məktəblərin tikintisi elə də asan deyildi. Bu 6 qəsəbənin hər biri qısa zaman kəsiyində tikildi, həmin yerlərə su, qaz, işıq xətti çəkildi. Əlbəttə, bu yeni qəsəbələrin tikintisi çox böyük qüvvə, maddi imkan tələb edirdi. İlk növbədə rayon ərazisində Zobucuq qəsəbəsi yaradıldı və eyni zamanda burda çox böyük möhtəşəm işlər həyata keçirildi. Yəni həmin istiqamətlərdə asfalt yol çəkildi, ən müasir tələblərə cavab verən xəstəxanalar tikildi və hər bir şəraiti olan bir neçə məktəb inşa edildi. Hələ bunlar da hamısı deyildi. Zobucuqda yeni iş yerləri, ticarət mərkəzləri, eləcə də əhalinin məşğulluğu üçün istehsalat sahələri açıldı. Kənd təsərrüfatını inkişaf etdirmək üçün burda ayrı-ayrı sakinlərə kömək göstərildi və onlara nə lazımsa, onu etdilər. Təbii ki, yeni dirçələn və tikilən qəsəbədə birdənbirə hər şeyi həll etmək mümkün deyildi.

Amma qayıdışdan sonra demək olar ki, burda həyat tamamilə dəyişib. İnsanların yaşayışı, dolanışığı, başqa sözlə demiş olsaq, həyat tərzi daha da yaxşılaşıb.

Biz Zobucuqda olarkən bir neçə sakin ilə söhbət elədik. Onlardan biri də Natiq Vəli oğlu Əhmədovdur. O dedi ki, qardaş, biz çox ağır anlar, çətin günlər yaşamışıq. Düzdü, məcburi köçkünlük dövründə bizə İmişli camaatı çox arxa durdu, kömək göstərdi. Bunları ömrümüzün sonuna qədər itirən deyilik. Onlar deyirdilər ki, İkinci Dünya müharibəsində də Füzuli rayonu bizi taxılla, unla təmin edib. Əgər Füzulinin taxılı olmasaydı, o vaxtlar bizim əhalinin çoxu aclıqdan qırılardı. Yəni bu camaat da bizimkilərin yaxşılıqlarını yaddan çıxarmırlar. Amma Vətən, torpaq, doğma ocaq başqa şeydir. Qərib ölkədə xan olana qədər, öz ölkəndə dilənçi olsan yaxşıdı. İndi şükür Allaha, bizim hər cür imkanımız var. Mənim özümün torpaq sahəsi də var, mal-qoyun da saxlayıram, hələ üstəlik, ticarətlə də məşğul oluram. Evimizdəki ailə üzvlərimin hamısı işgüclə məşğuldur. Bəzi adamlar tənbəllik edib işləmək istəmirlər. Ən azından iş olmasa belə, sənə ayrılmış o torpaq sahəsindən qazanc əldə edə bilərsən. O torpağı əkərsən, biçərsən və yaxşı da qazanarsan. Tək mən yox ey, burda fərasətli adamlar çoxdur, onlar da yaxşı yaşayırlar. Söhbətimizə onun qonşusu Cəfər Əliyev də qoşulur. Deyir qardaş, bir vaxtlar Zobucuqda ilanlar mələyirdi. Bura səhrəya bənzəyirdi, tülküdən, çaqqaldan başqa bir şeyə rast gəlmək mümkün deyildi. Amma yurda qayıdışdan sonra bura cənnətə dönüb. Yazda Zobucuğa gəlsəniz, görərsiniz ki, dağların ətəklərində, yamaclarında əkilmiş zəmilərin arasında lalələr adama gəl-gəl deyir, güllərin, çiçəklərin ətrindən doymaq olmur. Biz bura qayıdandan sonra minlərlə çinar ağacı, küknar və digər ağaclar əkilib. Yolboyu fikir vermisiniz, hər tərəf asfaltdır, şüşə kimidir?! Yolun solunda və sağında çinar ağacları əkilib. Hara getsən yolboyu o çinar ağaclarını görəcəksən, onlar on il bundan qabaq əkilib. İndi çox möhtəşəm və əzəmətli görünür. Bura gələn adamlar Zobucuğun əvvəlini görüblərsə, bugünü görəndə çox təəccüblənirlər. Çünki burda çox möhtəşəm abadlıq və quruculuq işləri gedib. Xəstəxanamız var, məktəbimiz var, uşaq bağçamız var, apteklərimiz də var. Mağazaların və dükanların sayı çoxdur. Mənim özüm də təsərrüfatla məşğulam. Balaca bir ticarət köşküm var. Heç kəs bizə dəyib-dolaşmır, fərasətin varsa, yaxşı işləyirsənsə, dolanışığın da olacaq, güzəranın da! Sadəcə olaraq bir qədər zəhmətkeş olmaq lazımdı. Burda tək biz yox ey, əziyyət çəkən, tər tökən və iş görən hər bir insan yaxşı yaşayır. Özümün maşınım da var, bir yerə getmək lazım olanda taksiyə ehtiyac duymuram, əksinə, mən özüm qonşularıma, yaxınlarıma maşın lazım olanda kömək edirəm.



Yazımızın əvvəlində qeyd etdik ki, el-elə sığışar, ev-evə sığışmaz. Bunu Zobucuqda söhbət elədiyimiz onlarla insanlar da dedilər. Dedilər, bilirsiniz nə var, dünyanın harasına gedirsən get, bal, yağ içində yaşa, öz Vətəninin, öz evinin yerini heç bir şey verə bilməz?! Bunu Zobucuqlu bir sakin də təsdiq elədi. Dedi ki, mən məcburi köçkünlük dövründə Bakıda yaşayan qardaşımgildə qalırdım. Bizə çox qayğı göstərirdilər, amma yenə sıxılırdım, utanıb çəkinirdim. Elə ki, öz evimə, öz yurduma qayıtdım, gördüm ki, öz Vətənimin, öz evimin yerini heç nə verə bilməz. Biz xoşbəxt adamıq ki, uzun ayrılıqdan sonra yurdumuza, Vətənimizə döndük, öz ocağımızı, öz evimizi tikdik. Bu şəraiti bizə Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev yaradıb. Allah Ulu Öndərə rəhmət eləsin, ruhunu şad eləsin! Prezident İlham Əliyevə də can sağlığı versin! Onlar ki, bizim işğaldan azad olunmuş 9 rayonumuzu geri qaytardı, bütün qaçqınları sevindirdi, biz Prezident İlham Əliyevdən böyük şəxsiyyət və müdrik rəhbər tanımırıq. Çünki cənab Prezident xalqa arxalanıb, xalq da Prezidentə arxalanıb! Allah Prezidentimizi və xalqımızı qorusun!

Faiq QİSMƏTOĞLU

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

Pulu evdə saxlamaq lazımdır, yoxsa bankda?

İnsanların heç də hamısı əldə etdikləri gəliri tam xərcləmirlər.Əksər insanlar qazanclarının bir hissəsinə qənaət etməyə üstünlük verirlər. Nəzəri cəhətdən pula qənaət həm də sərvət yaratmaq, etibarlı maliyyə təminatına sahib olmaq, gələcək xərclərini təmin etmək və həyatın qeyri-müəyyənliklərinə hazırlıqlı olmaq deməkdir. Pula qənaətin bu motivlərindən əlavə, mühüm məqam kimi, onu harada saxlamaq məsələsi də olduqca vacibdir.

Son 10 ildə Azərbaycanda fiziki şəxslərin əmanətlərinin həcmi 2 dəfədən çox artmaqla, 2022-ci ildə 11.6 milyard manata bərabər olmuşdur. Onların 90%-ni isə rezidentlər tərəfindən banklara qoyulan əmanətlər təşkil etmişdir. Milli valyuta ilə ifadədə 2016-cı ildən sonra manatla əmanətlər 4 dəfədən çox artdığı halda, xarici valyutada qoyulan əmanətlərin həcmi 1 milyard manat azalmışdır. Tendensiyanın əsas səbəbi milli valyutanın məzənnəsinin zamanla sabitlənməsi və bank sektorunda baş verən fluktuasiyaların qarşısının vaxtında alınması olmuşdur.

Sosial Tədqiqatlar Mərkəzi növbəti blitz sorğu mövzusu kimi vətəndaşların pullarını harada daha etibarlı (təhlükəsiz) saxlaya biləcəklərinə dair rəyi öyrənmişdir.

Qeyd etmək istərdik ki, sorğu çərçivəsində söhbət vətəndaşların gündəlik xərc təyinatlı vəsaitlərinin daha təhlükəsiz hesab etdikləri saxlama formasından gedir. Yəni spesifik olaraq yığımların daha etibarlı saxlanılması formaları ilə bağlı mövqe öyrənilməyib.

Keçirilən sorğunun nəticələrində insanların öz pulunu saxlamaq üçün daha çox banklara üstünlük verdiyi aşkar olunub. Belə ki, sorğuda iştirak edənlərin 39.9%-i pulunu evdə saxladığı halda, 56.7%-i banklara etimad göstərir. Sorğu çərçivəsində respondentlərin 1.8%-i digər cavab variantlarını qeyd edib, 1.5%-i isə bu suala cavab verməkdə çətinlik çəkdiklərini bildirib.

"Sizcə, pul vəsaitini harada qorumaq daha təhlükəsizdir?" sualına kişilərin yarısı (50.3%) "evdə" cavabı verdiyi halda, qadınların seçimi daha çox banklardan yana olub (62.9%).

Sorğu nəticələrini yaş təsnifatı üzrə təhlil etdikdə məlum olur ki, digərləri ilə müqayisədə gənclər daha çox bankları təhlükəsiz hesab ediblər. Belə ki, 18-24 yaşda olanların 65.2%-i öz seçimlərində banklara üstünlük verdiklərini bildirib. Bu məqam həmçinin özünü tələbələr üzrə də daha aydın şəkildə büruzə verib - 88.9%.

Həmçinin təhlillər orta aylıq gəliri 901-1200 manat aralığında olanların (70%) digərləri ilə müqayisədə pul vəsaitini evdə saxlamağa üstünlük verdiyini göstərib.

Qeyd edək ki, sorğular 18 yaşından yuxarı 384 nəfər arasında telefonla müsahibə formasında keçirilib, könüllü iştirak və anonimlik prinsipləri qorunub.Sorğu 12 iqtisadi rayonu əhatə edib və gender balansı təmin edilib.Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.

Eminquey

Kulturoloq: "İşsizliyi normal qarşılmaq lazımdır"

"Öz milli adətlərimizə əməl edəndə bizə kəndçi deyirsiniz"

Müsahibimiz Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yenimedia.net saytının və kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, yazıçı-kulturoloq Aydın Xan Əbilovdur.

-Yazdığınız statuslara və söylədiyiniz fikirlərə görə çox vaxt birmənalı qarşılanmırsınız. Bu hal sizi narahat edir?

-Günümüzün öz tenxologiyaları və informasiya ötürmə estetikası var. Biz yeni nəsil intellektuallar sosial şəbəkələrdə, internet saytlarında və verlişlərdə tele-ekspert kimi analtik təfəkkürün məshulu olan fikirlərimizi sərgiləyirik. Bu da bir çox insanların ağlının qəbul etdiyi səviyyədən yuxarı olduğu üçün müxtəlif münasibətlər, rəylər və əks-səda yaradır. Mən söylədiyim fikirlərə görə məsuliyyət daşıdığımı anlayıram. Harda nə dediyimi də çox yaxşı bilirəm. Bu baxımdan illəri qabaqlayan fikirlər söyləyən zaman, həmişə daş-qalaq olunmuşam. Əslində bütün dövrlərdə belə olub. Məhəmməd Füzuli əsərlərinə görə tənqid olunub. Nizami Gəncəvi yazdığı əsərlərə görə sıxışdırılıb. M.F.Axundzadə hətta öləndə mənzilində 3 gün kimsəsiz qalıb. Savadsız mollaların fitvasına uymuş azərbayacanlılar Axundzadəni dəfn etməyə getmədilər. Amma tarix dəyişdi, Axundzadənin fikirləri müstəqil Azərbyacanın yaranmasında ideoloji silaha çevrildi.

Azərbycan cəmiyyəti ümumən konservant cəmiyyətdir. Yəni ənənələrə çox bağlıdır.

Bu cəmiyyət yeni fikirlərə qarşı çıxır. Nəsimini asan cəmiyyətik, Xətaiyə qarşı çıxan xalqıq. Sonra isə onlara heykəllər ucaldılır və adları tarixdə əbədiləşdirilir. Ona görə də fikirlərimin birmənalı qarşılanmamağı məni narahat etmir.

Mən kulturlogiya, multikulutralizm, tolerantlıq kimi dünya cərayanlarında, dünya estetik fikirləri ilə bağlı maarifçilik edəndə hər kəs məni daş-qalaq edirdi. Ancaq illər sonra multikultralizmlə bağlı mərkəz yaradıldı.

-Dünya ölkələrinin inkişaf etdiyi bir dövrdə, bizim cəmiyyət hələ də yeniyetmə qızların erkən nikahına göz yumurlar. Buna səbəb nədir?

-Əslində bu məsələ sosial, psixoloji, mənəvi və digər problemlərlə bağlıdır. Erkən nikahları adətən uşaqbazlıq və azyaşlılarla pornoqrafiya ilə məşğul olan insanlar üçün labüddür.

Bizdə yaxşı ki, uşaqbazlıq və azyaşlı uşaqlarla seksual əlaqədə olmaq cinayətdir. Azyaşlıları yoldan çıxartmaq, seks əlaqəsində olmaq statistik baxımdan çox azdır. Bəlkə də var, onlar gizlədilir. Axı biz hər şeyi gizlətməyə meyilli bir cəmiyyətik. Erkən nikah problemi bizim cəmiyyətdə intim mnüasibətlərin açıq formada olmamağına görədir. Bu adətən nikah və kəbin üzərində baş tutur.

Düşünürəm ki, Azərbaycan cəmiyyəti intellektual cəhətdən üstündür ki, belə hallar olanda qəti etirazını bildirir. Vaxtilə anam 14 yaşında ərə gedirdisə, indi nəvəsini 20 yaşdan aşağı ərə vermək istəmir.

-Ümumiyyətlə, erkən nikahla bağlı cəmiyyətlə bu qədər mesaj ötrülsə də, bu kimi xoşagəlməz hallar hələ də davam edir...

-Erkən nikahların qarşısını təkcə maarifləndimrəklə almaq mümkün deyil. Sözsüz ki, burda həm də qızın valideynləri, həm oğlanın valideynləri mütləq cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Belə hallar baş verəndə, 15 nəfər həbs olunsa, bir kimsə bir daha cəsarət edib öz kiçikyaşlı qızını ərə verməz.

-Erkən nikaha bu qədər meyilli olmağın səbəbi nədir?

-Azərbaycanda seks aclığı var. Gənclərimiz intim münaisbətdə təmin edə bilmirlər. Cinsi ehtiraslarını ödəyə bilmirlər.

Bilirsiniz ki, qonşu Türkiyədə yüngül əxlaqlı qadınların öz bədənlərini satmaq üçün xüsusi görüş yerləri var. Bu, artıq qanuniləşdirilib. Bunun yaxşı tərəfi odur ki, insanlar cinsi istəklərini ödmək üçün müəyyən miqdar pul ödəyirlər Həmin puldan dövlətə vergi ötürülür. Sonra həmin puldan bədənlərini satan qadınlara təqaüd verirlər. Həmin qadınlar yoxlanılır, müxtəlif xəstəliklərə yoxulmağın qarşısı alınır. Ancaq bizdə belə deyil. Bizdə müxtəlif əyləncəxanalar, masajxanalar, sauna mərkəzləri var. Hotellərdə axtarış etsək, orda mühafizə sisteminin və bir çox aidiyyatı qurumların gözü qarşısında açıq-aşkar baş verən hadisələr insan alveridir.

Düzdür, Daxili İşlər Nazirliyi insan alverinə qarşı təbdirlər görür. Belə halları ifşa edir.

Ancaq hər hansı bir masaj salonuna və sauna mərkəzinə polis necə daxil ola bilər? Bu mərkəzin lisenziyası var. Hər bir salonda və saunada kamera quraşdırıb müşahidə etmək olmaz. Onda da insan hüquqlarının pozulması ilə bağlı car çəkirlər.

-Adət halına çevrilmiş toy və yas mərasimlərimizdə insanların qaydaya çevirdiyi hallardan necə qurtulmaq olar?

-Düşünürəm ki, toy və yas mərasimlərində mənfi hallar yoxdur. Yeganə məkan toy və yas mərasimidir ki, insanlar orda birləşə bilirlər. Toyda şənlənirlər, yasda öz problemlərindən, məişət qayğılarından danışırlar. Biz bu mərasimlərdə sosiallaşırıq. Azərbaycanin milli adət və ənənələrinin sıradan çıxarılmağının qəti əleyhinəyəm. Müxtəlif dövlətlərin adət-ənənələrini mənimsəyirik, amma öz sağlam, köklü ənənələrimizə qarşı çıxmaq istəyirik. Adət-ənənə bu xalqı qədim xalq kimi tanıdır. Məsələn qədim yunan xalqı, latın xalqı yoxdur. Amma bizim xalq yaşayır. Xalqı yaşadan isə onun ənənəsidir.

Sadəcə adətlərimizə müxtəlif artıq xərclər gətirmək dorğu deyil. Bu, budcəyə ziyandı.

Dəfələrlə bunu demişik ki, toyda 20 növ salat, 10 cür yeməyə ehtiyac yoxdur. Əgər pulunuz çoxdursa, onu daha məqsədyönlü işlər üçün xərcləyin. Övladınız üçün ev alın, hər hansı bir kasıba yardım edin v.s kimi yaxşı işlər görün.

İndi çox adam yas mərasimlərində ehsan verməyin əleyhinə danışır. Birincisi, kənd yerlərində 2 gün, şəhərdə isə 1gün süfrə açılır. Yasda yemək və çay süfərsinin açılmağı mərasim sahiblərinin büdcələrindən salıdır. Kim istəyirsə süfərsini bol edə bilər, kim də istəyirsə bir növ təamla kifayətlənə bilər.

Necə olur ki, məhərrəmlikdə və orucluqda süfrə açanda savab olur, amma ata-anamızın adına süfrə açanda kimlərinsə gözlərinə giririk.

Ərəbin rusun, farsın, ingilisin balalarını gətirib beynimizə sırıyırlar. Öz milli adətlərimizə əməl edəndə bizə kəndçi deyirsiniz. Yığışdırmaq lazımdır belə lazımsız söhbətləri. Cəmiyyət buna qarşı qəti etirazını bildirməlidir. Şəxsən mən öz etirazımı bildirmişəm.

- Cəmiyyətdə işsizlikdən şikayətçi olan toplum getdikcə çoxalır. Buna səbəb nədir? Yəni bu problemin səbəbi özümüzdədir yoxsa aidiyyatı qurumlarda?

-İşsizlik dünyanın inkişaf etmiş ölkələrinin ən böyük problemlərindən biridir. Hətta ABŞ-da belə 15%-ə qədər işsizlik var. Postpandemiya ve post-müharibə dövrünü keçən, hələ də yeni cəmiyyət quruculuğunu başa çatdırmayan Azərbaycanda da işsizlik həmişə olub. Bunu dövlət qurumları da, biz də dəfələrdə söyləmişik. Cənab Prezident də bununla bağlı xüsusi proqramlar işləyir. İlham Əliyev həmişə çıxışında qeyd edir ki, insan resusunu, insan kapitalını inkişaf etdirmək lazımdır.

Kənd təsərrüfatının inkişafı, düyüçülüyün, narçılığın, pambıqçılığın inkişafı ilə bağlı proqramlar qəbul edilir. Yeni iş yerləri yaradılır. Azad iqtisadi zonalar Azərbaycanda müəyyənləşir.Müasir dövrdə texnologiyanın inkişafı insan əməyini minumuma endirib. Əvvəl bir zavodda 100 adam işləyirdisə, indi 30 nəfər bəs edir. Çünki çox işi texniki qurğular idarə edir. Bu səbəbdən də işsizliyi normal qarşılmaq lazımdır.

Təkliflər olunur ki, insanlar öz peşə və vərdişlərini dəyişsinlər. Əhalinin işlə təmin olunması ilə bağlı müxtəlif layihələr həyata keçirilir.

Qarabağda yeni iş yerləri açılır və bu barədə elanlar verilir. Amma insanlar özlərinə əziyyət verib fiziki işlə məşğul olmaq istəmirlər.

Dünyanın hər yerində belədir ki, insanlar daha çox xidmət sahəsində çalışmağa meyilli olurlar. Yəni az əmək sərf edib, çox pul qazanmaq istəyirlər. Gənclərimiz çox tənbəldir. Xarici dil öyrənmək istəmirlər.

Ali məktəbi bitirən kimi çox yaxşı həyat yaşamaq istəyirlər. Amma o yaxşı həyat üçün karyera qurmaq lazımdır.

Yeniliyə can atan çox az adam var. Bir çox gənclərimiz düşünürlər ki, polisdə işə düzəlib, rüşvət alıb varlansın. Halbuki, dünyanın heç bir ölkəsində belə absurd düşüncə yoxdur.

Düşünürəm ki, insanlar daha kreativ fikir irəli sürərək, daha maraqlı işlərlə məşğul olmalıdırlar ki, həm ökləmiz inkişaf etsin, həm də özləri varlansınlar.

Əntiqə Kərimzadə

"Vaqner"in komandiri Norveçdə həbs edildi

"Vaqner" şəxsi hərbi şirkətinin yaradıcısı və rəhbəri Yevgeni Priqojin, Norveçdə həbs edilən Andrey Medvedevin həqiqətən "Vaqner"in döyüşçüsü olduğunu təsdiq edib və onun həbsini özünün Telegram- kanalında şərh edib.

"Andrey Medvedev Norveç vətəndaşı olduğu üçün, "Vaqner"in "Hidx k" adlanan Norveç batalyonunda komandir olub. Əsirlərlə qəddar rəftarına görə, cinayət məsuliyyətinə cəlb olunmalı idi. Bununla bağlı sənədlər "Vaqner" hərbi şirkətinin təhlükəsizlik xidmətində toplanıb Rusiyanın hüquq mühavizə orqanlarına təhvil verilməliydi. Medvedev bu günədək axtarışda idi. Ehtiyatlı olun, o çox təhlükəlidir"- deyə Priqojin Norveç hökumətini xəbərdar edib.

13 yanvar tarixində, qanunsuz olaraq Rusiya sərhədlərini keçərək Norveç ərazisinə daxil olan Medvedev həbs edilib. O, özünü "Vaqner"in keçmiş döyüşçüsü kimi qələmə verərək, Norveç hakimiyyətindən sığınacaq istəyib.

Hazırda həbsdə olan Andreyə təhkim olunan vəkil Yens Bernxard Xerstad bildirib ki, Rusiya vətəndaşının vəziyyəti yaxşıdır. Bu da belə... "Putinin aşpazı" Priqojinin, yaratdığı və rəhbərlik etdiyi şəxsi hərbi şirkətinə cəlb etdiyi muzdlu əskərlərdən "birdəfəlik şpris" kimi istifadə etməsi və ehtiyac olmadıqda onlardan nümayişkəranə şəkildə imtina etməsi, görəsən hazırda döyüşən digər muzdlulara ibrət dərsi ola bilərmu?..

Rüstəm Hacıyev

Müğənniyə 20 min dollar, 250 m² mənzil hədiyyə: AÇMASI?

Hər dəqiqə Azərbaycan televiziyalarına baxan deyiləm. İnformasiyanı ya saytlardan ya da sosial şəbəkələrdən alıram.

Anam qonağımızdır, deyə, dünənki gün televizorumuz açıq olub, gecəyə qədər işləyib. Yaşlı adamdır də, sosial şəbəkəsi yox, sayt bilmir nədi. Dünya ilə əlaqəsi ancaq televiziya vasitəsiləedir.

Boş zamanım olduğuna görə, məcbur bir neçə saatlıq anama qoşulub kanalları gözdən keçirdim. Çox bayağı, "ət tökən", əsəbləri korlayan şou verlişlərini izlədikcə az qalırdım televizoru vurub sındırım, amma anama görə, "lənət sənə kor şeytan" deyib, dayanırdm! Bir gün Azərbaycan teleməkanındakı verlişlərin mahiyyətinə varan bir yazı hazırlayacağıma söz verib, başqa bir məsələyə toxunmaq istəyirəm.

Gül dollar, dollar-gül..

Deməli, ARB telekanalında yayımlanan "Həmin Zaur" proqramında "özbaşnalıq", gənclərin tərbiyəsinə və dünyagörüşünə zərbə vuracaq hadisənin şahidi oldum. Olmaz olaydım...

Proqrama Mehriban Qənbərova adlı (indiyənə qədər nə özünə , nə də adına rast gəlmişdim") müğənni dəvət olunmuşdu.

Əvvəldən anlayırıq ki, bu tip verlişlər hansısa müğənninin, ifaçının istedadını yox, başqa "yönlər"ini göstərməyə hesablanır. Belə verlişləri izləyənlər bunu bilir . Bu dəfə də belə oldu.

Deməli, anamın "bəh-bəh"lə baxdığı "Həmin Zaur" verlişinə dollardan yığılan buket və mənzil açarı göndərilir. Aparıcı Zaur Kamal bunları öz bildiyi kimi yorumlamağa başlayır.

Belə çıxır ki, Mehribana göndərilən buketdə 20 min dollar (təxminən 34 000 AZN) var. Hələ aparıcı sənətçiyə göndərilən 250 m² mənzilin açarını da təqdim edir.

Efir zamanı sözügedən evin yerləşdiyi binanın görüntüləri də nümayiş olunur. İfaçı Mehriban isə bu hədiyyələrin kimdən gəldiyini bilmədiyini israrla bildirdi. Yəni and-aman edir ki, guya tanımır.

Korifeylərə 20 min dollar üstündə də, 250 m² mənzil verilib?

Keçək əsas məsələyə: Şərqdə muğam dəstgahlarını tamam-kamal ifa edən ilk qədim sənətkar, səhnəmizin lirik Leylisi, ustad xanəndə, muğam və mahnılarımızın ilkinliyini ustalıqla qoruyaraq, nəsildən-nəsilə ötürən, Xalq artisti Sara xanım Qədimovanın yaradıcılıq yolu yeni nəsillər üçün əsl vətənpərvərlik, fədəkarlıq və sənətə sədaqət nümunəsi olub. Ömrünün tərtəmizcə, 60 ilini Azərbaycan musiqi sənətinin inkişafına həsr edib. Cabbar Qaryağdıoğlu, Bülbül, Seyid Şuşinksi, Xan Şuşinski, Rəşid Behbudov, Həqiqət Rzayeva, Rübabə Muradova, Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Hacıbaba Hüseynov, Ağaxan Abdullayev, Nəzakət Məmmədova kimi səsi, nəfəsi ilə Azərbaycan musiqinə yeni səs, nəfəs qataraq musiqimizi nəinki, şərq ölkələrində eləcə də dünyanın bir çox ölkələrində sevdirən korifey sənətkarlarımız olub. Hələ dünyanı 4 oktava səsinə heyran buraxan Flora Kərimovanın, fransalı DJ David Vendetta ilə "I'm your Goddess" adlı mahnını duet şəklində ifa edən, ABŞ-ın "The New York Times" qəzetinin jurnalisti Con Pareles tərəfindən "ehtiras və sədaqət, düşüncə və cazibə ilə əlaqələndirən seyrək bir cəhətdən canlı olan ən böyük müğənnilərdən biri" adlandırılan Alim Qasımov musiqi əzəməti haqqında aylarla, illərlə danışmaq olar. Baxın, o vaxtı da , indi də, hər zaman imkanlı, varlı musiqisevərlər olub. Bəs görən, niyə bu korifey sənətkarların birinə bir dəstə güldən başqa bir hədiyyə verilməyib? Axı bu korifeylərin nəyi əskikdi, Mehriban Qənbərovadan?

Xarici müğənniləri də araşdırdım. Seyid Lazım ağanın cəddi haqqı, dünyanın bir nömrəli pop-ulduzu Maykl Cekson da pərəstişkarları tərəfindən belə qiymətli hədiyyəyə layiq görülməyib. Həzrət Abbas haqqı...

Dünəndən, öz-özümə danışıram, arabir gülürəm, arabir əsəbləşirəm...öz-özümə...elə bil "havalanmışam": işə bax, bu nə qiymətli müğənni imiş, bu nə müstəsna matah səs imiş ki, 20 min dollar üstündə də, 250 m2 mənzil...

Bu mənim öz qənaətimdi: Mehriban Qənbərova nəsə çox fövqəl gücdür, Orxan Fikrətoğlu demiş, nəsə alayı bir şeydi...Yəni, korifeyin, korifeyinin, korifeyidir...

Əntiqə Rəşid

Günay Əfəndiyeva Reza Deqati ilə görüşüb

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu 2023-cü il üzrə Türk Dünyasının Mədəniyyət Paytaxtı Şuşa ilə bağlı layihələrini davam edir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təşkilatın prezidenti Günay Əfəndiyeva dünyaca məşhur Azərbaycanlı fotoqraf Reza Deqati ilə görüşüb. Görüşdə Günay Əfəndiyeva Fond tərəfindən 8-9 dekabr 2022-ci il tarixində Türkiyənin Bursa şəhərində təşkil olunan "Şuşa Günləri" çərçivəsində keçirilmiş Reza Deqatinin Qarabağın qədim tarixini və zəngin mədəniyyətini əks etdirən "Azərbaycanın incisi Şuşa" adlı fotosərgisini xatırlayaraq, onun Bursa ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandığını qeyd edib.

Fondun prezidenti Türk Dünyasının çoxəsrlik zəngin irsinin geniş təbliğinin önəmindən, təşkilatın 2023-cü il üzrə Türk Dünyasının Mədəniyyət Paytaxtı Şuşa ilə bağlı layihələrindən danışıb. Reza Deqati Fondun türkdilli xalqların tarixinin, elmi-mədəni irsinin öyrənilməsi və milli-mənəvi dəyərlərin təbliği istiqamətində apardığı fəaliyyəti yüksək qiymətləndirib.

Görüşdə həmçinin Reza Deqatinin Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun gələcək layihələrində fəal təmsil olunması məsələsi müzakirə olunub.

Görüş qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi ilə davam edib.

İstanbulun ən böyük kitabxanası açıldı

Mədəniyyət və Turizm Nazirliyi Rami Kitabxanasına gələcək ziyarətçilərin yolunu gözləyir .

İstanbulda Eyüpsultanda yerləşən Rami Kitabxanası, keçmiş 18-ci əsrə aid Rami Kazarması ərazisində yerləşir.

Özünəməxsus struktur və materiallar əsasında aparılan bərpa, təmir və tikinti işlərindən sonra Rami Kitabxanası "İstanbulun ən böyük kitabxanası"na çevrildi.

Bu kitabxana Avropanın özünəməxsus xüsusiyyətlərinə malik azsaylı kitabxanalarından biridir.

Adalet.az xəbər verir ki, Rami Kazarması kampusunun 4200 nəfərlik oturma tutumu, körpə və uşaq kitabxanası, rəqəmsal kitabxanası, gənclər kitabxanası, böyüklər üçün kitabxana və müxtəlif ixtisaslaşdırılmış kitabxanalar da daxil olmaqla çoxsaylı bölmələri var. Müasir kitabxana xidmətləri göstərə bilməsiüçün kompleksə 24 saat xidmət göstərən iş və oxu zalları, uşaq bölməsi, etüd bölməsi, qrup və fərdi iş zalları da daxildir.

36.000 m² qapalı sahəsi və 220 dekar sahədə 2.5 milyon cild tutumu olan kitabxananın pezyaj sahəsi 51.000 m² olaraq onu Avropanın "ən böyük qapalı pezyaj sahəsinə malik kitabxana" edir. Bu geniş yaşıllıq sahəsinə əlavə olaraq, Rami Kitabxanasında ağaclarla əhatə olunmuş 1000 m²-lik süni gölməçə də var.



Türkiyədə Dayanıqlı Muzey Sertifikatı alan ilk kompleks

Rami Kitabxanası Türkiyənin ilk "Biosfer Dayanıqlı Muzey Sertifikatı"na da malikdir. Kitabxana, bərpa üsulları və infrastruktur sistemləri, yerli mədəni həyatı dəstəkləyən struktur və ziyarətçilər üçün yeni yaşıl yaşayış sahəsi də daxil olmaqla hər aspektdə dayanıqlılıq prinsiplərinə tam uyğunluğuna görə turizmin dayanıqlılığı sertifikatı olan Biosfer Davamlı Muzey Sertifikatı aldı. Bundan əlavə, Kitabxana qədim mənbələrin və məlumatların gələcək nəsillərə ötürüldüyü bir platformadır.

İstanbulun "Yaşayan Kitabxanası" Rami Kitabxanası "Yaşayan kitabxana" və müasir kitabxanaçılıq anlayışı çərçivəsində cəmiyyətin mədəni, təhsil və sənət ehtiyaclarını qarşılamaq üçün hazırlanmış vəlstanbula qazandırılmıştır. Kitabxana müxtəlifliyi ilə hər yaşdan olan ziyarətçilərə "yeni kitabxana təcrübəsi" təqdim edəcək.

Rami daxilindəki Atatürk Araşdırmaları İxtisas Kitabxanası Türkiyənin ən böyük Atatürk İxtisas Kitabxanası olacaq. Bu bölmədə Türkiyə Cümhuriyyəti tarixi, türk dili və mədəniyyəti, ən başda Atatürk tarixi ilə bağlı əsərlərlə yanaşı, xüsusilə ictimai və humanitar elmlər sahəsində işləyəntədqiqatçılar və oxuculara xidmət edən 20.000-dən çox kitabdan ibarət zəngin bir kolleksiya təqdim olunur.

"Şifahane" bərpa bölməsində keçmiş gələcəyə ötürüldü

Kitabxananın inventarında qeydə alınmış əlyazmalar və nadir çap əsərləri Əlyazmalar Kitabxanasının daxilində yerləşən "Şifahane"də (bərpa bölməsində) qorunur. Müxtəlif cildlərin və kitabların istifadəyə yararsız hala düşməsi Kitabxananın laboratoriyasında aparılan tədqiqatlar vasitəsilə qiymətləndirilir, bərpa işləri mütəxəssislər tərəfindən ciddi şəkildə aparılır. Şifahanə baxımında olan əşyalar anbar yerlərində uyğun şəraitdə saxlanılır və mütəmadi olaraq nəzarətdə saxlanılır. Mədəniyyət, tarix və incəsənət sahələrində İstanbulun "əsas cazibədar nöqtəsi" olması gözlənilən Rami Kitabxanası milyonlarla kitab, qeyri-kitab materialı və rəqəmsal resursları oxuculara və tədqiqatçılara təqdim edir. Kitabxanada həmçinin il ərzində müxtəlif seminarlar və sərgilər keçiriləcək.

Tarixi Kışladan Türkiyənin Ən Böyük Kitabxanasına

Arxiv yazılarından məlum olduğu kimi, Rami Ferma Kazarması Osmanlı İmperatorluğunda Sultan III Mustafanın (1757-1774) dövründə vəzir Rami Mehmet Paşa tərəfindən qurulmuşdur. Cümhuriyyət dövründə də orduya xidmət edən kazarmalar 1960-cı illərə qədər fəal şəkildə istifadə olunub. Kışla 2014-cü ildə başlayan və 2023-cü ildə tamamlanan bərpa işləri ilə Türkiyənin ən əhəmiyyətli kitabxanalarından birinə çevrildi.

Şəbnəm Tapdıq: "Biabır olduq, bəsdir"

Uzun müddətdir efirlərdə görünməyən Əməkdar artist Bəsti Bəkirova açıqlaması ilə gündəm olub.

Adalet.az xəbər verir ki, Bəkirova "Həyat tərzi" verilişində qonaq olarkən Şəbnəm Tapdıq və bir vaxtlar onunla eşq yaşadığı deyilən Xalq artisti Sərxan Sərxandan bəhs edib.

Bəkirova efirdən Sərxana səslənib. Onun Şəbnəmlə evlənməsini istədiyini söyləyib.

Tapdıq isə əlini başına tutaraq, "Bu nə deyir? Biabır olduq, bəsdir. Bunu montaj et, getsin", - deyə, etirazını bildirib.

Brilliant Dadaşova tanınmış aparıcını yıxıb-sürüdü

Xalq artisti Brilliant Dadaşova aparıcı Gülnar Səhliyarının hamiləlik fotosuna tənqidi fikirlərini bildirib.

Adalet.az xəbər verir ki, Xalq artisti aparıcının instagram səhifəsində yayımlanan şəklinə bu sözləri yazıb:

"Keçmişdə xanım qadınlar bacardıqları qədər hamiləliklərinin bilinməməsinə səy göstərərdilər. Qaradərili və xidmətçi qadınlar isə hamiləliklərini gizlətməsələr də, bu, onlara qəbahət sayılmırdı. Çünki onlar ikinci dərəcəli insan sayılırdılar. İndi zənci qadınlardan örnək almaq dəb halına gəlib. Amma yenə qızların şəxsi keyfiyyətlərindən bəhs edir. Dəblə, çağdaş olmaqla heç bir əlaqəsi yoxdur".

Erməni müğənni Roza Linn ABŞ konsertində "hoqqa" çıxartdı

İtaliyanın Turin şəhərində keçirilən "2022 Avroviziya Mahnı Müsabiqəsi"ndə Ermənistanı təmsil edən Roza Kostandyan "Sarp" (Şaqqıldat) mahnısı ilə özünü dünyaya sırıya bildi.

Ölkəsində müğənni, mahnı bəstəçisi və prodüsser kimi tanınan Roza musiqi dünyasına Linn soyadı ilə daxil oldu. Lin peşəkar musiqi karyerasına erməni əsilli amerikalı müğənni-bəstəkar Tamara Kaprelyanın əsasını qoyduğu amerikan "rekord leybl Nvak Collective" ilə davam etdirir

Adalet.az xəbər verir ki, digər erməni əsilli dünya ulduzlarından seçilməyən Roza linn yanvarın 14-də Los-Ancelesdə konserti olub.

O, əlində Ermənistanın bayrağını tutaraq hitə çevrilən "Snap" mahnısını ifa edib. Linnin əynində üzərində "Stop blockade" və "Artsax" yazıları olan pencək olub.

Qeyd edək ki, Roza 2000-ci ildə Qərbi Azərbaycanın Qarakilsə rayonunda anadan olub. Ermənilər Qarakilsənin adını dəyişərək Vanadzor ediblər.

***P.S.** Əminik ki, beyni "Böyük Ermənistan" xülyası ilə azara düşmüş dünya ulduzları Kim Kardaşyan, Şer Sarkisyan getdiyi yolu, Roza Linn addım addım davam etdirəcək.*

Allah sizə şəfa versin...

Əntiqə Rəşid

2022-ci ildə İstanbul Kapalıçarşı 40 milyona yaxın ziyarətçiyə ev sahibliyi etdi

İstanbulun tarixi alış-veriş və ticarət mərkəzi olan Kapalıçarşı, 2022-ci ildə restavrasiya edildikdən sonra 39 milyon 766 min 801 nəfər tərəfindən ziyarət edilib. İçəridən labirintə bənzəyən bu möhtəşəm obyekt, tekstildən antikvarlara qədər hər cür məhsulun satıldığı minlərlə dükanı özündə birləşdirir və əsrlərdir ən sıx alış-veriş məkanıdır.

Minlərlə işçisi və müştərisi ilə kiçik bir şəhəri xatırladan qapalı bir kompleks olan Kapalıçarşı, keçən il aparılan restavrasiyadan sonra yenilənmiş quruluşu ilə yenidən öz qonaqlarını qəbul etməyə başlayıb. 2021-ci ildə 25,5 milyon olan Kapalıçarşı ziyarətçilərinin sayı, 2022-ci ildə 56% artaraq 40 milyona çatıb. Bu rəqəmlə keçən il Kapalıçarşıyı orta hesabla 100 min adam ziyarət edib.

İstanbulun Tarixi və Alış-veriş marşrutu;

İstanbulda Nuruosmaniye, Mercan və Beyazıt arasında yerləşən Kapalıçarşının tarixi 15-ci əsrin ortalarından başlayır. Sosial-iqtisadi və mədəni həyatı demək olar ki, tam əhatə edən Osmanlı vəqf sistemi çərçivəsində, təmir-bərpa kimi xərc və ehtiyacları qarşılamaq üçün dini və digər sosial və xeyriyyə qurumlarının yaxınlığında bazar kimi tikililər inşa edilmişdir. İstanbulun ən əhəmiyyətli rəmzlərindən biri olan Kapalıçarşının təməli, 1461-ci ildə Fatih Sultan Mehmetin Ayasofyaya gəlir gətirmək üçün inşa etdirdiyi tikililərlə qoyulub.

Zamanla bölgənin ən əhəmiyyətli ticarət mərkəzinə çevrilən Kapalıçarşı, dünyanın hər yerindən gətirilən zərgərlik məmulatlarının və qiymətli metalların ticarətinin aparıldığı və emal edildiyi mühüm maliyyə mərkəzi kimi xidmət etməyə başlamışdır.

Dünyanın nəinki ən qədim, həm də ən böyük ticarət mərkəzi olaraq qəbul edilən Kapalıçarşı, müxtəlif yanğın və zəlzələlərdən sonra, Sarkis Balyan başda olmaqla məşhur memarlar tərəfindən dəfələrlə təmir edilmişdir. Tarixi və mədəni əhəmiyyətə malik olan Kapalıçarşı ədəbiyyat, səyahətnamələr və incəsənətdə mühüm yer tutmaqla yanaşı, dünyanın ən çox ziyarət edilən tarixi bazarlarından biri kimi də diqqət cəlb eləməyə davam edir.

Unutmayın, Kapalıçarşıda alış-verişin ilk qaydası 'Endirim almaqdır!'

500 illik müddətdə edilən əlavələrlə, hazırda 2500-ə yaxın iş yerinə ev sahibliyi edən tarixi Kapalıçarşıda xalçadan çantaya, tekstildən qızıl-gümüş zinət əşyalarına, əntiq əşyalardan kirəmitlərə qədər saysız-hesabsız məhsul tapa bilərsiniz. Kapalıçarşıda əl işləri üzrə ixtisaslaşmış ustaların yerləşdiyi "han" adlanan hissədə 1200-ə yaxın iş yeri var. Kapalıçarşı yayda 08.30-19.30, qışda isə 08.30-19.00 arası açıqdır.

Kapalıçarşı ziyarəti İstanbulun tarixi atmosferini hiss etmək və onun iqtisadi dinamikasını müşahidə etmək, yəni bir bazar vasitəsilə bütün İstanbulu yaşamaq və təcrübə etmək imkanı verir.

Mükəmməl məhsul və ya əşya axtararkən, Kapalıçarşının dolanbac küçələrində və keçidlərində etdiyiniz maraqlı gəzinti, sizi valehedici mağazalar, eləcə də çoxsaylı kafe və restoranlarla qarşılaşdıracaqdır. Kapalıçarşıya səfəriniz zamanı bazarda alış-verişin qızıl qaydasını heç vaxt unutmayın: "Hər alış-verişdə endirim istəyin"!

Elza Seyidcahan Mətanətin səsini sevir, özünü yox

Elza Seyidcahanla Mətanət Əsədova arasında qalmaqal davam etməkdədir.

Adalet.az xəbər verir ki, əməkdar artist Elza Seyidcahan Mətanətə Əsədova haqqında "Mətanət Əsədova kimdir ki? Müğənnidir? Müğənni deyil. Səsi var, səsinin aşiqiyəm. Sənətinin üstünə düşməkdənsə, bədəninin üstə düşüb. Adam səsi montaj edər, oxuyar. Düzü, cavab verər ki, montaja ehtiyacı yoxdur. Qəşəng oxuyur. Mən onu sevmirəm. O, seviləsi adam deyil. Səsini sevirəm. Məsələn, bacımın diapazonu, lirikası, savadı, dünya görüşü var. Nə fayda? Haradadır? Narahat olmalıdır ki, Allah bu səsi verib, inkişaf etdirim. Adam səhvləri düzəldər. Mən Mətanətə dediklərimi, bacıma da deyirəm" sözlərini deyib.

Əsədova isə Seyidcahanının tənqidinə "Günaydın, Azərbaycan" verlişində cavab verib:

"Elza bir dəfə efirə zəng etdi və tənqid etdi. Mənə həmin tənid təhqir kimi gəldi. Onun sözü məni dağa çıxartdı. Bir vaxtlar dostlarımı yığırdım, gedib Elzaya qulaq asırdım. Deyirdim, gözəl sənətin, istedadın var" deyə, Mətanət qeyd edib.

Əntiqə Kərimzadə

AFFA-dan 2 futbolçuya ömürlük cəza

AFFA-nın İntizam Komitəsinin iclası keçirilib. Qol.az qurumun saytına istinadən xəbər verir ki, 2 futbolçu futboldan ömürlük kənarlaşdırılıb. Bunlar MOİK-in üzvləri Fərmayıl Əliyev və Emin Mehtiyevdir. Onlar danışılmış oyunlarda iştiraka görə futbol ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olmaq hüququndan məhrum olunub.

Tərəflər bu qərarı aldıqdan sonra 15 (on beş) gün ərzində AFFA-nın Apellyasiya Arbitraj Tribunalına apellyasiya şikayəti verə bilərlər.

Qeyd edək ki, "Neftçi"nin yetirməsi olan Emin Mehtiyev "Abşeron", "Sumqayıt", "Səbail", "Qaradağ Lökbatan", "Keşlə" klublarının, həmçinin Türkiyədə "Niksar Bələdiyyəspor"un formasını geyinib. Fərmayıl Əliyev isə "Turan"ın yetirməsidir. O, müxtəlif vaxtlarda "Şərurspor" və "Neftçi" komandalarının da şərəfini qoruyub.

Şahruddin Avroliqada ən çox seyv edən qapıçılar arasında

UEFA bu mövsüm Avropa Liqasının qrup mərhələsində ən çox qurtarış edən qapıçıların siyahısını hazırlayıb.

Qol.az qurumun mətbuat xidmətinə istinadən xəbər verir ki, 9 nəfərlik siyahıda "Qarabağ"ın qolkiperi Şahruddin Məhəmmədəliyev də yer alıb. O, 21 seyvlə 7-cidir.

1.Konor Hazard ("Seltik") - 28
2.Dnes Dibusz ("Ferensvaroş") - 24
3.Alban Lafont ("Nant") - 23
4.Nikita Haykin ("Bude Qlimt") - 23

5.Kenan Piric (AEK) - 22
6.Sergio Padt ("Ludoqorets") - 21
7.Şahruddin Məhəmmədəliyev ("Qarabağ) - 21
8.Jonas Lössl ("Brentford") - 20
8.Ismael Diawara ("Malmö") - 20

Qeyd edək ki, "Qarabağ" G qrupunda "Olimpiakos" (Yunanıstan), "Frayburq" (Almaniya) və "Nant" (Fransa) komandaları ilə mübarizə aparıb.

"Barselona" Gündoğanla razılaşdı



"Barselona" "Mançester Siti"nin kapitanı İlkay Gündoğanın transferi ilə bağlı razılığa gəlib .

Qol.az xəbər verir ki, Kataloniya klubu 32 yaşlı yarımmüdafiəçini yayda heyətinə qatacaq. Oyunçu ilə La Liqa təmsilçilsi arasında bütü detallar üzrə razılıq əldə olunub. Futbolçu yayda "şəhərlilər"lə müqaviləsi başa çatdıqdan sonra "Barselona"ya keçəcək.

Qeyd dək ki, Gündoğan 2016-cı ildən "Mançester Siti"də oynayır. O, bu mövsüm bütün turnirlərdə 25 oyunda 2 qol vurub və 2 qolun ötürməsini verib.

Adil Cəmil və Taleh İbrahimov yazıçı-publisist **Mehdi Mükərrəmoğlunun** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı. kod: 200112 h\h VÖEN 9900003611 Müxbir hesabı: AZ37NABZ01350100000000001944 S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161 **İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə. **Telefon: 538-05-50, 538-51-31. 434-55-98** **Faks: 539-80-26** **adaletqezeti@rambler.ru** **adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

Tiraj: 1500 **Sifariş: 114** Çapa imzalanmışdır: 19.01.2023